# DİPLOMATİYA ALƏMİ

AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİNİN
JURNALI
№ 1, 2002

***Redaksiya Şurası***

| | |
|---|---|
| 1. Vilayət Quliyev | Nazir (Baş redaktor) |
| 2. Novruz Məmmədov | Azərbaycan Respublikası Prezident Apparatı Xarici əlaqələr şöbəsinin müdiri |
| 3. Araz Əzimov | Nazir müavini |
| 4. Xələf Xələfov | Nazir müavini |
| 5. Mahmud Məmmədquliyev | Nazir müavini |
| 6. İlqar Məmmədov | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) rəisi (baş redaktorun müavini) |
| 7. Qabil Köçərli | Mətbuat və informasiya idarəsinin rəisi |

## ***Redaksiya heyəti***

1. Aliyə Ağazadə — Xarici siyasətinin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) III katibi (məsul katib)

2. Elçin Hüseyinli — Xarici siyasətinin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti

3. Ceyhun Musayev — Mətbuat və informasiya idarəsinin attaşesi

4. Ramil Əkbərov — Mətbuat və informasiya idarəsinin attaşesi

5. Mütəllim Əlimərdanov — İnformatika şöbəsinin aparıcı mütəxəsisi

---

Jurnal üç aydan bir nəşr edilir. Xarici siyasət və diplomatiyaya aid olan sənədləri, fotoşəkilləri və ya məqalələrini jurnalda çap etdirmək istəyənlər XİN-ə müraciət edə bilərlər. Qeyri dəqiq faktlara görə məqalələrin müəllifləri məsuliyyət daşıyırlar. Müəlliflər məqalələrin elektron (disket və ya elektorn poçt vasitəsilə) və çap variantı ilə yanaşı, 5X 6 ölçsüsündə fotoşəkil və müəllifin qısa tərcüməyi-halını, ünvan və telefonlarını təqdim edirlər. Jurnala qəbul edilən məqalələrə olan tələblər:

Həcm: 10 səhifəyə qədər
Dil: Azərbaycan, rus və ya ingilis
Şrift: Azərbaycan dilində: Az Times; rus və ingilis dillərində: Times New Roman
Şriftin ölçüsü: 12
İnterval: 1,5

İstifadə edilmiş ədəbiyyata və ya digər nəşrlərdən sitatlar gətirəndə həmin ədəbiyyata istinad vacibdir.
İstinadlar qeyd vasitəsilə hər səhifədə yeni nömrə ilə səhifənin aşağısında xətt altında verilir. Qeydlərdə müəllifin tam adı və familiyası, əsərin adı, nəşr olunan şəhərin və nəşriyyatın adı, nəşrin tarixi və sitat gətirilən səhifə göstərilir. İnternet vasitəsilə əldə edilmiş mənbələrin web site ünvanları tam və tarixi ilə verilir.
Əlyazmalar və disketlər qaytarılmır. Məqalələr redaktə və ixtisar edilə bilər.

Ünvan: Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi (Mərkəz),
Ş.Qurbanov küç. 4, Bakı 370009
Tel. 92 80 35; 92 73 28, e-poçtu: I-Mammadov@mfa.gov.az

Jurnalın satışı, nəşr və ya digər texniki məsələlər: Tel. 92 80 92, Fəxrəddin Şükürov

# Mündəricat

Vilayət Quliyev, Azərbaycan Respublikasının Xarici İşlər Naziri. Giriş sözü

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il sentyabr –dekabr ayları ərzində diplomatik fəaliyyəti

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Nejdət Sezər ilə təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbula səfəri

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rumıniya Prezidenti İon İliyesku ilə təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri Anri Jakolən ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Praqaya səfəri

Digər görüşlər

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin 2002-ci il sentyabr-dekabr ayları ərzində diplomatik fəaliyyəti

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Daimi İnkişaf üzrə Zirvə Toplantısı çərçivəsində BMT-nın İqtisidi və Sosial Şurasına seçkiqabağı kampaniyanıyası silsiləsində keçirilmiş ikitərəfli görüşlərə dair

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin BMT Baş Assambleyasının 57-ci sessiyasında iştirakına dair

Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin səfər və görüşləri

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Brüssel şəhərinə işgüzar səfəri

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Minsk Qrupunun həmsədrləri amerikalı Rudolf Perina, fransalı Hyuq Perne və rusiyalı Nikolay Qribkov ilə görüşü

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Nazirlər Şurasının 10-cu görüşündə iştirakına dair

Digər görüşlər

## Çıxışlar

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının VII Zirvə Görüşündə çıxışı

Türkiyənin iş adamları ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin NATO-nun Praqa Zirvə görüşündəki çıxışı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Davamlı İnkişaf üzrə Ümumdünya Zirvə Toplantısıında çıxışı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin BMTBaş assambleyasının 57-ci sessiyasında çıxışı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının VII Görüşündə bəyanatı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin ATƏT-in Nazirlər Şurasının X görüşündəki çıxışı

## Qanunlar

Diplomatik xidmət haqqında Azərbaycan Respublikasının qanunu

## Məqalələr

Hicran Hüseynova. Geosiyasət və inteqrasiya

Махир Халифа-заде. Политика США в Азии

Rəşad Əliyarlı. İraq böhranın beynəlxalq vəziyyətə təsiri

Cavanşir Vəkilov. Azərbaycan Respublikası və İran: XX əsrin birinci yarısı

Qurban Məmmədov. Nərimanov və Bolşevik Rusiyasının Şərq siyasəti

Тофик Мусаев. Правовые рамки урегулирования конфликтов на примере территориальных притязаний Армении к Азербайджану

## Xarici nəşrlər

Svante E. Cornell. Undeclared War: The Nagorno-Karabakh Conflict Reconsidered

Samuel A. Weems. Armenia is trying to dictate US foreign policy for selfish and paranoid reasons

## Ermənistan – Azərbaycan münaqişəsi beynəlxalq təşkilatlarda

*BMT Təhlükəsizlik Şurasının qətnamələri*

Qətnamə 822, 30 aprel 1993

Qətnamə 853, 29 iyul 1993

Qətnamə 874, 14 oktyabr 1993

Qətnamə 874, 12 noyabr 1993

**Arxiv sənədləri**

*Azərbaycan Xalq Cümhuriyyəti və Millətlər Cəmiyyəti*

Millətlər Cəmiyyəti. Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbulu. Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin məktubu, 1 noyabr 1920, 20/48/68. Assambleya sənədi.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

# GİRİŞ SÖZÜ

**Əziz oxucular,**

«Diplomatiya aləmi» jurnalının ilk sayı qarşınızdadır.



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi özünün mürəkkəb və çoxsaylı funksional vəzifələrini yerinə yetirməklə bir sırada belə bir məcmuənin də nəşrini zəruri saymışdır.

Çünki bu gün biz yalnız müstəqil dövlətimizin xarici siyasətini həyata keçirməklə öz vəzifələrimizi bitmiş saymaq istəmirik.

Həmin vəzifələrin uğurlu icrası əsas kontingentini gənclərin təşkil etdiyi milli diplomatik korpusun tarixin dərslərini və təcrübəsini öyrənməsini qaçılmaz zərurətə çevirmişdi.

Azərbaycan diplomatiyasının tarixi Azərbaycan dövlətçiliyinin tarixi ilə yaşıddır. Qədim dövrlərdə və orta əsrlərdə diplomatiya tariximizin bir sıra yadda qalan səhifələri yazılmışdır. Klassik avropa satandarlarına uyğun gələn, milli maraqların müdafiəsinə yönələn, ayrı-ayrı monarxların və hakim sülalənin deyil, xalqın və dövlətinin maraqlarını təmsil edən həqiqi diplomatiya isə 1918-ci ildə – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə meydana gəlmişdi.

Təkcə bir faktı qeyd etmək kifayətdir ki, həmin dövrdə Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti sayəsində çox çətin və mürəkkəb bir şəraitdə Birinci Dünya müharibəsindən sonra yeni dünyanın siyasi xəritəsini müəyyənləşdirən Versal sülh konfransında Azərbaycanın müstəqilliyinin de-fakto tanınmasına nail olunmuşdu.

Sovet rejimi şəraitində xarici siyasət vahid mərkəzdən - Moskvadan idarə olunur və həyata keçirilirdi. Doğrudur, İkinci Dünya müharibəsindən sonra digər müttəfiq respublikalarda olduğu kimi Azərbaycanda da nominal Xarici İşlər Nazirliyi yaradılmışdı. Lakin sovet rejiminin süquta uğradığı 1991-ci ilə kimi həmin nazirlik daha çox demokratik anturaj rolunu oynayırdı.

Artıq on iki ildir ki,Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müstəqil dövlətin xarici siyasət idarəsi kimi tam fəaliyyət göstərir. Bu illər ərzində nazirlik müstəqil dövlətimizlə birlikdə əsaslı inkişaf yolu keçmiş, əslində tamamilə yenidən qurulmuşdur. Əlbəttə, hələlik bu prosesin başa çatdığını söyləmək mümkün deyil. İstər fəaliyyətinin  qurulması, istər strukturunun təkmilləşdirilməsi, istərsə də özünün bütün parametrləri

ilə müasir tələblərə cavab verməsi baxımından Azərbaycanın xarici siyasət idarəsinin qarşısında son dərəcə ciddi vəzifələr dayanır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi xarici siyasət kursunun həyata keçirilməsi Xarici İşlər Nazirliyinin fəaliyyətinin əsasını təşkil edir. Ölkəmizin beynəlxalq miqyasda tanıdılması, onun avroatlantik strukturlarına ardıcıl və davamlı inteqrasiyası, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan xalqının tələblərinə cavab verən prinsipial və ədalətli həlli hər bir vətəndaşdan, ilk növbədə isə ölkəmizi onun hüdudlarından kənarda təmsil edən diplomatlarımızdan yüksək vətənpərvərlik, dərin bilik, böyük mədəniyyət, hərtərəfli məlumatlılıq tələb edir.

Bir sözlə, gənc diplomatlarımızın öyrənməli olduqları məsələlər çoxdur. Eyni zamanda gördüyümüz işləri cəmiyyətə təqdim etməyə də ehtiyac var. «Diplomatiya aləmi» jurnalı da məhz bu zərurət və ehtiyacdan yaranıb.

Doğrudur, İnternetin təcililiyi və əhatəliliyi fonunda çap məhsulları sanki öz aktuallığını və gərəkliliyini itirmiş kimi görünür. Lakin biz təkcə bu gün üçün yox, daha çox gələcək üçün işləyirik və inanmaq istəyirik ki, kağız üzərində maddiləşən, kitaba və məcmüəyə çevrilən əsərlər elektron informasiya vasitələrinin cariliyi və aktuallığı ilə əsaslı rəqabətə davam gətirə biləcəklər.

İldə dörd sayını çap etmək niyyətində olduğumuz «Diplomatiya aləmi» jurnalı Azərbaycan diplomatiyasının tarixindən və bu günündən, beynəlxalq siyasətin aktual problemlərindən, xarici siyasətlə bağlı nəzəri və təcrübi məsələlərdən bəhs edəcək. Bir sözlə, diplomatiya ilə bağlı bütün məsələləri məcmuənin səhifələrində geniş və hərtərəfli işəqlandırmağa çalışacağıq. Həm ölkə Prezidentinin bu sahədə gördüyü genişmiqyaslı və çoxsaylı işlər, həm Xarici İşlər Nazirliyinin fəaliyyəti, həm də müxtəlif xarici ölkələrdəki və beynəlxalq qurumlar yanındakı missiyalarımızın işləri jurnalın səhifələrində ətraflı şəkildə işıqlandırılacaq.

İnanırıq ki, «Diplomatiya aləmi» jurnalı Azərbaycan diplomatları və ölkənin Xarici İşlər Nazirliyi ilə ictimaiyyət arasında canlı körpüyə çevriləcək və qarşılıqlı təmasın daha da sıxlaşmasına imkan yaradacaq.

Həm də biz jurnalı yalnız özümüz üçün deyil, daha çox geniş ictimaiyyət üçün çap etdiyimizdən onun səhifələrində diplomatlarla, xarici siyasət məsələləri üzrə tanınmış mütəxəssislərlə birlikdə alimlərin, politoloqların, ictimai xadimlərin mütəmadi çıxışlarına da geniş yer vermək niyyətindəyik.

Artıq Azərbaycan uzun illər boyu bir sıra fəlakət və problemlərimizin başlıca mənbəyi olan informasiya blokadasından çıxmaqdadır. İndi bizim səsimiz dünyanın ən uzaq güşələrində də eşidilir. Lakin bu sahədə görüləcək işlər indiyə qədər görülənlərdən qat-qat çoxdur. «Diplomatiya aləmi» jurnalı bu baxımdan da öz qarşısına çox ciddi vəzifələr qoyur. Bizim məqsədimiz təkcə yerli auditoriyanı deyil, həm də beynəlxalq qurumları və institutları kifayət qədər fəal şəkildə maraqlandırmaq, onların diqqətini Azərbaycan rəhbərliyinin yürütdüyü xarici siyasət kursuna yönəltməkdir. Jurnalın səhifələrində ölkəmizin üzləşdiyi problemlər, ilk növbədə isə Dağlıq Qarabağ münaqişəsi haqqında tarixi və siyasi professionallığı ilə seçilən ciddi materiallar

dərc etməyi planlaşdırırıq. Həm də Azərbaycan hüdudlarından kənardakı oxuculara daha asan çatdırılması üçün bu tipli materialların böyük əksəriyyətini ingilis dilində dərc etmək niyyətindəyik.

Biz təkcə Azərbaycandan dünyaya deyil, həm də dünyadan Azərbaycana baxmağa çalışacağıq.

Bir sözlə, ideyalarımız və planlarımız çoxdur. Düşünürəm ki, onları yerinə yetirmək üçün də kifayət qədər qüvvə və enerjimiz var.

«Diplomatiya aləmi» jurnalı Azərbaycan həqiqətlərini dünyaya yaymağa çalışan ciddi bir nəşr olmaq əzmindədir. Bu işdə hamının yardımına ehtiyacımız var. Ümid edirəm ki, birgə səylərimizlə bu məqsədə nail olacağıq.

VİLAYƏT QULİYEV

Azərbaycan Respublikasının Xarici İşlər Naziri

# *RƏSMİ XRONİKA*



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 2002-Cİ İL SENTYABR-DEKABR AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

### Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Nejdət Sezər ilə təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizə işgüzar səfərə gəlmiş Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezəri sentyabrın 17-də Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü oldu.

Ali qonağı hörmətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün Bakıya səfərə gəldiyinə görə Prezident Əhməd Necdət Sezərə təşəkkürünü bildirdi.

Qardaş ölkənin dövlət başçısının Azərbaycana səfərini yüksək qiymətləndirən respublikamızın Prezidenti Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin başlanması mərasimində birgə iştirak edəcəklərindən məmnunluqla söhbət açdı.

Prezident Heydər Əliyev "Əsrin müqaviləsi"nin reallaşması çərçivəsində əsas mərhələ olan ixrac boru kəmərinin tikintisinə başlanmasının siyasi, iqtisadi, mədəni, humanitar sahədə xüsusi əhəmiyyət daşıdığını vurğuladı.

Azərbaycana səfərə dəvətə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən, 2002-ci ilin iyul ayında İstanbulda və Ankarada Prezident Heydər Əliyev ilə keçirdiyi görüşləri və apardığı danışıqları yüksək qiymətləndirən Prezident Əhməd Necdət Sezər dövlətimizin başçısı ilə yenidən görüşmək imkanından çox məmnun qaldığını söylədi.

Türkiyə Prezidenti Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılmasında, eləcə də Xəzərin Azərbaycan sektorundakı enerji ehtiyatlarının dünyanın nüfuzlu dövlətlərinin iri neft şirkətləri ilə birgə işlənilməsi, hasil olunan neftin dünya bazarına ixracı sahəsində Prezident Heydər Əliyevin müstəsna xidmətlərini, cəsarətli və qətiyyətli addımlarını yüksək qiymətləndirdi. Cənab Əhməd Necdət Sezər Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də reallaşacağına əmin olduğunu bildirdi.

Azərbaycan-Türkiyə əməkdaşlığının möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan prezidentlər bölgədə mövcud olan problemlər barədə geniş fikir mübadiləsi apardılar, qardaş ölkələrimizin bütün məsələlər barədə eyni mövqedə olduqlarını bir daha nəzərə çarpdırdılar.

Ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin strateji xarakter daşıdığını, Azərbaycan ilə Türkiyənin qardaşlığının əbədi və sarsılmaz olduğunu bir daha vurğulayan dövlət başçıları bildirdilər ki, hər iki dövlət iqtisadi, siyasi, sosial, mədəni və humanitar sahədə əməkdaşlığın daha da inkişafı üçün öz səylərini əsirgəməməlidir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra məsələlər barədə də müzakirələr aparıldı.

**«AZƏRTAC», 17.09.02**

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizə işgüzar səfərə gəlmiş Gürcüstan Prezidenti Eduard Şevardnadzeni sentyabrın 17-də Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü oldu.

Ali qonağı hörmətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün Bakıya səfərə gəldiyinə görə cənab Eduard Şevardnadzeyə təşəkkürünü bildirdi.

Səmimi sözlərə və qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə minnətdarlıq edən Gürcüstan Prezidenti Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanmasını müdrik, uzaqgörən dövlət xadimi Heydər Əliyevin daha bir qələbəsi kimi dəyərləndirdi.

Görüş zamanı prezidentlər ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluqla söhbət açdılar. Xəzərin zəngin karbohidrogen ehtiyatlarının nəqli sahəsində Azərbaycanın və Gürcüstanın əməkdaşlığından, irimiqyaslı regional layihələrin gerçəkləşməsində ölkələrimizin yaxından iştirakından razılıqla bəhs edən dövlət başçıları əmin olduqlarını bildirdilər ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri bölgədə sülhün, əmin-amanlığın bərpa edilməsində də mühüm rol oynayacaqdır.

Regionda mövcud olan münaqişələrdən söhbət açan prezidentlər bunların tezliklə aradan qaldırılmasının vacibliyini, dinc yolla nizamasalma prosesində bütün səylərin səfərbər olunmasının zəruriliyini vurğuladılar.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.

**«AZƏRTAC», 17.09.02**

---

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 28-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri – Rudolf Perinanı \ABŞ\, Nikolay Qribkovu \Rusiya\, Üq Perneni \Fransa\, Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Vyaçeslav Trubnikovu və onları müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı HEYDƏR ƏLİYEV qonaqları səmimiyyətlə qarşılayaraq dedi: Görüşlərimiz arasında böyük fasilə yarandı, əvvəllər biz daha tez-tez görüşürdük. Bunun səbəbləri var, mən başa düşürəm. İndiki halda, mənim sizə heç bir iradım yoxdur, düşünürəm ki, bizə də heç bir irad tutulmayacaqdır. Bu gün mən Ermənistan-Azərbaycan münaqişəsinin həllinin hansı mərhələsində olmağımız, ötən dövr ərzində edə bildiklərimiz və münaqişəni nizama salmaq üçün qarşıdakı dövrdə görməli olduğumuz işlər barədə sizinlə işgüzar fikir mübadiləsi aparmaq niyyətindəyəm. Mən "Ermənistan-Azərbaycan münaqişəsinin "nizama salınması" ifadəsini çox tez-tez təkrar edirəm. Yəqin ki, siz də bunu etməli olursunuz. Təəccüblənirsən, bu barədə nə qədər danışmaq olar, nəticə isə yoxdur. Demək istəyirəm ki, 1988-ci ildə münaqişənin başlandığı vaxdan 14 il keçir. ATƏT-in Minsk qrupunun yaranmasından isə 10 il keçir. Amerika Birləşmiş Ştatları, Rusiya və Fransanın həmsədrlik etdiyi format 1997-ci ilin əvvəlində yaranmışdır. Axı, bu, böyük müddətdir. Biz məsələni həll edə bilmirik, bizim yüz minlərlə adamımız isə bundan əziyyət çəkir. Nə qədər adamın çadırlarda yaşadığını, Azərbaycan ərazisinin nə qədər hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğunu bilirsiniz. Azərbaycan cəmiyyətində münaqişənin sülh yolu ilə həllinə ümid bəsləmək əhval-ruhiyyəsinin zəifləməyə, işğal altındakı ərazilərimizi hansı vasitələrlə olursa-olsun özümüz azad etməliyik əhval-ruhiyyəsinin isə güclənməyə doğru necə dəyişdiyini bilirsiniz.

Erməniləri dəstəkləyən beynəlxalq təşkilatlarda hətta Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu da yazmırlar və bu barədə onlara deyəndə, ermənilər etiraz edib bildirirlər ki, bu, onlar üçün təhlükəsizlik zonasıdır. Yəni, öz ölkəndə sənin 3 təhlükəsizlik zonan ola bilər, axı, sən nə haqla beynəlxalq-hüquq qaydalarını pozaraq, qonşu ölkənin ərazisini işğal edirsən və sonra da elan edirsən ki, bu, işğal olunmuş torpaqlar deyil, təhlükəsizlik zonasıdır. Bilirsiniz, bizi incidən təkcə ərazimizin işğal olunması, yüz minlərlə azərbaycanlının var-yoxunu itirərək, öz ərazilərində köçkünə çevrilməsi deyil, həm də odur ki, biz həqiqəti sübut edə bilmirik. Ümidlərini itirən insanlar deyəndə ki, bu dünyada həqiqət yoxdur, mən onları başa düşürəm, hərçənd, özüm belə hesab etmirəm. İndiki halda, mən sizə cəmiyyətimizin əhval-ruhiyyəsini çatdırıram. Prezident kimi mən bu məsələləri sıravi Azərbaycan vətəndaşından daha yaxşı başa düşürəm. Başa düşürəm ki, burada çoxlu çətinliklər var, bir çox müxtəlif səbəblər ola bilər. Mən bunları başa düşə bilərəm. Axı, sıravi vətəndaş bunu başa düşmür. Bir qədər həyəcanlı danışdığım üçün üzr istəyirəm, mən öz əsəblərimi cilovlamağı bacaran adamam, lakin indiki halda bunu edə bilmirəm, buna görə də sizinlə belə həyəcanlı tonda danışıram. Odur ki, mən istəyirəm biz daha çox əməli işlərdən danışaq.

Prezident Heydər Əliyevə minnətdarlığını bildirən ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri RUDOLF PERİNA dedi:

RUDOLF PERİNA: Biz Bakıya son səfərimiz zamanı qaçqınlarla görüşdük. Məlum olduğu kimi, onlar bu münaqişə nəticəsində birbaşa əziyyət çəkən isanlardır. Onların söhbətlərini dinlədik, onlara qulaq asdıq. Bu, bizdə böyük təəssürat oyatdı və eyni zamanda, məsuliyyətimizi bir daha artırdı ki, bu münaqişə tezliklə öz

həllini tapmalıdır. Baxmayaraq ki, bizim Bakıya son səfərimiz altı ay bundan əvvəl olmuşdur, bu altı ay müddətində biz hamımız məşğul idik və fəal işləyərək məsələnin həlli yollarını axtarırdıq.

Biz həmin müddətdə görüşmək imkanı əldə etmişdik. Sizinlə İstanbulda görüşdük, daha sonra Prezident Koçaryan ilə Tallində görüşdük. Bundan əlavə, Sizin şəxsi nümayəndənizlə və Prezident Koçaryanın şəxsi nümayəndəsi ilə iki görüşümüz də oldu.

Lakin biz, əsasən, Sizin Prezident Koçaryan ilə Sədərəkdəki görüşünüz haqqında məlumat əldə etmək, bu görüş barədə fikir mübadiləsi aparmaq istərdik. Biz bilirik ki, Koçaryan ilə keçirdiyiniz görüşlər çox vacib xarakter daşıyır və eyni zamanda, bizim səylərimizə də kömək edir. Çalışacağıq ki, gələcəkdə prezidentlər arasında birbaşa dialoq davam etsin.

Ümid edirik ki, bugünkü görüş zamanı Praqa prosesi də müzakirə olunacaqdır. İstərdik, Sizin bu prosesə verdiyiniz qiyməti öyrənək və fikir mübadiləsi edək ki, gələcəkdə bu iş necə davam etdirilsin, necə aparılsın. Elə bilirik ki, Praqada keçirilən görüşlər Prezidentlər üçün də faydalıdır. Bizim üçümüz üçün də çox müsbət alətdir. Bu, imkan verir ki, həm işimizi davam etdirək, həm də sülh üçün işlədiyimiz məsələni daha da asanlaşdırır. Gördüyünüz kimi, müzakirə olunası mövzular çoxdur, məsələlər kifayət qədərdir. Sizi bir şeydə əmin etmək istəyirəm ki, biz üç həmsədr, müxtəlif ölkələri təmsil edən üç nümayəndə işimizə sadiqik və münaqişəni həll etmək üçün, həqiqətən, əlimizdən gələni edəcəyik. Hamımız bu fikirdəyik ki, münaqişə həddindən artıq çox uzanıb və onun həlli vaxtı çoxdan yetişibdir.

ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri ÜQ PERNE respublikamızın rəhbərinə müraciətlə dedi:

-Cənab Prezident, Fransa Prezidentinin Minsk qrupu çərçivəsində oynadığı rolu Siz hamıdan yaxşı bilirsiniz. Biz həmin rolu daha da genişləndirmək istəyirik ki, bu problem unudulmasın. Çünki həqiqətdə beynəlxalq ictimaiyyət başqa problemlərlə də məşğuldur. Bunlardan da biri Əfqanıstandır. Minsk qrupunun həmsədrləri kimi, biz Brüsseldə cənab Solanaya baş çəkməyi qərarlaşdırmışıq. Bunu o məqsədlə etmək istəyirik ki, Avropa Birliyi gələcəkdə ortaya çıxacaq ehtiyacları təmin etməyi bacarmaq üçün bu məsələyə səfərbər olsun. Çox sağ olun.

Sonra Rusiya xarici işlər nazirinin müavini VYAÇESLAV TRUBNİKOV çıxış edərək dedi:

- Bilirsiniz ki, biz bu ağrılı problemin sülh yolu ilə nizama salınmasına kömək etmək əzmindəyik, biz bunu sözdə yox, işdə hiss edirik, çünki biz hətta dünən Şuşada olanda burada heç vaxt olmamış cənab Perne bizim danışıqlar, nizamlama prosesində bu gün çox ciddi problem olan bu şəhərin, bu ərazinin nə olduğunu öz gözləri ilə gördü. Mən belə bir əsas məsələni də qeyd etmək istərdim ki, biz erməni tərəfinin də, ilk növbədə, Azərbaycan tərəfinin də narahatlığını çox yaxşı başa düşürük. Mən bizim Praqa prosesinin nədən ibarət olduğunu, onun nə dərəcə faydalı olduğunu qeyd etmək istərdim, çünki cənab Əzimovla cənab Markaryanın bizim iştirakımızla keçən sonuncu görüşü nəticəsində biz, hər halda, irəliyə doğru müəyyən addımlar atırıq. Əvvəla, biz orada razılığa gəldik ki, iki prezidentin görüşməsinə Sizin icazənizi alaq, biz danışdıq ki,

beynəlxalq təşkilatlarda fəaliyyət həm bu, həm də digər tərəfdən blokadaya alınmasın. Bu da öz nəticəsini verir. Mən cənab Sarkisyanla söhbətimizdən çox məmnunam. O, çox gözəl dedi ki, erməni tərəfi heç bir halda hər hansı hərbi əməliyyatlara başlamayacaqdır. Bu, onun dediyidir, mən istərdim ki, Siz də bunu biləsiniz. Mən Sizin bədbinliyinizi başa düşürəm, lakin əminəm ki, bunu aradan qaldıracaqsınız. Hər halda, mən bu sözləri Azərbaycan tərəfinə çatdırmaq istərdim.

Biz Praqa prosesinin əhəmiyyətini onda görürük ki, xarici işlər nazirlərinin müavinləri də görüşür və danışıqlar apara bilirlər. Lakin Sizin Sədərək görüşünüz bizim üçün sirdir. Cənab Koçaryan da açıq dedi ki, biz Prezident Əliyevlə danışıqlarımızın gizli qalması barədə razılaşmışıq. Prezident Heydər Əliyev sizə bu barədə nə deyəcəksə, mən bununla razılaşa bilərəm. Odur ki, hörmətli Heydər Əliyeviç, ümid edirik ki, danışıqlar prosesinin sirrini bizim üçün müəyyən qədər açacaqsınız. Sadəcə olaraq, ona görə ki, biz həmsədrlər çərçivəsində qarşılıqlı fəaliyyətimizin başlıca istiqamətini bilməliyik. Hansı istiqamətdə işləməli olduğumuzu bilməliyik. Biz sizdən bu istiqamətdə göstərişlər gözləyirik, bu, bizim üçün çox vacibdir. Heydər Əliyeviç, çox sağ olun.

HEYDƏR ƏLİYEV: Hörmətli dostlar, görülən işlər, ən əsası isə ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin həllinə nail olmaq əhval-ruhiyyəsi barədə dediklərinizə görə təşəkkür edirəm. Sağ olun, çünki biz də münaqişənin sülh yolu ilə həlli mövqeyində durmuşuq və mən də bunu bəyan etdim. Sizin ifadənizlə desək, Serj Sarkisyan çox gözəl demişdir ki, onlar atəşkəsi pozmayacaqlar. Deməli, belə çıxır ki, mənim bunu dəfələrlə deməyim o qədər də gözəl deyildir. Mən hesab etmirəm ki, bu, çox gözəldir. İstəyirəm ki, siz də biləsiniz, o da bilsin ki, bizə minnət qoyursa, bu, əbəsdir. İndi o dövr deyil, əgər o başlasa, cavabını, özü də layiqli cavabını alacaqdır. Onlar hər yerdə, özü də bəzən Rusiyadan, Qərbdən olan bəzi şəxslərin iştirakı ilə təbliğ edirlər ki, guya, Dağlıq Qarabağin ordusu təkcə Qafqazda deyil, həm də bütün bu məkanda ən güclü ordudur. Olsun, bəlkə də bu belədir, biz heç vaxt belə öyünmürük, ancaq indi biz öz torpaqlarımızı müdafiə etməyə qadırık.

Sizdən soruşmaq istərdim, Şuşada nə gördünüz? Dediniz ki, Şuşanı gördünüz.

VYAÇESLAV TRUBNİKOV: Biz orada üç dəfə olmuşuq, cənab Perne isə birinci dəfə idi.

ÜQ PERNE: Cənab Prezident, orada çox strateji mövqe gördüm. Şəhər indi normal tərzdə həyat sürmür. Təəssüf ki, çox evlər hələ boşdur. Buradan da o nəticəni çıxarmaq olar ki, bunlar azərbaycanlıların evləri olub və eləcə boş qalıbdır. Orada hələ çoxlu iş görülməlidir. Ola bilsin, bu, çox çətin məsələ olacaqdır. Ancaq Qarabağ probleminin həllində çox çətin və vacib məsələlərdən biridir. Bunlar mənim oradakı təəssüratlarımdır.

HEYDƏR ƏLİYEV: Təşəkkür edirəm. Deyirsiniz ki, çox evlər boş qalıb, yəqin azərbaycanlıların evləridir. Bəli, onlar azərbaycanlıların evləridir. Çünki Şuşada əhalinin əksəriyyəti azərbaycanlılar olubdur. Əgər səhv etmirəmsə, Şuşa rayonunda təxminən 18-20 min əhalidən cəmi 1377 nəfəri ermənilər idi. Ermənilərin də çoxu kəndlərdə yaşayırdı, şəhərdə o qədər erməni yox idi. Şəhərin əhalisi tam azərbaycanlılar idi. İndi əgər evləri azərbaycanlılar üçün saxlayırlarsa ki, onlar geriyə qayıdacaqlar, bəs onda,- mənim dostlarım

görüblər, siz görməmisiniz,- Azərbaycan rayonlarında olan yüz minlərlə evləri niyə dağıdıblar?! Onlar o evləri azərbaycanlılar üçün saxlamayıblar. Onların, sadəcə, imkanları yoxdur ki, o evlərə adam yerləşdirsinlər.

Əgər onlar erməniləri orada yerləşdirə bilsəydilər, bunu çoxdan edərdilər, çünki onlar elə hesab edirlər ki, Şuşa azərbaycanlılara qaytarılmayacaqdır. Mən isə sizə deyirəm ki, təxminən 100 min adamın yaşadığı Ağdam şəhəri xarabalığa çevrilib, siz ki, görmüsünüz, elə Füzulidə də, hər yerdə vəziyyət belədir. Onların isə adamları yoxdur, mən əminəm ki, Dağlıq Qarabağda münaqişədən əvvəlkindən də az adam yaşayır. Onlar elə Ermənistanın özündə yazırlar ki, ölkədə 2,5 milyon əhali var. Bəziləri deyir 2 milyon, başqaları da deyir 1 milyon 800 min. Mən onların sayını hesablamıram, bunu etmək də istəmirəm, lakin bu, faktdır və Yerevanın və ümumiyyətlə, Ermənistanın bugünkü vəziyyəti ilə tanış olanların hamısı belə deyir ki, orada əhalinin ölkədən kənara böyük axını var. Onlar adamları həmin evlərdə yerləşdirə bilsəydilər, bunu çoxdan edərdilər. Orada çoxdan bir kilsə vardı. Zaman keçdikcə, bir qədər uçulub-dağılmışdı, sonra, sovet dövründə, mən burada işləyəndə, bu kilsəni bərpa etdilər, orada Azərbaycan məscidi də var. Bu, ötən əsrin 70-ci illərinin ortalarının söhbətidir. Mən Şuşaya getdim, bütün bunları gördüm. Məscidlərin hamısını və təbiidir ki, bu kilsəni də bərpa etmək üçün tədbirlər gördüm. Lakin bu kilsə Şuşa üçün çox böyük idi, çünki orada ermənilər bir o qədər yaşamırdı. İndi isə, bilmirəm, siz görmüsünüz, yoxsa yox, Prezident Koçaryan dedi ki, onlar orada daha bir kilsə tikiblər.

NİKOLAY QRİBKOV: Biz kilsədə olmuşuq, deyilənə görə, o, 1880-ci ildə tikilmişdir.

HEYDƏR ƏLİYEV: Bəs oraya gələnlər varmı?

NİKOLAY QRİBKOV: Hər halda, orada arxiyepiskop, keşişlər var. Ora gələnlər barədə deyə bilmirəm, biz orada olanda heç kim yox idi.

HEYDƏR ƏLİYEV: Bəli, arxiyepiskop var. Məsələn, Yerevanda gözəl bir Azərbaycan məscidi var idi, vaxtilə mən orada olmuşdum.

NİKOLAY QRİBKOV: Biz Yerevanda, hər halda, iki məscid gördük.

HEYDƏR ƏLİYEV: Münaqişənin ilk dövründə onlar da dağıdılmışdı. Sonra onlar məscidləri iranlılara verdilər və indi deyirlər ki, bunlar Azərbaycan məscidi yox, İran məscididir. İranlılar da müəyyən şəraiti nəzərə alaraq, təbiidir ki, onları yenidən qurdular və bərpa etdilər. Bəs indi? Onlar bomboşdur, iranlılar isə oraya molla təyin ediblər. Molla məsciddə oturur, orada isə bir nəfər də müsəlman yoxdur ki, məscidə getsin.

Başa düşürsünüzmü, necə fırıldaqdır! Belə misallardan çox çəkə bilərəm. Bir sözlə, bəlkə də, mən öz suallarım, öz cavablarımla, sizə verəcəyim cavabı qurmaq istədiyim xəttdən bir qədər uzaqlaşdım. Bununla belə, əvvəla, mən hesab edirəm ki, Minsk qrupu daha fəal işləməlidir, ikincisi, Azərbaycan və Ermənistan prezidentləri nümayəndələrinin görüşü barədə sizin təklifinizi dəstəkləyirəm. İki dəfə görüşüblər, onları çox tərifləmək istəmirəm, bununla belə, hər şey birdən-birə düzəlmir. Hesab edirəm ki, bu xətt də davam etdirilməlidir.

Prezident Koçaryan ilə Sədərəkdəki görüşümüz barədə sualınıza gəldikdə isə, mən bu görüşü çox mühüm sayıram. Bu, daha çox mənim təşəbbüsümlə keçirilmişdi. Həqiqətən, biz 4 saat fasiləsiz söhbət etdik və həqiqətən, görüşümüzün məzmununu açıqlamamaq qərarına gəldik. Odur ki, mən də hələlik bu razılığı pozmuram. Hamıya məlum olan təkcə bir faktı deyə bilərəm. Avropa Birliyi, bir sıra beynəlxalq təşkilatlar, o cümlədən siz, bizə deyirlər ki, hansısa addımlar atın, Bakı-Yerevan yolunu açmaq barədə razılığa gəlin. Onda biz də öz şərtimizi irəli sürürük ki, biz bu yolu açmağa hazırıq, lakin bu yolda ermənilər tərəfindən işğal olunmuş 4 rayon yerləşir. Yəni, bu yol həmin rayonların ərazisindən keçir. Qoy onlar bu 4 rayonu azad etsinlər. Bu, ilk addım olardı. Biz yolu açarıq, daha doğrusu, birlikdə açarıq. Çünki yolu onlar bağlayıblar. Amma yol bizimdir. Onun təkcə 40 kilometri Meğri ərazisindən keçir, qalan hissəsi - Naxçıvana və sərhədə qədər olan hissəsi isə bizim sahəmizdir. Biz yolu aça bilərik. Müxtəlif tərəflərdən mənə o qədər təkliflər vermiş, mülahizələr söyləmişlər ki, mən bunun, həqiqətən, əsası olduğunu düşünürdüm. Lakin mən bunu Koçaryana deyəndə, o bildirdi ki, yox, bu, mümkün deyildir. Mən onu inandırmağa çalışdım ki, bu yol onlara lazımdır. Axı, o zaman, 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının Konqresi məhz bu yol bağlı olduğuna görə bizi cəzalandırmışdı. İndi isə siz bu yolu istəmirsiniz. O isə deyir ki, xeyr, indi o, bizə lazım deyildir. O deyir ki, əgər bu yol sizə lazımdırsa, biz sizə Gürcüstan ərazisindən yol verə bilərik. Onların Tbilisidən keçib bizim Ağstafa stansiyasınadək gedən bir dəmir yolu var. O zaman biz bütün ərazimizdən keçən bu dəmir yolunu tikməyə onlara icazə vermişdik. Onu da bilin ki, sovet dövründə bu yol bizə gərək deyildi.

O zaman mən respublikaya rəhbərlik edirdim, o yol bizə lazım deyildi. Yeri gəlmişkən, o, çox bahalı yol idi, çünki orada hündür dağlar vardır. Bilmirəm Dilicandan, İcevandan keçəniniz varmı, orada dağlar çox hündürdür. Mən hətta təsəvvürümə belə gətirə bilmirdim ki, oradan necə dəmiryolu çəkmək olar. Onlar böyük tunel qazdılar və yolu çəkdilər. Biz öz ərazimizi onlara verdik, Tbilisidən Ağstafayadək, Ağstafadan Qazax rayonu vasitəsilə, orada onların bir hissə ərazisi var, öz ərazilərinə çıxdılar, vaxtilə Semyonov aşırımı adlanan Sevan aşırımından keçirdilər. Yaddan çıxarmayın ki, o aşırımın adı vaxtilə rusca idi. Biz onu hamımız Semyonov aşırımı adlandırırdıq. Yadımdadır, bir dəfə, 1951-ci ildə, bəlkə də bir çoxunuz hələ anadan olmamışdınız, qış vaxtı dəmir yolu ilə Yerevana getmək lazım idi. Mən DTK-da işləyərkən orada bizim vacib işimiz var idi. Hər yan qara bürünmüşdü, bizə dedilər ki, Semyonov aşırımından keçmək mümkün deyildir. Lakin mən dedim ki. keçə bilərik, mən Qazax rayonunda sərhədi çox çətinliklə keçib, oradan Dilicana getdim, sonra isə Sevana qədər Semyonov aşırımı başlayırdı. Yeri gəlmişkən, bu aşırım ən çətin aşırımdır. Qərara gəldik ki, oranı keçək, lakin yarı yolda ilişib qaldıq, az qala donacaqdıq. Dilicana qayıdıb, orada gecələdik, lakin axırı ki, onu keçə bildik.

Biz həmin aşırım vasitəsilə onlara dəmir yolu açdıq. İndi isə o, mənə deyir ki, əgər sizə Naxçıvana yol lazımdırsa, həmin yolla Yerevana, oradan isə Naxçıvana gedə bilərsiniz. Mən ona deyirəm ki, bu, bizə lazım deyildir. Əlbəttə, Naxçıvana yol lazımdır, lakin sizə Azərbaycan ərazisindən yol daha çox vacibdir, çünki sovet dövründə bütün yüklər mərkəzdən məhz Rostov-Bakı yolu ilə gəlirdi, sonra isə bir qol Gürcüstana, digəri

Naxçıvan vasitəsilə Ermənistana ayrılırdı. Bu yol həddindən artıq yüklənmiş olurdu. Bəs indi? Gürcüstanın Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, çünki onun Abxaziya ərazisindən yalnız bir yolu var idi. Ermənistanın isə Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, çünki Ermənistan əsasən Azərbaycanın imkanlarından və Gürcüstan ərazisindən,- bu yol isə, əsasən, sərnişin daşımaq üçün nəzərdə tutulmuşdu,- istifadə edirdi.

Axı, mən o zaman Moskvada dəmir yolu nəqliyyatı ilə məşğul olurdum, ona görə də bu təfərrüatları yaxşı bilirəm. Koçaryan mənə dedi ki, əgər sizə lazımdırsa, gəlin belə edək. Mən isə dedim ki, bilirsiniz, onda gəlin bu mövzunu qapayaq. Mən sizə ciddi təklifdən danışıram, siz isə deyirsiniz ki, sizə lazım deyil. Əgər bu, sizə lazım deyildisə, onda nəyə görə Konqres vasitəsilə tam 10 il 907-ci maddə ilə bizə qadağa qoymuşdunuz? Nə üçün Qərbdə indiyədək deyirlər ki, Azərbaycan Ermənistanı blokadada saxlayır? Biz harada blokadada saxlayırıq? Heç yerdə. Söhbətimiz zamanı toxunduğumuz təkcə bu məsələ sirr olmadığı üçün bu barədə danışıram. Qalan məsələlər barədə, onun kimi, mən də heç nə deyə bilmərəm. Ancaq düşünürəm ki, biz əməkdaşlığı davam etdirməliyik, sizin bu barədə təkliflərinizi qəbul edirəm.

Vyaçeslav İvanovic, ancaq bilmirəm, belədir, ya yox, amma mənə xəbər veriblər ki, siz Ermənistanda demisiniz ki, Paris və Ki Uest prinsipləri qüvvədə qalır. Mən keçən dəfə bu mövzuda danışdım və Fransadan olan dostumuza müraciət etdim ki, o, Prezident Şirakın qeydlərinə baxsın. Parisdə heç bir prinsip işlənib hazırlanmamışdı, orada müxtəlif variantlara dair fikir mübadiləsi aparılmışdı. Özü də bəzi variantlar elə idi ki, o da, mən də razılaşa bilərdik. Lakin o, öz vədlərindən, - indi onları açıqlamaq istəmirəm, - döndü. Ki Uest danışıqlarını yaxşı bilirsiniz, biz birlikdə idik. Axırıncı gün, hər şey başa çatandan sonra siz Kavano ilə gəlib sənədi mənə verdiniz. Mən dedim ki, bütün bunlar mümkün deyil, indi isə təkrar edirsiniz. Mən Sizdən xahiş edirəm, əgər gələcəkdə də normal əməkdaşlıq etməyimizi istəyirsinizsə, onda bütün bunları keçmişdə qoyaq.

Həm Parisdə, həm Ki Uestdə apardığımız danışıqların ayrı-ayrı təfərrüatlarına qayıtmaq olar. Mən buna şad olardım, amma belə prinsiplər olmamışdır, ikincisi də, mən onları qəbul etmirəm.

İkinci iradım köhnə dostumuz Qribkova aiddir. O, Ermənistanda bəyan edir ki, Dağlıq Qarabağ danışıqların tam hüquqlu subyekti kimi orada iştirak etməlidir. Ona görə də Qukasyan hər gün deyir ki, Dağlıq Qarabağ danışıqlarda bilavasitə iştirak etməyincə, məsələ həll olunmayacaqdır. Axı, Qukasyanın bunu hər gün deməsi sirr deyildir.

Bu məsələ mən buraya gəldiyim vaxtdan müzakirə olunur və yaxşı tanıdığınız Kazimirov da bu məsələ ilə məşğul olmuşdur. Onlar Moskvada görüşürdülər və biz Dağlıq Qarabağın danışıqların bərabər hüquqlu iştirakçısı olması ilə heç vaxt razılaşmırdıq. Çünki biz onu tanımırıq, bizim müharibəmiz Ermənistanladır. Əgər Ermənistan kənara çəkilsə, biz beynəlxalq təşkilatlarda, sizin iştirakınızla, Dağlıq Qarabağa dair mühüm qərarlar qəbul edərik. Ermənistan isə bu qərarların qabağını kəsir. Lissabon sammitini xatırlayın. Sammitdə Ermənistan tərəfi məsələni formullaşdırmaq üçün göstərilən kiçik cəhdlərin də qarşısını aldı, konsensus vermədi. Mən nə qədər çalışdımsa, mümkün olmadı, yeri gəlmişkən, Çernomırdin də, Primakov da orada idilər və bizə çox fəal surətdə kömək edirdilər. Başqaları da kömək edirdi. Lakin Ermənistan öz vetosunu geri

götürmədi. Siz bilirsiniz ki, o zaman mən bütün sənədə veto qoydum və orada böyük münaqişə baş verdi. Mənə müraciət etməyə başladılar ki, vetonuzu götürün, mən də şərt qoydum ki, Bəyanat qəbul edilsin və o da qəbul olundu. Həmin Lissabon sammitinin yekun sənədində Abxaziya üzrə Gürcüstanın xeyrinə çox geniş bir bənd qəbul olundu. Niyə? Çünki orada Abxaziyanı heç kim müdafiə etmirdi, heç kim, Buna görə də Gürcüstan istədiyini yazdıra bildi. O, həqiqəti yazdırdı və bütün bunlar ATƏT-in sənədlərində öz əksini tapdı. Biz isə həqiqəti ATƏT-in sənədlərində əks etdirə bilmədik, çünki Azərbaycan kimi, Ermənistan da ATƏT-in tam hüquqlu üzvüdür, veto qoymaq hüququndan istifadə edir. Qoy Ermənistan kənara çəkilsin, onda biz də Dağlıq Qarabağla birbaşa danışıqlar aparaq və qoy Ermənistan beynəlxalq təşkilatlarda bu işə qarışmasın. Amma bu, belə deyildir. İndi Ermənistan, əslində, Dağlıq Qarabağı de-fakto özünə birləşdirmişdir. Axı, bu faktdır, orada prezident seçir. Mən bilmirəm, onlar orada görüşürlər, yoxsa, yox, lakin Dağlıq Qarabağ Ermənistanın himayəsi altındadır. Buna görə də mən xahiş edirəm belə şeylərdən uzaq olun.

Bundan başqa bizi, ictimaiyyətimizi belə bir fakt da qıcıqlandırmışdır ki, həmsədrlər Qukasyanı prezident seçilməsi münasibətilə təbrik etmişlər. Axı, Birləşmiş Ştatlar bəyan etmişdir ki, onlar bunu tanımırlar, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Rusiya da belə bəyanat vermişdir.

O, qeyri-qanuni seçilmiş prezidentdir, ümumiyyətlə, bu, qanunsuz işdir. Əgər siz onu prezident seçilməsi münasibətilə təbrik edirsinizsə, deməli, onun prezident olmasını təsdiq edirsiniz. Mən bunu qeyri-normal hesab edirəm.

VYAÇESLAV TRUBNİKOV: Mənim üçün çox mühümü sizinlə, Prezident Koçaryanla apardığım danışıqlardır. Mətbuatda arabir yazılanların bizim real danışıqlarımıza dəxli yoxdur. Cənab Kavano, cənab Perina və mən bunun şahidiyik ki, mətbuat təkcə interpretasiya etmir, həm də heç demədiklərimizi bizim adımıza yazır.

Nikolay Mixayloviçin dedikləri ilə bağlı məsələyə gəldikdə isə, bu, Dağlıq Qarabağın subyekt kimi hüququnun dəstəklənməsi demək deyildir. O, yalnız cənab Qukasyanın dediklərini sitat gətirmişdir.

HEYDƏR ƏLİYEV: O, nə üçün Qukasyandan sitat gətirməlidir?

VYAÇESLAV TRUBNİKOV: Bilirsiniz, sizin mətbuat bizi sorğu-suala tutur. Biz buradan çıxan kimi çək-çevirə salacaqlar ki, nə barədə danışdınız. Bəli, kiminsə sözlərindən sitat gətirilir, lakin bu, heç də üç həmsədrin mövqeyi deyildir. Biz daim bir mövqedən çıxış edirik. Demək istəyirəm ki, mətbuata baxanda oxuduqlarınıza əsaslanırsınız, biz sizinlə görüşəndə eşitdikləriniz sözlərimizdir, eşidirsiniz, oxuduqlarınız isə bizim sözümüz deyildir. Bunu nəzərə almaq lazımdır. Bilirsiniz ki, mətbuatımız azaddır, bəzən həddindən artıq azaddır. Diqqəti problemə cəlb etmək lazım gələndə, bəzən həmsədrlərin sözlərinin şərhində artıq şeylərə yol verirlər. Bu isə tamamilə təmiz və açıq söhbətdir. Mən işimiz barədə şərh verərkən heç vaxt birgə qəbul etdiyimiz qərarlar çərçivəsindən kənara çıxmamışam. Üstəlik, biz Qarabağda keçirilən “seçkilərin” nəticələrini şərh edərkən tamamilə yekdil fikirdəydik və şərhlərimiz də eyni idi. Odur ki, mətbuatın yazdığına fikir verməyin. Onlar həddini aşırlar. Mənim indi Sizə dediklərim doğrudur. Qalanları isə uydurma sözlərdr.

HEYDƏR ƏLİYEV: Yaxşı, deməli aydınlaşdırdıq. İndi bunlar da mətbuatda veriləcək, yoxsa, ermənilər deyərlər ki, yox, bizə dedikləri doğrudur, Azərbaycanda dedikləri isə yox.

Mən daha nə demək istəyirəm? Son günlər mənim əlaqələrim olub, Moskvaya səfərimdən 2 gün əvvəl Amerika Birləşmiş Ştatları dövlət katibinin birinci müavini Armitaç mənə zəng etmişdi. Biz bəzi məsələlər, o cümlədən mənim Rusiyaya səfərim barədə söhbət etdik. Amma mən münaqişənin nizama salınması barədə onunla çox kəskin danışdım. O mənə dedi ki, bu gün mən cənab Perina ilə görüşdüm, o tədbirlər görür. Ümid edək ki, gələcək iş prosesində bu vədin əhəmiyyəti olacaqdır.

Moskvada mən Prezident Putinlə görüşdüm. İqamətgahda onunla təkbətək görüşdük, digər məsələlərlə yanaşı, bu məsələ barəsində də fikir mübadiləsi etdik. Rusiya Prezidenti qəti istəyir ki, bu münaqişə mümkün qədər tezliklə sülh yolu ilə nizama salınsın. Mən də buna çox inanıram və buna çox ümid edirəm.

**«AZƏRTAC», 28.09.02**

---

## Azərbaycan Prezidenti Heydər Əliyev İstanbula səfəri

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının Zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldi.

Atatürk beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Heydər Əliyevi təyyarənin pilləkəni yanında İstanbul valisi Erol Çakır, İstanbul bələdiyyə başqanı Əli Müfit Gurtana, habelə Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev, ölkəmizin Türkiyədəki səfiri Məmməd Əliyev, respublikamızın İrandakı səfiri, İƏT-in Daimi Nümayəndələr Şurasının üzvü Abbasəli Həsənov, Azərbaycanın İstanbuldakı baş konsulu Xeyrəddin Qoca və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi və türk əsgərini salamladı.

Dövlətimizin başçısı hava limanından maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – "Çırağan Palas" mehmanxanasına gəldi. Ali qonağı burada Türkiyə hökumətinin rəsmi şəxsləri mehribanlıqla qarşıladılar.

Oktyabrın 14-də "Çırağan" sarayında İƏT-in üzvü olan ölkələrin VII Zirvə görüşü öz işinə başladı.

Türkiyə Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Prezidenti Heydər Əliyevi sarayın qarşısında ehtiramla, səmimiyyətlə salamladı.

Salona toplaşanlar Türkiyə Prezidenti Əhməd Necdət Sezəri, Azərbaycan Prezidenti Heydər Əliyevi, Əfqanıstan Prezidenti Həmid Kərzaini, İran Prezidenti Məhəmməd Xatəmini, Qırğızıstan Prezidenti Əsgər Akayevi, Pakistan Prezidenti Pərviz Müşərrəfi, Tacikistan Prezidenti Emoməli Rəhmonovu, Özbəkistan Milli Məclisinin sədri Erkin Xəlilovu, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Rəcəb Saparovu və Qazaxıstanın dövlət katibi - xarici işlər naziri Qasımcomərd Tokayevi alqışlarla qarşıladılar.

İclası giriş sözü ilə İran İslam Respublikasının Prezidenti, İƏT-in sədri Məhəmməd Xatəmi açdı və qarşıdakı dövr üçün bu təşkilata sədrliyin Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərə verildiyini bildirdi.

Prezident Əhməd Necdət Sezər dövlət başçılarını salamladı, Zirvə görüşünün işinə uğurlar arzuladı.

Azərbaycan Prezidenti Heydər Əliyev İƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Zirvə görüşündə nitq söylədi. (Dövlətimizin başçısının nitqi qəzetin bugünkü nömrəsinin birinci səhifəsində dərc olunur).

Zirvə görüşündə təşkilatın üzvü olan digər ölkələrin başçıları da çıxış etdilər.

Türkiyənin xarici işlər naziri, baş nazirin müavini Şükrü Sina Gürəl İƏT-in üzvü olan ölkələrin xarici işlər nazirləri iclasının yekunları barədə dövlət başçılarına məlumat verdi.

İƏT-in üzvü olan ölkələrin dövlət başçılarının VII Zirvə görüşündə "2002-ci il İstanbul bəyannaməsi" qəbul olundu.

Zirvə görüşünün sonunda bu təşkilatın 2002-ci il üçün kənd təsərrüfatı və ətraf mühitin qorunması, tarix, mədəniyyət və təsiviri sənət, elm və texnologiya, təhsil və iqtisadiyyat sahəsində mükafatları təqdim olundu. Azərbaycan MEA-nın akademiki, Y.Məmmədəliyev adına Neft Kimyası Prosesləri İnstitutunun direktoru Musa Rüstəmov elm və texnologiya sahəsində mükafat aldı.

İƏT-in yüksək mükafatlarını Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər təqdim etdi.

Pakistan Prezidenti Pərviz Müşərrəf və İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi çıxış edərək, VII Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə Türkiyə Prezidenti Əhməd Necdət Sezərə iştirakçılar adından təşəkkür etdilər.

Prezident Əhməd Necdət Sezər zirvə görüşünə yekun vurdu, üzv ölkələrin dövlət başçılarına və təmsilçilərinə minnətdarlığını bildirdi.

Beləliklə, İƏT-in üzvü olan ölkələrin dövlət başçılarının VII Zirvə görüşü başa çatdı. Dövlət başçıları birgə xatirə şəkli çəkdirdilər.

Oktyabrın 14-də günortadan sonra "Çırağan" sarayında Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşü olmuşdur.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan-Türkiyə əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi oldu.

Azərbaycan Prezidenti Heydər Əliyev elə həmin gün "Çırağan" sarayında Pakistan Prezidenti Pərviz Müşərrəf ilə görüşmüşdür.

Ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan prezidentlər beynəlxalq aləmdə vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, terrorizmə və təcavüzkar separatizmə qarşı birgə mübarizənin daha da gücləndirilməsi və hər iki tərəfi maraqlandıran başqa məsələlər ətrafında müzakirələr apardılar.

Prezident Pərviz Müşərrəf dövlətimizin başçısı  Heydər Əliyevi Pakistana, Azərbaycan Prezidenti isə Pakistan rəhbərini ölkəmizə rəsmi səfərə dəvət etdilər. Hər iki dəvət məmnunluqla qəbul olundu.

Oktyabrın 14-də axşam "Çırağan" sarayında Azərbaycan Prezidenti Heydər Əliyev ilə Əfqanıstan Prezidenti Həmid Kərzai arasında görüş keçirilmişdir.

Ölkələrimizin tarixi ənənələrə malik münasibətlərinin daha da möhkəmləndirilməsinin zəruriliyini vurğulayan prezidentlər Azərbaycan-Əfqanıstan əlaqələrinin inkişaf etdirilməsi, beynəlxalq aləmdə vəziyyət, terrorizmə və separatizmə qarşı mübarizənin daha da gücləndirilməsi və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi etdilər.

Prezident Həmid Kərzai Prezident Heydər Əliyevi Əfqanıstana, dövlətimizin başçısı isə Əfqanıstan rəhbərini Azərbaycana rəsmi səfərə dəvət etdilər. Hər iki dəvət razılıqla qəbul olundu.

Elə həmin gün gecə Azərbaycan Prezidenti Heydər Əliyevin İran Prezidenti Məhəmməd Xatəmi ilə görüşü olmuşdur.

Cənab Xatəmi dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamladı, onunla hər bir görüşdən çox məmnun qaldığını bildirdi.

Azərbaycan ilə İran arasında bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin daha da inkişaf etdirilməsindən razılıqla bəhs edən dövlət başçıları bölgədə vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması və hər iki ölkəni maraqlandıran bir sıra başqa məsələlər haqqında ətraflı müzakirələr apardılar.

Prezident Heydər Əliyev cənab Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfərinin respublikamızda səbirsizliklə gözlənildiyini vurğuladı. İran Prezidenti tezliklə Bakıya səfər edəcəyini bildirdi.

Oktyabrın 14-də gecə Türkiyə Prezidenti Əhməd Necdət Sezərin adından İƏT-in üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan Prezidenti Heydər Əliyev qəbulda iştirak edirdi.

İstanbulda işgüzar səfərdə olan Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 15-də "Çırağan" sarayında Türkiyənin iş adamları ilə görüşmüşdür. Görüşdə Türkiyənin 200-dən çox nüfuzlu şirkətinin 300-dən çox təmsilçisi, habelə bu ölkənin tanınmış ictimai-siyasi xadimləri, dövlət və hökumət nümayəndələri, millət vəkilləri, diplomatlar, kütləvi informasiya vasitələrinin rəhbərləri və digər şəxslər iştirak edirdilər.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi və cənab Süleyman Dəmirəli hərarətli alqışlarla qarşıladılar. Görüşü giriş sözü ilə Türkiyə-Azərbaycan müştərək iqtisadi komissiyasının həmsədri Əli Yücəl açdı.

Türkiyə sənaye, ticarət və birjalar palatasının sədri Rifat Hısarcıqlıoğlu, dövlət naziri Rəşad Doğru, Azərbaycanın iqtisadi inkişaf naziri Fərhad Əliyev və Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdə geniş nitq söylədi.

(Dövlətimizin başçısının nitqi qəzetin bugünkü nömrəsinin birinci səhifəsində dərc edilir).

Sonra Azərbaycan Prezidenti Heydər Əliyevə iş adamlarına göstərdiyi diqqət və qayğıya görə Türkiyə-Azərbaycan müştərək iqtisadi komissiyası adından plaket təqdim olundu. Azərbaycanda fəaliyyət göstərən yerli və xarici ölkə jurnalistlərinə göstərdiyi qayğıya, mətbuata verdiyi önəmə, yaratdığı gözəl şəraitə görə Prezident Heydər Əliyevə Türkiyənin "Samanyolu" televiziya kanalının "Medianın dostu" mükafatı təqdim edildi.

Görüşdən sonra Türkiyənin çox nüfuzlu iş adamları dövlətimizin başçısına yaxınlaşaraq, Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildirdilər, ölkəmizlə əməkdaşlığı daha da sıxlaşdırmağa hazır olduqlarını söylədilər.

***İstanbulda mətbuat konfransında***
***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı***

-Hörmətli mətbuat nümayəndələri!

Mən sizi salamlayıram. Sizinlə görüşümdən məmnun olduğumu bildirirəm. Bilirsiniz ki, mən Türkiyəyə hörmətli Prezident Əhməd Necdət Sezərin dəvəti ilə, İqtisadi Əməkdaşlıq Təşkilatının VII zirvə görüşündə iştirak etmək üçün gəlmişəm.

Dünən bizim görüşlərimiz oldu. Bildirmək istəyirəm ki, bu görüşlər çox səmərəli keçdi. Biz İƏT-in fəaliyyətini təhlil etdik, müasir vəziyyəti müzakirə etdik və ölkələrimiz arasında, təşkilata daxil olan ölkələr arasında iqtisadi və başqa əlaqələrin inkişaf etməsi üçün müəyyən fikirlər söylənildi, müəyyən təkliflər irəliyə sürüldü. Bu gün isə mən İstanbulda olmağımdan istifadə edərək, Türkiyənin iş adamları ilə görüşmək arzusunda olmuşdum. Onu da burada lazımi təşkilatlar etdilər. Türkiyənin demək olar ki, çox hörmətli iş adamları, bilmirəm, 200 yaxud 250-300 nəfər toplaşmışdı. Biz görüşdük, söhbət etdik, Türkiyə-Azərbaycan iqtisadi əlaqələri haqqında məruzələr dinlədik. Ondan sonra isə Türkiyənin 9-cu Prezidenti hörmətli Süleyman Dəmirəl nitq söylədi. Sonra mən fikirlərimi söylədim.

Mən bu görüşdən çox məmnunam. Çünki, həqiqətən, Türkiyənin çox böyük iş adamları ilə səmərəli danışıqlar apardıq. İndi Azərbaycanda hansı işləri görmək mümkündür - o barədə məlumatlar verildi. Eyni zamanda, Türkiyənin iş adamlarının indiyə qədər Azərbaycanda gördükləri işlər haqqında da məlumatlar verildi. Çünki bəzən ayrı-ayrı insanlar belə bir fikir yaratmaq istəyirlər ki, guya son zamanlar Azərbaycanda Türkiyənin iş adamlarına istənilən qədər iş verilmir, yaxud iş yoxdur. Bunlar hamısı yanlış şeylərdir. Sadəcə, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrini müəyyən qədər ləkələmək üçün bu sözləri ortaya atırlar.

Mən təkrar etmək istəmirəm. Orada rəqəmlər deyildi. Beş minə qədər türk iş adamı daim Azərbaycanda işləyir, böyük layihələr həyata keçirilir, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri nəhəng layihələrdir. Onlardan əlavə, çoxlu başqa işlər də görülür. Ona görə də güman edirəm ki, heç kəs belə yollarla

Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinə xələl gətirə bilməz. Mən çox iş adamlarını Azərbaycana dəvət etdim. Söz verdilər, gələcəklər və yeni-yeni işlərə başlayacağıq.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim inkişaf edir. Biz son vaxtlar çox böyük işlər gördük. Məsələn, nəhayət, Bakı-Tbilisi-Ceyhan layihəsinin inşasına başladıq. Sentyabrın 18-də Bakıda onun təməlqoyma mərasimini keçirdik. Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze və Azərbaycan Prezidenti orada iştirak etdilər. İşə başlamışıq və güman edirəm ki, uğurla başa çatacaqdır.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri haqqında da lazımi tədbirlər görülür. Orada bir balaca gecikmələr var, onlar o qədər də əhəmiyyətli deyildir. Biz onun da inşasına başlayacağıq. Beləliklə, iki böyük layihənin, tarixi əhəmiyyəti olan layihələrin iqtisadi əhəmiyyəti məlumdur. Azərbaycanın Xəzər dənizindən hasil olan nefti – orada olduqca çox böyük neft ehtiyatları var – Bakı-Tbilisi-Ceyhan ilə Türkiyənin Ceyhan limanına axacaq, dünay bazarlarına gedəcəkdir. Bu kəmərin ömrü çox uzundur. Güman edirəm ki, XX1 əsrdə mütləq öz fəaliyyətini davam etdirəcək və XX11 əsrə də keçə bilər. Çünki Xəzərdə bildiklərimiz sərvətlərin çox olduğunu göstərir, amma hələ bilmədiyimiz şeylər də var. Ona görə bunun gələcəyi çox böyükdür.

Eləcə də “Şahdəniz” qaz yatağı. İndi orada 1 trilyon kubmetr qaz ehtiyatı olduğu bildirilir. Ancaq bu, ilkin məlumatdır və adətən ehtiyatlı davranırlar, çox böyük rəqəm demək istəmirlər. Düşünürəm ki, orada qaz daha da çoxdur. Amma təkcə orada deyil, Xəzərin başqa yerlərində də zəngin qaz yataqlarımız var. Ona görə Azərbaycan böyük qaz ölkəsi kimi, dünyaya qaz ixrac edəcəkdir. Güman edirəm, gələcəkdə biz Türkiyənin ərazisi ilə qaz kəmərini Avropaya da aparacağıq. Çünki bilməlisiniz ki, indi Avropada istifadə olunan qazın mənbələri get-gedə azalır. Avropa yeni qaz mənbələri arayırlar və bu baxımdan yenə də Xəzər hövzəsi mühüm yer tutur.

Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür, iqtisadiyyat sürətlə inkişaf edir. Bizim böyük bir problemimiz - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi indiyə qədər həll olunmayıbdır. Bu da Azərbaycanı yaralayıb və bu yara indiyə qədər bizim bədənimizdədir. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan 1 milyondan artıq azərbaycanlı zorla çıxarılıb, onların tam əksəriyyəti çadırlarda yaşayır. Ümumiyyətlə, çadırda yaşamaq çox çətindir. Amma bir-iki-üç il buna dözmək olar, çadırda 10 il yaşamaq isə dəhşətli bir şeydir. Ancaq bizim insanlar buna dözürlər və ümid bəsləyirlər ki, məsələ sülh yolu ilə həll olacaqdır.

Bəli, biz də bu ümidlə yaşayırıq, çalışırıq. Bu barədə çox işlər görürük. Həm ATƏT-in Minsk qrupu vasitəsilə, həm bilavasitə Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri vasitəsilə, həm də başqa beynəlxalq təşkilatların vasitəsilə sülh danışıqları aparırıq. Ancaq sülh danışıqları uzandığına görə, Azərbaycanda insanların səbri tükənir və bəziləri müharibə etmək, savaş, müharibə yolu ilə torpaqları azad etmək fikirlərini daha da çox irəli sürürlər. Belə əhval-ruhiyyə indi Azərbaycanda keçən illərə nisbətən daha da çoxdur. Bunun da əsası var. Dediyim kimi, nə qədər dözmək olar? Ancaq bizim dövlətin siyasəti belədir ki,

hələ məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. Burada imkanlar hələ tükənməyibdir, imkanlar var. Biz bu sahədə öz işimizi aparırıq.

Bu böyük ağır problemin olmasına baxmayaraq, Azərbaycanın iqtisadiyyatı inkişaf edir, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulubdur və artıq fəaliyyət göstərir. Azərbaycanda insan haqları qorunur, insan azadlıqlarının hamısı təmin olunubdur. Azərbaycanda bazar iqtisadiyyatı hökm sürür. Bizim iqtisadiyyatda əldə etdiyimiz nailiyyətlər, əsasən, bazar iqtisadiyyatının nəticəsidir. Bizim 1994-cü ildə irəliyə sürdüyümüz neft strategiyası həyata keçirilir və onun nəticəsində Azərbaycana xarici investisiya cəlb edilibdir. Neft sahəsinə təxminən 6 milyard dollar investisiya cəlb olunubdur. Amma 1993-cü ildən indiyə qədər Azərbaycana təxminən 10 milyard gollara qədər investisiya qoyulubdur. Onun içərisində xarici investisiya da var, daxili investisiya da var.

Biz gələn ilin büdcəsini hazırlamışıq, normal büdcədir. Bəzi sahələrdə - büdcədən təmin olunan təbəqələrin maaşları artırılacaqdır. Bir çox başqa sosial məsələləri həll etmişik və həll edirik. Azərbaycanda vəziyyət belədir. Mən daha çox vaxt almaq istəmirəm. Əgər indi kimin sualı olsa, mən cavab verməyə hazıram.

**«AZƏRTAC», 15.10.02**

---

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rumıniya Prezidenti İon İliyesku ilə təkbətək görüşü

Oktyabrın 29-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rumıniya Prezidenti İon İliyesku ilə təkbətək görüşü olmuşdur. Ali qonağı mehribanlıqla və səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək, respublikamıza rəsmi səfərə gəldiyinə görə cənab İon İliyeskuya təşəkkür etdi, bu səfərin Azərbaycan-Rumıniya əməkdaşlığının daha da inkişaf etməsində mühüm rol oynayacağına əmin olduğunu bildirdi. Səmimi sözlərə, yüksək qonaqpərvərliyə, ölkəmizə rəsmi səfərə dəvətə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Prezident İon İliyesku Rumıniyanın Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasına böyük əhəmiyyət verdiyini söylədi. Ölkələrimizdəki ictimai-siyasi, iqtisadi vəziyyət barədə ətraflı söhbət açan dövlət başçıları bütün sahələrdə ikitərəfli əlaqələrin daha da genişləndirilməsinin böyük perspektivlərə malik olduğunu nəzərə çarpdırdılar. Azərbaycan ilə Rumıniyanın beynəlxalq təşkilatlardakı əməkdaşlığından razılıqla bəhs edən prezidentlər bu əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini bildirdilər. Prezidentlər Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəql edilməsində mühüm rol oynayacaq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri barədə müzakirələr apardılar, böyük əhəmiyyətli beynəlxalq və regional layihələrin həyata keçirilməsində ölkələrimizin yaxından iştirak etməsindən söhbət açdılar. Ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən

Prezident Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları nəticəsində başlanmış bu münaqişənin uzun müddət davam etdiyini, respublikamızın ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox soydaşımızın yerindən-yurdundan didərgin düşərək indiyədək çadır şəhərciklərində ağır və dözülməz şəraitdə yaşadığını bildirdi. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında Rumıniyanın həmişə respublikamızın mövqeyini dəstəklədiyini nəzərə çarpdıran Prezident İon İliyesku onun ölkəsinin bundan sonra da Azərbaycanın haqq işini müdafiə edəcəyini söylədi. Prezidentlər bu münaqişənin aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupunun və həmsədrlik edən ölkələrin səylərinin səfərbər edilməsinin vacibliyi barədə yekdil fikirdə olduqlarını bildirdilər. Beynəlxalq terrorizmin həm Azərbaycan, həm də Rumıniya tərəfindən qətiyyətlə pislənildiyini nəzərə çarpdıran dövlət başçıları bu sahədə səylərin daha da gücləndirilməsinin zəruriliyini vurğuladılar. Dostluq və səmimilik şəraitində keçən görüşdə Qafqazda və bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

**«AZƏRTAC», 29.10.02**

---

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri Anri Jakolən ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 4-də Prezident sarayında ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri Anri Jakoləni qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı HEYDƏR ƏLİYEV onu Minsk qrupunun tərkibində Fransanın nümayəndəsi təyin olunması münasibətilə təbrik edərək dedi ki, arzu edirəm, sizinlə əməkdaşlığımız uğurlu olsun. Təəssüflər olsun ki, Fransa Minsk qrupundakı nümayəndəsini bir neçə dəfə dəyişibdir. Doğrudur, artıq Minsk qrupu on ildir fəaliyyət göstərir, orada bir vəzifədə on il heç kəs işləyə bilməz. Amma nümayəndəni bir ildən yox, heç olmasa üç-dörd ildən bir dəyişdirmək daha məqsədə uyğun olar. Amma mən güman edirəm ki, Minsk qrupu bundan sonra uzun müddət davam etməyəcəkdir. Biz bu məsələni həll edəcəyik və Minsk qrupu da öz fəaliyyətini sona çatdıracaqdır.

Təbii ki, bizim sizinlə əməkdaşlığımız, ümumiyyətlə, Minsk qrupu ilə Azərbaycanın, Ermənistanın gələcək əməkdaşlığından asılı olacaqdır. Mən isə düşünürəm ki, bizim əməkdaşlığımız bundan sonra həm uğurlu, həm də sürətli olmalıdır. Çünki biz bu məsələnin bundan sonra da uzadılmasına yol verməməliyik. Mən sizi bu arzularla salamlayıram.

Səmimi qəbula görə təşəkkürünü bildirən Minsk qrupunun fransalı həmsədri ANRİ JAKOLƏN dedi ki, cənab Prezident, daha üstün tutardım ki, Siz məni bir qədər sonra təbrik edəsiniz. Yəni o gün ki, Dağlıq Qarabağ problemi həm Azərbaycanın, həm də Ermənistanın razılığı ilə həll olunsun. Mən əslində, cənab

Perneni yox, Filip dö Surməni əvəz edirəm. İş elə gətirdi ki, - Sizin bundan xəbəriniz var, - cənab Surməni əvəz edən adam onun yerinə təyin olunmadı. İndi Xarici İşlər Nazirliyində Avropa idarəsinin rəisi işləyən cənab Perne bu müddət ərzində həmsədr vəzifəsini icra edirdi. Ancaq indi nazirimiz cənab Vilpən hesab edir ki, peşəkar bir diplomat bu məsələyə bütün vaxtını sərf edərək, münaqişənin həlli ilə məşğul olmalıdır. Bunun bir səbəbi də ondan ibarətdir ki, Prezident Jak Jirak münaqişənin həlli məsələsini çox yaxından, diqqətlə izləyir. Məni bu vəzifəyə dəvət etdilər və Sizə söz verirəm ki, onu vicdanla yerinə yetirməyə hazıram.

Fransa diplomatı bundan əvvəlki fəaliyyəti barədə qısa məlumat verərək dedi ki, münaqişəli bögələrdə - Bosniyada, Kiprdə səfir işləmiş, ATƏT-in sədrinin nümayəndəsi kimi Silahlara nəzarət komissiyasında çalışmışam. Həmin işlərdə topladığım təcrübədən bu münaqişənin həllində istifadə etmək istəyirəm və buna böyük ümid bəsləyirəm. Burada olduğum müddətdə başa düşdüm ki, münaqişə nəticəsində Azərbaycan əhalisi, xüsusilə qaçqınlar nə qədər əziyyət çəkirlər. Mən Bosniya və Herseqovinada üç il qaçqınların yanında olmuşam, doğma torpaqdan qovulmağın, ailəni itirməyin nə olduğunu bilirəm. Bu vəziyyəti daha yaxşı başa düşmək üçün mən qaçqınlara baş çəkmək istəyirəm.

HEYDƏR ƏLİYEV: Çox sağ olun, təşəkkür edirəm. Özünüz söylədiniz və mən də sizin tərcümeyi-halınızla bu gün tanış olmuşam. Peşəkar diplomat kimi siz, həqiqətən, çox iş görə bilərsiniz. Dediniz ki, Bosniya və Herseqovinada üç il olmusunuz. Bəli, orada qanlı münaqişələr, çoxlu tələfat olub, insanlar öz yerlərini itiriblər. Oraya beynəlxalq sülhyaratma qüvvələri daxil olubdur, indi də onlar oradadırlar.

Məhz bunların nəticəsində, bir neçə böyük ölkənin razılaşması nəticəsində orada münaqişə müəyyən qədər söndürülübdür. Amma nə qədər söndürülübdür, siz onu məndən yaxşı bilirsiniz. Hesab edirəm ki, ümumiyyətlə, həm diplomatik işdə, həm də münaqişə olan ölkələrdə işləməyiniz baxımından sizin təcrübəniz çoxdur. Beləliklə, Azərbaycan sizinlə, Fransanın nümayəndəsi ilə əməkdaşlığa başlayır. Yəni bu əməkdaşlığımızı indi Fransa tərəfindən sizin iştirakınızla davam etdiririk. Çox_məmnunam ki, siz bu işə başlamazdan əvvəl məhz qaçqınlar düşərgəsinə getmək, onların vəziyyətini öz gözlərinizlə görmək istəyirsiniz. Amma güman edirəm ki, siz Bakıdan kənardakı düşərgələrdən birinə gedəcəksiniz. Şəhərin içindəki qaçqınlarla görüşmək də təsəvvür yaradır, amma yaxşı olar ki, ya Biləsuvara, ya İmişliyə və ya Bərdəyə gedəsiniz, yaxud da istədiyiniz başqa yerə, gedəsiniz. Hər halda, bizim Qaçqınlar Komitəsinin sədri, baş nazirin müavini Əli Həsənov sizə bu barədə kömək edə bilər. Sizin səfir də bunları yaxşı bilir. O, oralarda olubdur, sizə məsləhətlər verə bilər.

**«AZƏRTAC», 04.11.02**

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Praqaya səfəri

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün noyabrın 21-də Praqaya gəlmişdir.

Praqa şəhərinin "Stara Ruzina" hava limanında Azərbaycan Prezidenti Heydər Əliyevi Çexiya Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Mirhəmzə Əfəndiyev qarşıladılar.

Dövlətimizin başçısı Heydər Əliyev maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış "Qorintiya Tovert" mehmanxanasına gəldi. Respublikamızın rəhbərini burada Çexiya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli əməkdaşı Boqomil Harmşmid səmimiyyətlə qarşıladı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmin gün öz iqamətgahında Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşdü. Təkbətək keçən görüşdə dövlət başçıları ölkələrimiz arasında əməkdaşlığın perspektivləri, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr apardılar. Görüşdən sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

Daha sonra Praqadakı Konqres mərkəzində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın təkbətək görüşü keçirildi. Bir saatdan çox davam edən danışıqlardan sonra ATƏT-in Minsk qrupunun ABŞ, Rusiya və Fransadan olan həmsədrləri də görüşə qatıldılar. Sonra isə dövlət başçıları görüşü yenidən təklikdə davam etdirdilər.

Görüş başa çatdıqdan sonra Prezident Heydər Əliyev və Prezident Robert Koçaryan jurnalistlər qarşısında bəyanatla çıxış etdilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması barədə geniş müzakirə apardıqlarını vurğulayan dövlət başçıları, hələlik konkret nəticə əldə edilməsə də, ənənəvi xarakter daşıyan belə görüşlərin problemin həlli yollarının tapılması üçün çox böyük əhəmiyyəti olduğunu bildirdilər.

Prezidentlər Minsk qrupu həmsədrlərinin münaqişənin sülh yolu ilə həlli sahəsində son vaxtlardakı səylərini də müsbət dəyərləndirdilər.

Noyabrın 21–də axşam Çexiya Respublikasının Prezidenti Vatslav Havelin adından sammit iştirakçılarının şərəfinə ziyafət verildi. Azərbaycan Prezidenti Heydər Əliyev ziyafətdə iştirak edirdi.

NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak etmək üçün Praqada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 21-də axşam Fransa Respublikasının Prezidenti Jak Şirak ilə görüşmüşdür.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da genişləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 22-də Çexiya paytaxtının Konqres Mərkəzinə gəldi. Dövlətimizin başçısını burada NATO-nun yüksək vəzifəli rəsmi şəxsləri hörmətlə qarşıladılar.

Elə həmin gün Konqres Mərkəzində NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü başlandı. NATO-nun baş katibi lord Robertson görüşü açaraq iştirakçıları salamladı, sammitin işinə uğurlar arzuladı.

Çexiya Respublikasının baş naziri Vladimir Şpidla dövlət və hökumət başçılarını salamladı.

Sonra NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev zirvə görüşündə çıxış etdi.

Zirvə görüşü başa çatdıqdan sonra iştirakçılar birgə xatirə şəkli çəkdirdilər.

Elə həmin gün NATO-nun baş katibi lord Robertsonun adından dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan Prezidenti Heydər Əliyev qəbulda iştirak edirdi.

Noyabrın 22-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşü olmuşdur.

Dost və qardaş ölkələrin prezidentləri Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi apardılar.

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 22-də axşam Praqanın “Stara Ruzina” beynəlxalq hava limanına gəldi. Dövlətimizin başçısını Çexiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycan Respublikasının NATO yanında daimi nümayəndəliyinin başçısı Mirhəmzə Əfəndiyev yola saldılar.

### ***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-un zirvə görüşündə iştirakı***

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün noyabrın 21-də Praqaya gəlmişdir.

Praqa şəhərinin "Stara Ruzina" beynəlxalq hava limanında Azərbaycan Prezidenti Heydər Əliyevi Çexiya Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Mirhəmzə Əfəndiyev qarşıladılar.

Dövlətimizin başçısı Heydər Əliyev maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha - "Qorintiya Tovert" mehmanxanasına gəldi. Respublikamızın rəhbərini burada Çexiya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli əməkdaşı Boqomil Harmşmid səmimiyyətlə qarşıladı.

Noyabrın 21-22-də Praqa Konqres Mərkəzində NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının zirvə görüşü keçirildi.

Son onillkdə Avropada baş vermiş proseslər – Almaniyanın birləşməsi, SSRİ-nin və Varşava Müqaviləsi Təşkilatının dağılması, "soyuq müharibə"nin aradan qalxması NATO-nun strategiyasında fundamental dəyişikliklərə səbəb olmuşdur. 1990-cı ilin əvvəllərindən etibarən NATO-nun strukturlarında siyasi və hərbi dəyişikliklər başlanmış, yeni dövrün tələblərinə cavab verə biləcək bir çox sənədlər qəbul edilmişdir. Gələcək əməkdaşlığın inkişafını istiqamətləndirmək məqsədi ilə 1991-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurası /ŞAƏS/ yaradılmışdır. Azərbaycan Respublikası 1992-ci ildə bu foruma qoşulmuşdur. 1994-cü ilin yanvarında NATO-nun Brüssel zirvə toplantısında Alyansin "Sülh naminə tərəfdaşlıq" proqramı qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmin il mayın 3-4-də Brüsselə rəsmi səfəri zamanı bu proqramın Çərçivə sənədini imzalamışdır. 1997-ci ilin mayında isə ŞAƏS-in əvəzində Avroatlantika Tərəfdaşlıq Şurası /AATŞ/ yaradılmışdır. O, daha geniş səviyyədə siyasi tərəfdaşlıq və "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində praktiki əməkdaşlıq üçün yeni imkanlar açan mexanizmdir.

Müasir dövrdə təcavüz amili Alyans üçün o qədər də təhlükə yaratmır. Avroatlantika məkanında əsas təhlükə mənbələri iqtisadi, siyasi və sosial çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahlarının yayılması, terror aktları və sairədir. Bunlar NATO-nun 1999-cu ildə qəbul edilmiş yeni strateji konsepsiyasında da öz əksini tapmışdır.

Praqa sammiti 2001-ci ilin 11 sentyabrında ABŞ-da törədilmiş dəhşətli terror aktlarından sonra NATO-nun ilk toplantısı idi.

Zirvə görüşünün ilk iclası Alyansın üzvü olan 19 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə başlandı.

İclası NATO-nun baş katibi lord Robertson açdı. Çexiya prezidenti Vatslav Havel ev sahibi kimi görüş istirakçılarını salamladı. Sonra Alyansın üzvü olan ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər. Görüşün ilk mühüm qərarı Rumıniya, Bolqarıstan, Latviya, Litva, Estoniya, Sloveniya və Slovakiyanın NATO üzvlüyünə dəvət edilməsi barədə oldu. 2004-cü ildə həmin ölkələr rəsmən NATO-ya daxil olduqdan sonra Alyansın üzvlərinin sayı 26-ya çatacaq, təşkilatın əhatə zonası 593 min kvadrat kilometr genişlənəcəkdir. Baş katib lord Robertson bildirmişdir ki, NATO-nun genişlənməsi Rusiyaya qarşı yönəldilməmişdir, Rusiya bizim tərəfdaşımızdır.

Noyabrın 22-də Praqa Konqres Mərkəzində zirvə görüşü öz işini daha geniş tərkibdə - Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan bütün ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə davam etdirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev görüşdə iştirak etmək üçün Konqres Mərkəzinə gəldi. Dövlətimizin başçısını burada NATO-nun yüksək vəzifəli rəsmi şəxsləri hörmətlə qarşıladılar.

Zirvə görüşünün növbəti iclasını NATO-nun baş katibi lord Robertson açaraq iştirakçıları salamladı. O vurğuladı ki, bu təşkilat çərçivəsində əməkdaşlıq yeni – XXI əsrin tələblərinə cavab verməlidir. NATO genişləndiyi kimi, onun missiyası da artır və deməli, əməkdaşlıq və birgə fəaliyyət mexanizmi də təkmiləşməlidir.

Baş katib bildirdi ki, xüsusən məlum 11 sentyabr hadisələrindən sonra Avroatlantika əməkdaşlığı geniş vüsət almışdır. NATO Şərqi Avropaya doğru genişlənməkdədir. Bu isə gələcək illərdə yeni qlobal əməkdaşlıq sahələrinin yaranmasına imkan verəcəkdir. Ona görə də biz yeni əsrin çağırışlarına hazır olmalıyıq.

Lord Robertson çıxışının sonunda zirvə görüşünə uğurlar arzuladı.

Çexiya Respublikasının baş naziri Vladimir Şpidla zirvə görüşünün iştirakçılarını salamladı, toplantının uğurla keçəcəyinə, dövlət və hökumət başçılarının Praqanı razılıq hissi ilə tərk edəcəklərinə ümidvar olduğunu söylədi.

Sonra ABŞ Prezidenti Corc Buş, Finlandiya Prezidenti Tarya Halonen, AFR-in federal kansleri Gerhard Şröder, Böyük Britaniyanın baş naziri Toni Bleyer, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Özbəkistan Prezidenti İslam Kərimov, Portuqaliyanın baş naziri Joze Manuel Duran Barrozu, Xorvatiya Prezidenti Stipe Mesiç, Makedoniya Prezidenti Boris Traykovski, Litva Prezidenti Valdas Adamkus, Azərbaycan Prezidenti Heydər Əliyev, Polşa Prezidenti Aleksandr Kvasnevski, Albaniya Prezidenti Alfred Moisiu, Norveçin baş naziri Xyel Maqne Bunnevik, İtaliyanın baş naziri Silvio Berluskoni, Rumıniya Prezidenti İon İliyesku, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Bolqarıstan Prezidenti Georgi Pırvanov, Ukrayna Prezidenti Leonid Kuçma, Tacikistan Prezidenti Emoməli Rəhmonov, Moldova Prezidenti Vladirmir Voronin, Ermənistan Prezidenti Robert Koçaryan, Latviya Prezidenti Vayra Vike-Freyberqa və başqaları çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışının mətni qəzetin bugünkü nömrəsinin birinci səhifəsində dərc olunur/.

Dövlət və hökumət başçıları NATO-ya yeni dəvət olunan ölkələri təbrik edərək bildirdilər ki, Alyansın üzvlərinin sayının çoxalması onun demokratik ruhunu daha da artıracaqdır. Natiqlər müasir dünya üçün ən böyük təhlükə olan beynəlxalq terrorizmə qarşı birgə mübarizənin daha da gücləndirilməsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması sahəsində səyləri artırmağın vacibliyini xüsusi vurğuladılar. Belə bir məqam da qeyd olundu ki, əsasən, hərbçilər arasında əməkdaşlığı təmin etmək məqsədi ilə irəli sürülmüş “Sülh naminə tərəfdaşlıq” proqramının həyata keçirilməsində daha böyük uğurlar əldə olunmuşdur və bu əməkdaşlığı davam etdirmək, yeni minillikdə sülh və təhlükəsizliyə olan qlobal hədələrə qarşı mübarizəni gücləndirmək lazımdır.

Zirvə görüşünün yekunlarına dair bəyannamə qəbul edildi. Bəyannamədə dövlət və hökumət başçıları NATO-nun genişlənməsini alqışlarayaraq, onun qlobal təhlükəsizliyə və ümumbəşəri dəyərlərin qorunmasına daha artıq xidmət edəcəyinə inam ifadə etmişlər. Onlar yekdilliklə belə bir fikri vurğulamışlar ki, Alyansa yeni üzvlərin qəbul edilməsi təşkilatın strateji vəzifələrinin miqyasını genişləndirir. İştirakçılar NATO-nun çevikliyini və mütəhərrikliyini artırmağın, xüsusən dünyanın müxtəlif nöqtələrində terrorizmin baş qaldırdığı indiki dövrdə təşkilatın hərbi qüdrətini gücləndirməyin zəruriliyini təsdiq etmişlər.

Bəyannamədə NATO-Rusiya, NATO-Ukrayna əməkdaşlıq şuralarının fəaliyyəti bəyənilmiş, sabit və vahid Avropa üçün bu ölkələrin rolu xüsusi vurğulanmışdır.

Sənəddə beynəlxalq təşkilatlar arasında işbirliyi məsələlərinə də xüsusi diqqət yetirilmiş, NATO-Avropa Birliyi, NATO-ATƏT əməkdaşlığı çərçivəsində və BMT xətti ilə keçirilən təhlükəsizlik tədbirlərinin zəruriliyi qeyd olunmuşdur.

Zirvə görüşündə İraqla bağlı bəyanat da qəbul edildi. Dövlət və hökumət başçıları belə bir yekdil fikirdədirlər ki, İraqın könüllü şəkildə, yaxud məcburi qaydada tərksilah edilməsinin təmin olunması zəruridir. İraq BMT Təhlükəsizlik Şurasının qətnaməsini yerinə yetirməsə, zorla tərksilah ediləcəkdir.

Zirvə görüşü başa çatdıqdan sonra iştirakçılar birgə xatirə şəkli çəkdirdilər.

Elə həmin gün dövlət və hökumət başçıları balet tamaşasına baxdılar. Daha sonra Çexiya Respublikasının Prezidenti Vatslav Havelin adından zirvə görüşü iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Azərbaycan Prezidenti Heydər Əliyev konsertdə olmuş, ziyafətdə iştirak etmişdir.

Zirvə görüşünün başa çatması münasibətilə NATO-nun baş katibi lord Robertsonun adından da iştirakçıların şərəfinə ziyafət verildi. Dövlətimizin başçısı Heydər Əliyev ziyafətdə iştirak edirdi.

Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 21-də NATO-nun baş katibi lord Con Robertson ilə görüşmüşdür.

Dəvətini qəbul edərək, NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının toplantısında iştirak etmək üçün Praqaya gəldiyinə görə dövlətimizin başçısı Heydər Əliyevə təşəkkürünü bildirən cənab Robertson vaxtilə Bakıya etdiyi səfəri və ona göstərilən qonaqpərvərliyi həmişə məmnunluqla xatırladığını söylədi.

Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmasını və bu çərçivədə fəal əməkdaşlığını yüksək dəyərləndirən cənab Robertson respublikamız ilə NATO arasında əlaqələrin daha da möhkəmlənməsindən razılıqla söhbət açdı.

Dünyanın çox böyük əhəmiyyət daşıyan bölgələrindən biri olan Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik məsələsinə NATO-nun böyük maraq göstərdiyini vurğulayan lord Robertson terrorizmə qarşı beynəlxalq koalisiyada Azərbaycanın yaxından iştirakından razılıqla bəhs etdi.

"Sülh naminə tərəfdaşlıq proqramı" çərçivəsində NATO ilə əlaqələrin daha da genişləndirilməsinə Azərbaycanın xüsusi maraq göstərdiyini vurğulayan Prezident Heydər Əliyev bildirdi ki, 1994-cü ildən bu

proqrama qoşulmuş Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin bərqərar edilməsini özü üçün əsas məqsəd seçmişdir.

NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Çexiyanın paytaxtında keçirilən zirvə görüşünün böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıran Azərbaycan Prezidenti Heydər Əliyev əmin olduğunu bildirdi ki, Praqa sammiti dünyada sülhün, təhlükəsizliyin, sabitliyin bərqərar olunmasında, beynəlxalq terrorizmə və ekstremizmə qarşı mübarizədə dünya birliyinin səylərinin daha sıx birləşməsinə yeni güclü təkan verəcəkdir.

Prezident Heydər Əliyev vurğuladı ki, Cənubi Qafqazdakı münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin maraqlarına uyğundur.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə NATO-Azərbaycan əlaqələrinin perspektivləri, beynəlxalq aləmdə və regionda vəziyyət, habelə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak ilə təkbətək görüşü*

Xəbər verdiyimiz kimi, NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin noyabrın 21-də Fransa Prezidenti Jak Şirak ilə təkbətək görüşü olmuşdur.

NATO sammitində görüşməkdən məmnun qaldıqlarını bildirən prezidentlər bir-birini dostcasına, mehribanlıqla salamladılar.

Respublikamızda hazırkı vəziyyətə, ölkə rəhbərliyi tərəfindən görülən işlərə, əldə edilən uğurlara maraq göstərən Prezident Jak Şirak Fransa ilə Azərbaycan arasında hərtərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirdi.

Prezident Heydər Əliyev Azərbaycanda həyata keçirilən islahatlardan, xarici sərmayələrin cəlb olunması üçün ölkədə yaradılmış əlverişli şəraitdən, Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının işlənilməsi və Avropa bazarlarına nəqli sahəsində görülən irimiqyaslı işlərdən, bu sahədə qarşıda duran vəzifələrdən geniş söhbət açdı.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın səylərinə böyük ümidlər bəslədiyini vurğuladı.

Fransa Prezidentinin diqqətini torpaqlarımızın hələ də işğal altında qalmasına, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşımızın çadırlarda ağır şəraitdə yaşamasına yönəldən dövlətimizin başçısı Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında Jak Şirakdan öz şəxsi səylərini artırmağı xahiş etdi.

ATƏT-in Minsk qrupu çərçivəsində aparılan işlərin, Azərbaycanın və Ermənistanın dövlət başçılarının birbaşa görüşlərinin münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün əhəmiyyətli olduğunu bildirən Prezident Jak Şirak nizamasalma prosesində Minsk qrupunun həmsədri kimi öz ölkəsinin səylərini daha da artıraçağını söylədi.

Dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Fransa-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi ilə bağl fikir mübadiləsi də aparıldı.

### *Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezar ilə təkbətək görüşü*

Xəbər verdiyimiz kimi, NATO/Avroatlantik Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin noyabrın 22-də Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü olmuşdur.

Bir-birini mehribanlıq və səmimiyyətlə salamlayan dövlət başçıları yenidən görüşmək imkanından məmnun qaldıqlarını bildirdilər.

NATO sammitinin işi, müzakirə edilən məsələlər barədə fikir mübadiləsi aparan Prezidentlər Praqa zirvə görüşünün, dünyada sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi sahəsində növbəti addım olduğunu vurğuladılar.

Dost və qardaş dövlətlər arasında əməkdaşlığın bütün sahələrdə genişlənməkdə və dərinləşməkdə olmasından razılıq hissi ilə söhbət açan prezidentlər iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd etdilər.

Dövlət başçıları Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsi və enerji daşıyıcılarının Avropa bazarlarına nəqli sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı barəsində, bu yaxınlarda təməlqoyma mərasimində birgə iştirak etdikləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin reallaşması yolunda qarşıda duran vəzifələr barədə söhbət apardılar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində danışıqlar prosesinin gedişindən bəhs olundu. Türkiyə Prezidenti Əhməd Necdət Sezər nizamasalma prosesində öz ölkəsinin Azərbaycanı bundan sonra da həmişə dəstəkləyəcəyini vurğuladı.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi oldu.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan Prezidenti Eduard Şevarnadze ilə təkbətək görüşü*

Xəbər verdiyimiz kimi, NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin noyabrın 21-də Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü olmuşdur.

Prezident Heydər Əliyev və Prezident Eduard Şevardnadze ənənəvi xarakter almış və səmimilik, dostluq şəraitində keçən görüşlərindən məmnun olduqlarını bildirdilər.

Sammitin işi, müzakirə edilən məsələlər barədə fikir mübadiləsi aparan dövlət başçıları NATO-nun bu toplantısının dünyada sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunması sahəsindəki əhəmiyyətini vurğuladılar.

Azərbaycan və Gürcüstan prezidentləri Cənubi Qafqazda və ümumən Qafqazda təhlükəsizliyin və sabitliyin bərqərar olmasının regionun inkişafı və tərəqqisi üçün vacibliyini nəzərə çarpdırdılar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, gürcü-abxaz, gürcü-osetin münaqişələrinin həlli barədə fikir mübadiləsi apardılar. Prezidentlər Xəzərin zəngin karbohidrogen yataqlarının işlənilməsi və enerji ehtiyatlarının dünya bazarına nəqli, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşası ilə bağlı həyata keçirilən konkret tədbirlərdən söhbət açdılar. Dövlət başçıları bu layihə ilə əlaqədar qarşıya çıxan çətinliklərin aradan qaldırılmasından da danışdılar.

Ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərindən bəhs edən prezidentlər qarşılıqlı maraq doğuran bir sıra digər problemlər haqqında da fikir mübadiləsi apardılar.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə təkbətək görüşü*

Xəbər verdiyimiz kimi, NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin noyabrın 21-də Ermənistan Prezidenti Robert Koçaryan ilə təkbətək görüşü olmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri müzakirə edildi.

Münaqişənin həlli üçün ikitərəfli görüşlərin və danışıqların əhəmiyyətini bildirən dövlət başçıları belə görüşlərin davam etdirilməsinin vacibliyini vurğuladılar. Prezidentlər tam sülh əldə olunanadək tərəflərin atəşkəs rejiminə əməl edəcəklərini bildirdilər.

Prezident Heydər Əliyev və Prezident Robert Koçaryan münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsinin zəruriliyini vurğuladılar.

Görüşdən sonra Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Koçaryan jurnalistlər qarşısında bəyanatla çıxış etdilər.

### *Ermənistan Prezidenti Robert Koçaryanın Bəyanatı*

- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri. Bir daha görüşmək və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vəziyyəti müzakirə etmək üçün hər bir imkandan, xüsusən də müxtəlif beynəlxalq forumlar zamanı yaranan imkandan istifadə etmək artıq ənənəyə çevrilmişdir. Bu ənənəyə o da əlavə olunmuşdur ki, Minsk qrupunun həmsədrləri də hər bir imkandan istifadə etməyə çalışırlar. İndi bizim həm təkbətək, həm də həmsədrlərin iştirakı ilə görüşüb söhbət etmək imkanımız var. Mən bugünkü söhbəti müsbət qiymətləndirirəm. Deyə bilmərəm ki, biz konkret nəticələr əldə etdik, lakin, sadəcə olaraq, əminəm ki, düzgün istiqamətdə böyük addım atılmışdır. Həm də bu addımlar görüşdən-görüşə artır. Nəticənin necə olacağını zaman göstərəcəkdir. İndiki zaman isə kifayət qədər mürəkkəbdir, Ermənistanda da, Azərbaycanda da seçkilər keçiriləcəkdir və ona görə də biz hər şeyi etməliyik ki, Dağlıq Qarabağ problemi kimi mühüm problemin nizama salınması seçkiqabağı əhval-ruhiyyələrin, hansısa seçkiqabağı dəlillərin girovuna çevrilməsin. Odur ki, hesab edirəm, bu baxımdan danışıqlar xüsusən indiki dövrdə, sadəcə olaraq, zəruridir. Sağ olun.

### *Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*

Prezident Koçaryan sizə artıq hər şeyi dedi. Mən də bu fikirdəyəm ki, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri artıq ənənə xarakteri almışdır və bu, öz qüvvəsini, zəruriliyini saxlayır. İstədiyimizə hələlik nail ola bilməsək də, biz hər dəfə görüşərkən yəqin edirik ki, görüşmək görüşməməkdən yaxşıdır. Amma, bildiyiniz kimi, problem son dərəcə mürəkkəbdir, ATƏT-in Minsk qrupu onun həllinə səfərbər edilmişdir. Biz bir az əvvəl Minsk qrupunun həmsədrləri ilə görüşdük, onlar da bu məsələ ilə məşğul olurlar. Biz Ermənistan və Azərbaycan prezidentlərinin nümayəndələrinin vaxtaşırı görüşlərində də yeni imkanlar görürük. Bütünlükdə bunların hamısı münaqişənin dincliklə həlli yolunun tapılmasına yönəldilmişdir. Biz, məqsədə çatmasaq da, bu görüşlər vasitəsilə irəliləyirik. Böyük olmasa da, hər halda, irəliləyiş var. Bu, irəliləməməkdən, heç nə etməməkdən daha yaxşıdır. Odur ki, bugünkü görüşü mən də müsbət qiymətləndirirəm. Hesab edirəm ki, 2003-cü ildə Ermənistanda prezident və parlament seçkiləri, habelə Azərbaycanda prezident seçkiləri keçiriləcəyi ilə bağlı vəziyyəti nəzərə almaqla, biz gələcəkdə də görüşləri

dayandırmayacaq və bundan ötrü əlverişli imkanlar tapacağıq. Siz də sağ olun ki, görüşlərimizə belə böyük diqqət yetirirsiniz.

### *Azərbaycan Prezidenti Heydər Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın ATƏT-in Minsk Qrupunun həmsədirləri ilə görüşü*

Xəbər verdiyimiz kimi, NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın noyabrın 21-də ATƏT-in Minsk qrupunun həmsədrləri Nikolay Qribkov (Rusiya), Rudolf Perina (ABŞ), Üq Perne və Anri Jakolən (Fransa) ilə görüşü olmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri barədə fikir mübadiləsi aparıldı.

Tam sülh əldə olunanadək öz ölkələrinin atəşkəs rejiminə əməl edəcəklərini vurğulayan prezidentlər münaqişənin aradan qaldırılması sahəsində birbaşa görüşlərin zəruriliyini bildirdilər, bu prosesdə ATƏT-in Minsk qrupu çərçivəsində səylərin artırılmasının vacibliyini vurğuladılar.

Minsk qrupunun həmsədrləri danışıqlar prosesinin belə bir formatda aparılmasının əhəmiyyətini, Praqada keçirilən bu görüşdən razı qaldıqlarını bildirdilər və dövlət başçılarına minnətdarlıq etdilər.

Görüşdə bir daha vurğulandı ki, münaqişənin həlli üçün bütün səylər səfərbər olunmalıdır.

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 22-də axşam Praqanın "Stara Ruzina" beynəlxalq hava limanına gəldi. Dövlətimizin başçısını Çexiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycan Respublikasının NATO yanında daimi nümayəndəliyinin başçısı Mirhəmzə Əfəndiyev yola saldılar.

Respublikamızın rəhbəri elə həmin gecə Bakıya gəldi.

**«AZƏRTAC», 23.11.02**

---

## <u>Digər görüşlər</u>

4 sentyabr - Fransa Beynəlxalq Əlaqələr İnstitutunun Direktoru Tyeri dö Monbrial ilə görüş

5 sentyabr - Türkiyənin Azərbaycandakı Səfiri Əhməd Ünal Çevikgöz ilə görüş

6 sentyabr - MDB-nin üzvü olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən 23-cü iclasının iştirakçıları ilə görüş

9 sentyabr - MDB İcraiyyə Komitəsinin Sədri-İcraçı Katibi Yuri Yarov ilə görüş

10 sentyabr - Türk Sənayeçi və İş Adamları Vəqfinin (TÜSİAV) Sədri Vəli Sarıtoprağla görüş

11 sentyabr - Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfiri Ross Uilson ilə görüş

11 sentyabr - Dünya Bankının Cənubi Qafqaz ölkələri üzrə departamentinin direktoru Donna-M. Dousett-Koirolo ilə görüş

11 sentyabr - Dünya Turizm Təşkilatının (DTT) Baş Katibi Françesko Franjeali ilə görüş

17 sentyabr - Amerika Birləşmiş Ştatların Enerqetika Naziri Spenser Abraham ilə görüş

20 sentyabr - Rusiya Dövlət Dumasının Sədri Gennadi Seleznyov ilə görüş Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru general-polkovnik Sergey Lebedev ilə görüş

21 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Litva Respublikasının Ədliyyə Naziri Vitaütas Markyaviçusun başçılığı ilə Nazirliyin nümayəndə heyəti ilə görüş

27 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasının Əmək və Sosiyal İnkişaf Naziri Aleksandr Poçinokun başçılığı ilə Nazirliyin nümayəndə heyəti ilə görüş

27 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskva Hökümətində Merin Birinci Müavini, Hökümətlərarası Komissiyanın həmsədri Lyudmila Şvetsovanın başçılığı ilə Nazirliyin nümayəndə heyəti ilə görüş

1 oktyabr - Fransanın Xarici İşlər üzrə Dövlət Katibi Reno Müzelyenin başçılığı ilə Nazirliyin nümayəndə heyəti ilə görüş

4 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Prezidenti yanında Federal Hökümət Rabitəsi və İnformasiya Agentliyinin Baş Birektoru Vladimir Matyuxin ilə görüş

16 oktyabr - NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrin Komandanı ilə görüşü

Amerika Birləşmiş Ştatlarının Avropadakı Silahlı Qüvvələrinin Baş komandanı general Cozef Ralstonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

22 oktyabr - Ukrayna Xarici İşlər Nazirliyinin dövlət katibi Yuri Sergeyev başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüş

22 oktyabr - Rusiya Federasiyasının yollar naziri Gennadi Fadeyevin başçılığı ilə bu ölkənin nümayəndə heyəti ilə görüş

25 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Misir Ərəb Respublikasının xarici işlər üzrə dövlət naziri xanım Faizə Əbul-Nəcan ilə görüş

28 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiya Hesablama Palatasının sədri Sergey Stepaşin başda olmaqla Rusiya nümayəndə heyəti ilə görüş

30 oktyabr - Amerika Birləşmiş Ştatlarının Ermənistandakı səfiri ilə görüşü

30 oktyabr - Bolqarıstanın sabiq Prezidenti Jelyu Jelev başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüşü

31 oktyabr - İran İslam Respublikasının kooperasiya naziri Əli Sufinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü

7 noyabr - «Metro» Beynəlxalq Assosiasiyasının üzvləri ilə görüşü

11 noyabr - Türkiyənin "Sabançı holdinq" şirkətinin idarə heyətinin sədri Sakip Sabançının başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

13 noyabr - Kanadanın Mərkəzi və Şərqi Avropa, Yaxın Şərq üzrə dövlət katibi Qar Nutsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

15 noyabr - Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Ross Uilson ilə görüşü

23 noyabr - ABŞ Prezidentinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə xüsusi nümayəndəs, səfir Stiven Mən ilə görüş

25 noyabr - Moskva vilayətinin qubernatoru, vilayət hökumətinin sədri Boris Qromovun başçılığı ilə vilayət hökumətinin nümayəndə heyəti ilə görüş

28 noyabr - Türkiyənin "Enka" şirkətinin fəxri prezidenti Şarık Taranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

29 noyabr - Rusiyanın energetika naziri İqor Yusufov ilə görüşü

4 dekabr – Qazaxistanın Azərbaycandakı yeni təyin olunmuş səfiri Andar Şukputovun etimadnaməsinin qəbul edilməsi

9 dekabr - İtaliyanin əmək və sosiyal siyasət naziri Roberto Maroninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

10 dekabr - İran İslam Respublikasının mədəniyyət və İslami irşad naziri Əhməd Məscid Cameinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

18 dekabr - Hindistanin Azərbaycandakı səfiri Dinkar Xullar ilə görüş

23 dekabr - Yaponiyanin Azərbaycandakı səfiri Toşiyuki Fujivara ilə görüş

25 dekabr - Türkiyənin Azərbaycandakı səfiri Əhməd Unal Çevikgöz ilə görüş

26 dekabr - ABŞ-in Azərbaycandakı səfiri Ross Uilson ilə görüş




# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VİLAYƏT QULİYEVİN 2002-Cİ İL SENTYABR-DEKABR AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Daimi İnkişaf üzrə Zirvə Toplantısı çərçivəsində BMT-nın İqtisıdi və Sosial Şurasına seçkiqabağı kampaniyanıyası silsiləsində keçirilmiş ikitərəfli görüşlərə dair

Azərbaycan Respublikasının BMT nəzdində Daimi Nümayəndəliyinin təklifinə əsasən Yuqoslaviya Federativ Respublikası, Zimbabve, Marşal Adaları, Svazilend, Myanma, Bolqarıstan, Kabo Verde, Ruanda, Kubanın nümayəndələri ilə ikitərəfli görüşlər keçirilmişdir.

Görüşlərda Azərbaycanın bu qurumun işində iştirak etmək lazımı imkan və potensiala malik olduğunu təsbit etdirmək üçün nazir görüş ərəfəsində həmsöhbətlərinə aşağıdakılar barəsində ətraflı məlumat vermişdir:

- SSRİ-nin süqutundan sonra öz müstəqilliyini bərpa edən Azərbaycanın üzləşdiyi problemlər və onların aradan qaldırılmasında əldə etdiyi müvəffəqiyyətlər;
- Ümumi iqtisadi vəziyyət (konkret nailiyyətlər və iqtisadi göstəricilər daxil olmaqla) :

1991-ci ildən etibarən iqtisadiyyatının bazar qanunları əsasında qurulması istiqamətində təsərrüfatın bütün sahələrində islahatların keçirilməsinə yönəldilmiş iqtisadi siyasət prinsiplərini rəhbər tutmuşdur. Həmin siyasət nəticəsində son 5-6 il ərzində Azərbaycan iqtisadiyyatı Ümumi Daxili Məhsulun (ÜDM) 9-10% daimi illik artımı ilə inkişaf edir. İnflyasiya 0-2% səviyyəsində stabil olaraq qalmışdır.

Makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində AR Hökuməti tərəfindən həyata keçirilən təşəbbüslər sırasında beynəlxalq maliyyə təşkilatlarının məsləhəti və maliyyə dəstəyi ilə qanunvericilik bazasını dünya standartlarına uyğun yeniləşdirilməsinin başlanıb və davam etdirilməsi, struktur və inzibati islahatlar nəticəsində ölkəmizdə investisiya mühitinin əhəmiyyətli dərəcədə təkmilləşdirilmişini xüsusilə qeyd etmək lazımdır.

İnvestisiyaların həcmi təxminən 10 milyard ABŞ. dollarıdır və onlardan 7 milyardı Birbaşa Xarici İnvestisiyaların (BXİ) payına düşür. Adambaşına düşən investisiyaların həcminə görə Azərbaycan Şərqi Avropa ölkələri arasında ən yüksək göstəricilərə malik ölkələr sırasına aiddir.

- Azərbaycanın təbii ehtiyatları və onların regional əməkdaşlığın inkişaf etdirilməsində rolu (enerji təminatı və transregitonal nəqliyyat layihələri):

Azərbaycan təbii ehtiyatlarla zəngin olan bir ölkə kimi öz təbii ehtiyatlarının hasilatı ilə təkcə ölkəmizin deyil, region ölkələrinin də enerji təminatına öz töhvəsini vermişdir.

Enerji təminatı ilə yanaşı Azərbaycan öz təbii ehtiyatlarının qərb və dünya bazarlarına nəql edilməsi vasitəsilə transregional miqyasda nəqliyyat infrastrukturunun inkişaf etdiriməsini və gücləndirilməsini təşviq edir. Belə ki, mühəndis işləri artıq başlanılmış Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Erzurum qaz kəmərlərinin istismara buraxıldıqdan sonra strateji məhsul axını üçün yeni istiqamətləri müəyyən ediləcəkdir.

Əlverişli qeostratejı mövqeyə malik olan və eyni zamanda açıq dənizə çıxışı olmayan ölkə kimi Azərbaycan Respublikası tranzit nəqliyyat dəhlizlərini inkişaf etdirməklə beynəlxalq bazarlardan uzaqlıq və təcrid olma kimi problemlərinin aradan qaldırıması istiqamətində müvafiq tədbirlər görür. Bu kontekstdə, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Böyük İpək Yolunun bərpasına yönəldilmiş Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması üzrə layihəsi xüsusilə vurğulanmışıdır.

- ECOSOC çərçivəsində gələcək əməkdaşlıq perspektivlərinə dair

-Məlum olduğu kimi, inkişaf etməkdə olan ölkələr kimi iqtisadiyyatları keçid dövrünü yaşayan ölkələrin də inkişaf səviyyəsi və prioritetləri də müxtəlifdir. Nəzərə alınsa ki, iqtisadiyyatları keçid dövrünü yaşayan Şərqi Avropa ölkələrinin bəziləri artıq Avropa İttifaqına üzv olmaq ərəfəsindədir, Azərbaycanın maraq və inkişaf məqsədləri 77-lər qrupu üzvlərinin mövqelərinə daha yaxındır və çox hallarda isə üst-üstə düşür, Azərbaycan Respublikası inkişaf etməkdə olan ölkələrin maraqlarını da BMT çərçivəsində müdafiə edə bilər.

-Rio Zirvə Toplantısı zamanı qəbul edilmiş və digər beynəlxalq konvensiyalara (BMT-nın İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası və ona əlavə olan Kioto Protokolu, Biomüxtəliflik üzrə BMT-nın Konvensiyası, Ozon Təbəqəsinin qorunması üzrə Monreal Protokolu və sairə) qoşularaq Azərbaycan ətraf mühitin qorunması ilə bağlı problemlərin aradan qaldırılmasını prioritet istiqamətlər kimi müəyyən etmişdir. Sadalanan beynəlxalq hüquqi aktlarda əks olunmuş problemlərin həllinin aktuallığını dərk edərək, Azərbaycan Respublikası seçildiyi təqdirdə, göstərilən məsələlərin ECOSOC-un gündəliyində ən yüksək yerdə durması üçün öz töhfəsini verəcəkdir.

Beləliklə səfər zamanı Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev Yuqoslaviya Federativ Respublikasının Xarici İşlər Naziri Qoran Svilanoviç, Zimbabvenin Xarici İşlər Naziri İ. S. G. Mudenqe, Marşal Adalarının Maliyyə Naziri Maykl Konelios, Svazilendin Xarici İşlər Naziri Abedniqo Nsthanqase, Myanmanın Xarici İşlər Naziri U. Win Aung , Bolqarıstanın Xarici İşlər Naziri Petko Draqanov, Kabo Verdenin Xarici İşlər Naziri Manuel İnosensio Sousa, Kubanın Xarici İşlər Naziri Felipe Perez Roque ilə görüşmüşdür.

**XİN, 04.09.02**

---

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin BMT Baş Assambleyasının 57-ci sessiyasında iştirakına dair**

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti bu ilin sentyabr ayının 13-də BMT Baş Assambleyasının 57-ci sessiyasının Ümumi Müzakilərində iştirak etrnək üçün Nyu-Yorka gəlmişdir.

Həmin gün, Vilayət Quliyev Finlandiyanın xarici işlər naziri Erkki Toumioka ilə görüşmüşdür. Görüş zamanı Azərbaycan Xarici işlər naziri ölkəmizin Finlandiya ilə hərtərəfli əməkdaşlığının inkişafına xüsusi əhəmiyyət verdiyini qeyd etmiş və dövlətlərarası iqtisadi əlaqələrin möhkəmləndirilməsinin zəruriliyini vurğulamışdır. Finlandiya xarici işlər naziri öz növbəsində, Azərbaycanın Cənubi Qafqaz bölgəsinin vacib ölkəsi olduğunu qeyd edərək, Azərbaycanla əməkdaşlığı genişləndirilməkdən ölkəsinin maraqlı olduğunu bildirmişdir.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sentyabr ayının 13-də Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev Fransanın xarici işlər üzrə dövlət naziri Reno Müzelye ilə görüşmüşdür.

Vilayət Quliyev Fransanın Azərbaycanla ənənəvi tarixi əlaqələrinə toxunaraq, Fransanın Minsk Qrupu çərçivəsində rolunu xüsusi ilə qeyd etmiş, Fransanın bölgədə baş verən proseslərdə daha fəal iştirak etməsinin

zəruri olduğunu bildirmiş, Fransanın Azərbaycanın iqtisadi həyatında fəal iştirak etdiyini vurğulamış və regionda sabitliyin, təhlükəsizliyin bərqərar olmasında regional münaqişələrin, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının vacibliyini qeyd etmişdir.

Fransanın dövlət naziri Azərbaycanın Cənubi Qafqazda mühüm ölkə olduğunu bəyan edərək ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da genişləndirilməsinə tərəfdar olduğunu bildirmiş, Azərbaycanla Fransa arasında əlaqələrin intensivləşdirilməsinin lüzumunu qeyd etmişdir.

Görüş qarşılıqlı anlaşma şəraitində keçmişdir.

Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev umumi müzakirələrin gedişi zamanı İsveçrə xarici işlər nazir Jozef Deis. Ukrayna xarici işlər naziri Anatoli Zlenko, Macanstan xarici işlər naziri Laszlo Kovaç ilə qısa müddətli görüşlər keçirmişdir.

Baş Assambleyanın ümumi müzakirələrində iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev bu ilin sentyabr ayının 14-də ABŞ dövlət katibinin müavini E.Consun iştirakı ilə keçirilən GUÖAM xarici işlər nazirlərinin görüşündə iştirak etmişdir. GUÖAM üzv ölkələrinin xarici işlər nazirləri təşkilatın iyulda Yaltada keçirilən GUÖAM sammitinin nəticələrini və qarşılıqlı əməkdaşlığın perspektivlərini müzakirə etmişlər. Nazirlər terrorizmə qarşı mübarizə, nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və effektivliyi, sərhədlərin və gömrük xidmətlərinin möhkəmləndirilməsi, ticarətin təşviq edilməsi sahələrinə dair layihələr haqqında fikir mübadiləsi aparmışlar. ABŞ dövlət katibinin müavini E.Cons göstərilən sahələrdə GUÖAM ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirmiş və ABŞ tərəfindən GUÖAM-ın əhatə etdiyi bölgədə ticarətin və nəqliyyatın inkişaf etdirilməsi üzrə təşəbbüs irəli sürmüşdür.

Sentyabrm 14-15-də xarici işlər naziri Vilayət Quliyev Xorvatiyanın xarici işlər naziri Tonio Pakula, Tailandın xarici işlər naziri Suraiart Sathiratrai, Portuqaliyanın xarici işlər naziri Antonio Martins da Kruz, Türkiyənin xarici işlər naziri Şükru Sina Gürel, Livanın xarici işlər naziri Mahmud Hammud, İspaniyanın xarici işlər naziri Ana Palasio, Laos Xalq Demokratik Respublikasının xarici işlər naziri Samsavad Lenqsavad, Andorranın xarici işlər naziri Culi Minov-Trikvel, Seneqal xarici işlər naziri Cek Tidine Qadio ilə görüşmüşdür.

Görüşlər zamanı Vilayət Quliyev Azərbaycanın həmin dövlətlərlə BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini bildirmiş, dövlətlər arasında ikitərəfli, regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsinin qarşılıqlı maraqlara uyğun gəldiyini vurğulamış, Cənubi Qafqaz regionunda cərəyan edən hadisələr, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabag münaqişəsinin həlli ilə bağlı Azərbaycan tərəfinin göstərdiyi səylər, dövlətimizin beynəlxalq terrorizmə qarşı apardığı mübarizə, habelə regionda həyata keçirilən böyük iqtisadi layihələr barədə ətraflı məlumat vermişdir. Görüşlərdə eyni zamanda beynəlxalq və regional problemlərə münasibətdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur. Azərbaycanın qeyd olunan ölkələrlə ikitərəfli münasibətlərinin inkişaf etdirilməsi məqsədilə müxtəlif səviyyəli qarşılıqlı səfər mübadilələrinin həyata keçirilməsi, hüquq-müqavilə bazasının genişləndirilməsinin vacibliyi xüsusilə vurğulanmışdır. Aparılan danışıqlar zamanı, Vilayət Quliyev BMT-nin

İqtisadi və Sosial Şurasına bu ilin oktyabrında keçiriləcək seçkilərdə Azərbaycanın namizədliyinin dəstəklənməsini xahiş etmişdir.

BMT Baş Assambleyasının 57-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev sentyabr ayının 15-də BMT-nin Baş Katibi Kofi Annanla görüşmüşdür.

BMT-nin BAŞ Katibinə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin səmimi salamlarını çatdıran nazir Vilayət Quliyev, BMT Baş Katibini yeni müddətə seçilməsi və Nobel sülh mükafatına layıq görülməsi münasibətilə təbrik etmişdir. Daha sonra, Vilayət Quliyev BMT Baş Katibinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlər barədə məlumat vermişdir. Nazir bildirmişdir ki, Azərbaycan torpaqlarını işğal edən Ermənistanın sülh danışıqlarında qeyri-konstruktiv mövqe tutması, güc movqeyindən çıxış etməsi, benəlxalq qurumların və dünya birliyinin bu münaqişəyə münasibətdə laqeyid mövqe tutması nəticəsində müsbət irəliləyişlər əldə etmək mümkün olmamışdır. Xarici işlər naziri daha sonra, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının dörd qətnamə qəbul etdiyini, lakln indiyə qədər həmin qətnamələrin kağız üzərində qaldıgını K.Annanın diqqətinə çatdırmış və BMT-nin öz qərarlarının yerinə yetirilməsinin vacibliyini vurğulamışdır. Son dövrlərdə Azərbaycanda baş verən proseslər haqqında Baş Katibi məlumatlandıran nazir bildirmişdir ki, bütün mövcüd çətinliklərə baxmayaraq, Azərbaycanda sivil və demokratik cəmiyyət quruculuğu sahəsində nailiyyətlər əldə olunur. Bu günlərdə Bakı-Ceyhan ixrac kəmərinin bünövrəsinin qoyulacağını xatırladan nazir, iqtisadi inkişaf sahəsində Azərbaycanın bölgədə öncül mövqe tutduğunu bildirmişdir. Lakin bununla yanaşı, erməni işğalının ağır nəticələrinin aradan qaldırılmamasının, 1 milyondan çox qacqının mövcüd olmasının Azərbaycanı ciddi çətinliklərlə üz-üzə qoyduğunu bildirmişdir. Daha sonra Vilayət Quliyev BMT Baş Katibinə Azərbaycanın beynəlxalq antiterror koalisiyasında fəal iştirakı barədə məlumat vermişdir.

BMT Baş Katibi K.Annan Azərbaycanın antiterror koalisiyasına verdiyi töhfəni yüksək qiymətləndirmişdir. O, Dağlıq Qarabağ münaqişəsini daima diqqət mərkəzində saxladığmı, Minsk Qrupu Həmsədrlərinin fəaliyyətini və Azərbaycan-Ermənistan Prezidentlərinin dialoqunu diqqətlə izlədiyini bildirmişdir. Daha sonra münaqişənin dinc yolla həllinin zəruriliyini vurğulamış və digər beynəlxalq qurumlarla birlikdə BMT-nin də bu prosesdə fəal iştirakını vəd etmişdir. K.Annan azərbaycanlı qaçqın və köçkünlərə yardım göstərilməsi ilə bağlı məsələlərin BMT səviyyəsində yenidən baxılmasının zəruriliyini etiraf etmişdir. O, 24 avqustda Azərbaycanda keçirilən referendumda BMT müşahidəçilərinin iştirak etmədiyinə görə təəssüfünü bildirmiş və yeni müstəqil dövlət kimi, Azərbaycanın demokratik inkişaf yolu ilə bundan sonra da irəli getməsinin zəruriliyini vurğulamışdır.

Azərbaycan Respublikasımn xarici işlər naziri Vilayət Quliyev keçən əsrin 60-90-cı illərində Bakının ali təhsil ocaqlarında onlarla Afrika ölkələrindən gəlmiş tələbələrin təhsil aldığını, bu gün onların öz ölkələrinin siyasi, iqtisadi, mədəni həyatlarında mühüm, aparıcı rol oynadığını bildirmiş və BMT-nin müvafiq yardımı ilə bü ənənənin bərpa edilməsinin məqsədəuyğunluğunu qeyd etmişdir. Təşəbbüsə müsbət münasibət bildirən

BMT Baş Katibi BMT və Azərbaycan rəsmiləri arasında bu istiqamətdə müvafiq danışıqların aparılması zəruriliyini vurğulamışdır.

Nazir Vilayət Quliyevin BMT Baş Katibinin Azərbaycana dəvət etməsinə cavab olaraq, baş katib gələn il Azərbaycana səfər edəcəyini bildirmiş, Azərbaycan Prezidenti cənab Heydər Əliyevə və Azərbaycan xalqına səmimi salamlarım çatdırmağı xahiş etmişdir.

Xarici işlər naziri Vilayət Quliyev sentyabr ayının 16-da "Afrikanın inkişafi üçün yeni tərəfdaşlıq" adlı BMT Baş Assambleyasının xüsusi sessiyasında iştirak etmiş və məruzə ilə çıxış etmişdir. Öz nitqində Vilayət Quliyev Afrika İttifaqının təsis edilməsini mühüm bir hadisə kimi qiymətləndirərək, üzv dövlətləri təbrik etmiş və-Afrika qitəsində daha möhkəm birliyin, həmrəyliyin yaranacağına ümidvar olduğunu bildirmişdir. Nazir həmçinin, 1960-cı illərdən etibarən Afrika ölkələrinə elm və təhsil sahələrində Azərbaycanın göstərdiyi yardımı qeyd etmiş və dövlətimizin bu əməkdaşlığı davam etdirməyə hazır olduğunu bildirmişdir.

Sentyabrın 17-də Nazir Vilayət Quliyev İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin xarici işlər nazirlərinin illik əlaqələndirici toplantısında iştirak etmişdir.

Toplantı islam aləmini narahat edən taleyüklü məsələlərə bir daha nəzər salmış, mövcüd münaqişələrin həlli yollarının axtarılması məsələlərini müzakirə etmişdir. Məruzə ilə çıxış edən Vilayət Quliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzərində ətraflı olaraq dayanmış, Ermənistanın münaqişənin həlli ilə bağlı qeyri-konstruktiv mövqeyinə toxunmuş, işğal olunmuş ərazilərdən terrorizm məqsədilə istifadə edildiyini bildirmiş, təşkilat tərəfindən qəbul edilmiş qətnamələrin əməli şəkildə həyata keçirilməsi məqsədilə üzv dövlətlərin fəallığının artırılmasının zəruriliyini vurğulamışdır. Nazir həmçinin, İslam dünyasında mövcud olan problemlərə, xüsusilə Yaxın Şərqdə baş verən son hadisələrə, İraqla bağlı vəziyyətə toxunmuşdur.

Toplantının sonunda İKT üzv dövlətləri Yekun Kommünike qəbul etmişlər. Kommünikedə BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məlum qətnamələrinin yerinə yetirilməsinə çağıran bənd öz əksini tapmışdır.

Azərbaycan xarici işlər naziri Vilayət Quliyev sentyabr ayının 17-də İqtisadi Əməkdaşlıq Təşkilatının xarici işlər nazirlərinin ənənəvi olaraq illik işgüzar görüşündə iştirak etmişdir. Görüş zamanı nazirlər bu ilin oktyabrında Istanbulda keçiriləcək təşkilatın Zirvə Toplantısına hazırlıq prosesi barədə fikir mübadiləsi aparmışlar.

Vilayət Quliyev həmin gün nazirlər səviyyəsində açıq dənizə çıxışı olmayan ölkələrin Nyu-Yorkda keçirilən 3-cü ənənəvi görüşündə iştirak etmişdir. Bu görüş zamanı 2003-cü ildə Qazaxıstanda açıq dənizə çıxışı olmayan tranzit inkişaf edən ölkələrin, habelə donor dövlətlərin və beynəlxalq maliyyə qurumlarının iştirakı ilə nazirlər səviyyəsində toplantıya hazırlıq barədə fikir mübadiləsi aparmışdır. Görüşdə məruzə ilə çıxış edən xarici işlər naziri açıq dənizə çıxışı olmayan ölkələrin və tranzit inkişaf edən ölkələrin nəqliyyat infrastrukturunun möhkəmləndirilməsində beynəlxalq ictimaiyyət tərəfindən konkret yardım strategiyasının işlənib hazırlanmasının vacibliyini vurğulamışdır. Vilayət Quliyev həmçinin Azərbaycanın 20 % ərazisinin

Ermənistan tərəfindən zəbt edilməsini qeyd edərək, münaqişə nəticəsində zərər çəkmiş dövlətlərə xiisusi diqqət yetirməyin zəruriliyinə toxunmuşdur.

Nazirlər 2003-cü ildə Qazaxıstanda keçiriləcək görüşdə açıq dənizə çıxışı olmayan ölkələrin və onlara qonşu ölkələrin tranzitinin inkişafı üçün qlobal fəaliyyət planının qəbul edilməsinin vacibliyini qeyd etmişlər. Görüş nəticəsində nazirlər kommünike qəbul etmişlər.

Sentyabrın 16-17 Vilayət Quliyev Yəmənin xarici işlər naziri Əbubəkr ƏI Kibri, Əlcəzairin xarici işlər naziri Əbdüləziz Belkhadem, Solomon adalarının xarici işlər naziri Aleks Bat, Vyetnamın xarici işlər naziri Nquen Du Niel, Paraqvay xarici işlər naziri Joze Rufinelli, Misir xarici işlər naziri Əhməd Mahir Əl-Səid, Belorus xarici işlər naziri Mixail Xvostov və Tanzaniyanın xarici işlər naziri Yakaya Kikvete ilə görüşmüşdür. Görüşlər zamanı dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, müxtəlif səviyyələrdə səfər mübadilələrinin, əlaqələrin intensivləşdirilməsinin vacibliyinə toxunulmuşdur. Nazir həmçinin, həmkarlarından Azərbaycanın BMT-nin İqtisadi və Sosial Şurasına dəstəklənməsi xahişi ilə müraciət etmişdir.

Görüşlər qarşırıqlı anlaşma şəraitində keçmişdir.

BMT Baş Assambleyasının 57-ci sessiyasında Azərbaycan heyətinə başçılıq edən xarici işlər naziri Vilayət Quliyev sentyabr ayının 18-də GUÖAM-ın xarici işlər nazirlərinin görüşündə iştirak etmişdir.

Görüş zamanı GUÖAM-ın inkişafı və əməkdaşlıq məsələləri, dövlət başçılarımn ikinci Yalta Zirvə Toplantısında əldə etdikləri razilaşmaların həyata keçirilməsi müzakirə edilmişdir. Nazirlər GUÖAM dövlətlərini terrorizmlə mübarizə, mütəşəkkil cinayətkarlıq, sərhədlərə nəzarətin gücləndirilməsi, nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəli fəaliyyətinin təmin edilməsi sahəsində əməkdaşlığın vacibliyini vurğulamışlar. Görüşün yekunu olaraq GUÖAM dövlətləri xarici işlər nazirləri tərəfindən Kommünike qəbul edilmişdir.

Həmin gün, GUÖAM xarici işlər nazirləri və RİO qrupunun (Argentina, Braziliya, Çılı, Kolumbiya, Kosıa-Rika, Dominikan Respublikası, Ekvador, Salvador, Qvatemala, Honduras, Meksika, Nikaraqua, Peru, Uruqvay, Venesuela, Paraqvay, Boliviya) xarici işlər nazirlərinin arasında görüş keçirilmişdir. Görüş zanıanı GUÖAM və RİO qrupu arasında ticarət, nəqliyyat, enerji və təhlükəsizlik sahəsində əməkdaşlığın qurulması yolları ilə bağlı fikir mübadiləsi aparmışlar. Həmçinin, gələcəkdə belə bir formatda görüşlərin keçirilməsi barədə razılıq əldə edilmişdir.

Sentyabr ayının 18-də V.Quliyev BMT-nin Inkişaf Proqramının Avropa və MDB üzrə regional Bürosunun Direktoru Kalma Mejey ilə görüşmüşdür. Görüş zamanı Azərbaycan və BMT-nin İnkişaf Proqramı arasında mövcud olan əməkdaşlıq, habelə Azərbaycanda məskunlaşmış qaçqın və məcburi köçkünlərin vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində konkret layihələrin işlənib hazırlanraasının vacibliyi barədə fıkir mübadiləsi aparılmışdır.

Hənin gün, Azərbaycan Respublikası xarici işlər naziri V.Quliyevin başçılıq etdiyi nüııayəndə heyəti Vaşinqtona işgüzar səfərə yola düşmüşdür.

**XİN, Mətbuat Mərkəzi xəbər verir, 18. 09.02**

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Brüssel şəhərinə işgüzar səfəri

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev sentyabrın 30-dan oktyabrın 3-dək Brüssel şəhərində işgüzar səfərdə olmuşdur.

Sentyabrın 30-da Vilayət Quliyev Avropa İttifaqı Şurasının xarici-siyasi, hərbi məsələlər üzrə baş idarəsinin direktoru Stefan Lehne ilə görüşmüşdür. Görüş zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi, yeni əməkdaşlıq yollarının tapılması istiqamətində fikir mübadiləsi aparılmışdır. Elə həmin gün xarici siyasət idarəsinin başçısı Avropa İttifaqı adından Azərbaycan, Ermənistan və Gürcüstanın xarici işlər nazirlərinin şərəfinə verilən işgüzar şam yeməyində iştirak etmişdir. Avropa İttifaqı Şurasının baş katibi, Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Xavyer Solananın, Avropa İttifaqı Komissiyasının komissarı, xarici əlaqələr üzrə komissar Kristofer Patenin iştirak etdikləri şam yeməyində Cənubi Qafqazda sabitlik və münaqişələrin həlli barədə müzakirələr aparılmışdır.

Oktyabrın 1-də Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq şurasının 4-cü iclası keçirilmişdir. İclasa Azərbaycan tərəfindən Vilayət Quliyev, Avropa İttifaqı tərəfindən Danimarkanın Avropa məsələləri üzrə naziri Bertel Harder sədrlik etmişlər.

Həmin gün nazir Vilayət Quliyev xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirmiş və onları maraqlandıran suallara cavab vermişdir.

Oktyabrın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev Rumıniyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Tasım Cəmili qəbul etmişdir.

Görüş zamanı səfir Tasım Cəmil ölkələrimiz arasında münasibətləri yüksək qiymətləndirmiş və Rumıniya Prezidenti İon İlieskunun oktyabr ayının 29-30-da Azərbaycana nəzərdə tutulmuş rəsmi səfərinin əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əmin olduğunu bildirmişdir.

Sonra səfir öz ölkəsinin xarici işlər naziri Mirçea Geoananın Rumıniyaya rəsmi səfər barədə dəvətini nazir Vilayət Quliyevə təqdim etmişdir.

Xarici siyasət idarəsinin başçısı Vilayət Quliyev Rumıniya ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın gələcək perspektivlərinə böyük əhəmiyyət verdiyini vurğulayaraq, qarşılıqlı surətdə faydalı əlaqələrin davam etdirilməsinə tərəfdar olduğunu söyləmişdir.

Sonra nazir Vilayət Quliyev və səfir Tasım Cəmil Rumıniyanın Prezidenti İon İlieskunun Azərbaycana nəzərdə tutulmuş rəsmi səfəri ilə bağlı bəzi məsələləri müzakirə etmişlər.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

**«AZƏRTAC», 03.10.02**

---

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Minsk Qrupunun həmsədrləri amerikalı Rudolf Perina, fransalı Hyuq Perne və rusiyalı Nikolay Qribkov ilə görüşü

2002-ci ilin oktyabr ayının 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev ATƏT-in Minsk Qrupunun həmsədrləri amerikalı Rudolf Perina, fransalı Hyuq Perne və rusiyalı Nikolay Qribkovu və onları müşaiyət edən şəxsləri qəbul etmişdir.

Görüş zamanı tərəflər həmsədrlərin regiona sonuncu səfərləri, bu ilin mart ayında Azərbaycan və Ermənistanın başçıları tərəfindən münaqişənin həlli istiqamətində xüsusi nümayəndələrin təyin edildiyi, onların Praqada keçirdikləri görüşü, Reykyavikdə Türkiyə, Ermənistan, Azərbaycan xarici işlər nazirlərinin, həmçinin bu ilin 14 avqust tarixində Sədərəkdə iki ölkə başçılarının keçirilən görüşlərini və s. məsələləri müzakirə etmişlər. Görüşdə qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər müzakirə edilmişdir.

**XİN, Mətbuat Mərkəzi xəbər verir, 09. 10.02**

---

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Nazirlər Şurasının 10-cu görüşündə iştirakına dair

Bu il dekabrın 5-9-da Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev ATƏT-in Nazirlər Şurasının 10-cu görüşündə iştirak etmək üçün Portuqaliyanın Porto şəhərində işgüzar səfərdə olub. Dekabrın 7-də görüşündə çıxış edən Azərbaycan naziri Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz ölkəsinin mövqeyini bir daha ATƏT-in üzvü olan ölkələrin diqqətinə çatdırmışdır. Vilayət Quliyev Ermənistanın tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağı və digər əraziləri işğal etdiyini, bu ərazilərdə etnik təmizləmə siyasəti apardığını, mədəniyyət abidələrini dağıtdığını, sülh danışıqlarında qeyri-konstruktiv mövqe tutduğunu, danışıqlar prosesində güc nümayişinə cəhd göstərdiyini qeyd etmiş və işğalçı dövlətin bu cəhdlərinin beynəlxalq hüququn norma və prinsiplərinə, ATƏT-in prinsiplərinə daban-dabana zidd olduğunu bəyan etmişdir. Xarici işlər naziri Ermənistanın «regional əməkdaşlıq» təkliflərini qətiyyətlə rədd edərək bölgədə sülh əldə olunmayana qədər Azərbaycanın işğalçı dövlətlə heç bir səviyyədə əməkdaşlıq qurmayacağını sammit iştirakçılarının diqqətinə çatdırmışdır. Ermənistanın Azərbaycanı hərbi quvvə tətbiqi ilə

hədələməsi, nəyin bahasına olursa-olsun işğalın nəticələrini rəsmiləşdirməyə çalışması da Vilayət Quliyevin çıxışında öz əksini tapmışdır. Nazir işğalçı dövlətin bu təşəbbüslərinə cavab verərək bildirmişdir: «Qoy Ermənistan heç bir illüziyaya qapılmasın - Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Xartiyasına əsaslanaraq öz ərazi bütövlüyünü mütləq təmin edəcəkdir. Bu bizim suveren hüququmuzdur və biz bu hüququmuzdan mütləq istifadə edəcəyik». Ermənistanın güya beynəlxalq təşkilatlarla, ilk növbədə isə ATƏT-in Minsk qrupu ilə sıx əlaqə saxladığını, Azərbaycanın isə bu qrupun fəaliyyətinə maneçilik törətdiyini iddia edən erməni nazirinin sərsəm bəyanatının cavabında nazir Vilayət Quliyev ATƏT çərçivəsində əldə olunmuş bütün razılıqların indiyə qədər məhz Ermənistan tərəfindən pozulduğunu konkret faktlarla sammit iştirakçılarının diqqətinə çatdırmışdır.

ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatı ilə əlaqədar olaraq Azərbaycanın xarici işlər naziri xüsusi təfsiredici bəyanatla çıxış etmişdir. Münaqişənin həllinin Lissabon prinsiplərini əsas götürən həmin bəyanat ATƏT-in rəsmi sənədi kimi qeydə alınmışdır.

**XİN, Mətbuat mərkəzi xəbər verir, 10.12.02**

---

## Digər görüşlər

10 sentyabr - Türkiyə Respublikasının Azərbaycandakı Səfiri Ünal Çevikgöz ilə görüş

12 sentyabr - İsrail Dövlətinin Azərbaycandakı Səfiri Eytan Naye ilə görüş

25 sentyabr - ATƏT-in Baş katibinin Baş polis muşaviri Riçard Monk ilə görüş

9 oktyabr - Böyük Britaniya Parlamentinin icmalar palatasının üzvü Con Makuilyan ilə görüş

16 oktyabr - Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Kuba Respublikasının Azərbaycanda akreditə olunmuş səfiri Karlos Palmarolu ilə görüş

16 oktyabr - Azərbaycanda səfərdə olan NATO-nun Avropadakı Birləşmiş Silahlı QüvvələrininAli Baş komandanı - ABŞ-ın Avropadakı Silahlı Qüvvələrinin komandanı general Cozef Ralston ilə görüş

17 oktyabr - Finlandiya Respublikasının Azərbaycanda akkreditə olunmuş fövqəladə və
səlahiyyətli səfiri Timo Lahelma və Xarici işlər nazirliyinin Şərgi Avropa, Mərkəzi Asiya və MDB ölkələri üzrə departamentinin rəisi x-m Terhi Hakalan ilə görüşü

21 oktyabr – Azərbaycanda səfərdə olan Ukrayna Xarici işlər nazirliyinin Dövlət katibi Yuriy Sergeyev ilə görüşü

22 oktyabr - Azərbaycanda səfərdə olan UNESCO- nun Azərbaycan, Belorusiya, Ermənistan, Rusiya Federasiyası, Moldova və Gürcüstandakı nümayəndəsi və bu ölkələri əhatə edən Moskva bürosunun direktoru Volfqanq Royter ilə görüş

13 noyabr - Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Azərbaycanda səfərdə olan Kanadanın dövlət katibi Qar Nutsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

19 noyabr - ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ross Uilson ilə görüşü

19 noyabr - Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Faiz Məhəmməd Xoso ilə görüş

28 noyabr - Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Qazaxıstanın ölkəmizdə yeni səfiri Andar Şukputov ilə görüşü

9 dekabr – İran İslam Respublikasının Mədəniyyət və İslam orientasiyası naziri Əhməd Məscid Cameyi ilə görüş

11 dekabr – Qazaxstan Respublikasının Xarici işlər nazirinin birinci muavini Kayrat Abuseyitov ilə görüş

11 dekabr – Hindistanın Azərbaycandakı səfiri Dinkar Xullar ilə görüş

12 dekabr – Rusiya Federasiyasının Azərbaycandakı Müvvəqəti işlər vəkili Stanislav Çernyavsk ilə görüş

26 dekabr – Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Çjan Siyun ilə görüş

# *ÇIXIŞLAR*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçıların VII Zirvə Görüşündə çıxışı**

**14 oktyabr 2002, İstanbul, Türkiyə**

-Hörmətli cənab Sədr!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Sizi səmimi qəlbdən salamlayıram. İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün bütün iştirakçılarına uğurlar arzulayıram. VII Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiklərinə və bizə göstərdikləri qonaqpərvərliyə görə Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Əhməd Necdət Sezərə və Türkiyə Respublikasının Hökumətinə minnətdarlığımı bildirirəm.

Dövlət başçılarının son görüşündən sonra bu təşkilatın üzvü olan Əfqanıstanda baş verən müsbət dəyişiklikləri alqışlayıram. Hörmətli Prezident cənab Kərzaiyə ölkənin və xalqın qarşısında duran problemlərin həllində uğurlar arzulayıram.

Bu ilin noyabr ayında Azərbaycanın, habelə Mərkəzi Asiya respublikalarının İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olmalarının 10 ili tamam olur. Fürsətdən istifadə edərək, bu əlamətdar tarix münasibətilə hamını təbrik edir, birgə səylərimizlə əməkdaşlığın daha da artmasını arzulayıram.

Hörmətli Sammit iştirakçıları!

İlk illərini yaşadığımız yeni əsrdə bəşəriyyətin qarşısında dünyada sülhün bərqərar olması və insanların firavanlıq, əmin-amanlıq şəraitində yaşaması kimi mühüm vəzifələr durur.

Bu vəzifələrin öhdəsindən gəlmək üçün dünya dövlətlərinin ayrı-ayrılıqda göstərdikləri səylərlə yanaşı, regional təşkilatların məqsədyönlü fəaliyyəti də zəruridir.

Bu səbəbdən İqtisadi Əməkdaşlıq Təşkilatının üzərinə böyük tarixi missiya düşür. Güman edirəm ki, Sammitdə bizim qəbul edəcəyimiz qərarlar yeni əsrdə regionumuzun siyasi-iqtisadi və mədəni-mənəvi inkişafına öz müsbət təsirini göstərəcək, onun əsas istiqamətlərini müəyyən edəcəkdir.

Bundan başqa, Sammitin qərarları regionun sürətli tərəqqisinə yardım etməli, qloballaşma prosesində onun daha fəal iştirakını təmin etməlidir. Biz təşkilatın fəaliyyətinin əsas istiqamətlərini regionda iqtisadi inteqrasiyanın hüquqi bazasının yaradılmasında və icra mexanizminin hazırlanmasında görürük.

Bu gün İqtisadi Əməkdaşlıq Təşkilatının qarşısında duran əsas vəzifələrdən biri də dünya miqyasında aparılan yoxsulluğun azaldılması işinə öz töhfəsini verməkdir. 350 milyona yaxın insanın yaşadığı regionu əhatə edən İqtisadi Əməkdaşlıq Təşkilatı yoxsulluğun azaldılması üçün xüsusilə dövlətlərarası əməkdaşlığı inkişaf etdirməli və birgə layihələrin həyata keçirilməsini təşviq etməlidir.

Bu məqsədlə yeni iş yerlərinin açılması üçün regional investisiya layihələrinin təşviqini və ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşlarının həvəsləndirilməsini zəruri hesab edirik.
Azərbaycan Respublikası adından deyə bilərəm ki, ölkəmizə xarici investisiyaların cəlb olunması üçün son illərdə mühüm işlər aparılmış, müvafiq hüquqi baza yaradılmış, bazar iqtisadiyyatına keçid və dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli addımlar atılmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1994-cü ildən bu günə kimi Azərbaycan iqtisadiyyatına təxminən 10 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur.

Bu gün ölkəmizdə xarici investorlar üçün lazımi investisiya mühitinin yaradıldığını tam əminliklə deyə bilərəm və iş adamlarını Azərbaycanda investisiya layihələrinin həyata keçirilməsində fəal iştirak etməyə dəvət edirəm.

Məlum olduğu kimi, Azərbaycan artıq Şimal-Cənub nəqliyyat dəhlizinə qoşulmaq haqqında qərar qəbul edibdir. Bu ilin may ayında İran İslam Respublikasına səfərim zamanı mən əməkdaşlığımızın bu mühüm sahəsini İranın hörmətli Prezidenti ilə müzakirə etmişəm və ümidvaram ki, bu, İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində də işbirliyinə öz müsbət töhfəsini verəcəkdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının regional əməkdaşlıq sahəsində ciddi uğurlar əldə etməsi üçün hər cür şərait var. Xalqlarımızın tarixi yaxınlığı, din, bir sıra hallarda isə dil ümumiliyi, ölkələrimizdəki bənzər cəhətlər və mədəni-mənəvi bağlılıq bunun üçün etibarlı zəmin yaradır.

Yarandığı dövrdən bu günədək təşkilatın fəaliyyətinin genişləndirilməsi və qarşısında duran məsələlərin həlli üçün bir sıra sənədlər imzalanmış və müvafiq qurumlar yaradılmışdır. Regionun iqtisadiyyatının inkişaf istiqamətlərini müəyyən etmək, iqtisadi təhlillər aparmaq və birgə layihələr hazırlamaq üçün təşkilatın iqtisadi təhqiqatlar mərkəzinin yaradılması zəruriyyəti meydana çıxmışdır. Azərbaycanın böyük məmnuniyyətlə belə bir mərkəzə ev sahibliyi etməyə hazır olduğunu bildirirəm.

Hörmətli Sammit iştirakçıları,

Bizim ölkəmiz, eləcə də region dövlətləri üçün Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinin işə düşməsinin mühüm əhəmiyyəti olmuşdur. Bu il sentyabrın 18-də isə Bakıda region üçün çox böyük əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşa edilməsinin təməlatma mərasimi keçirilmişdir. Mərasimdə Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze və Azərbaycan Respublikasının Prezidenti iştirak etmişlər.

Bu əlamətdar hadisə Azərbaycanın yeni neft strategiyası əsasında 1994-cü ildə Xəzərin Azərbaycan sektorunda neft yataqlarının istismarı məqsədi ilə imzalanmış ilk hasilatın pay bölgüsü müqaviləsi – “Əsrin müqaviləsi” ilə əsası qoyulmuş nəhəng layihənin nəticəsidir.

Bu gün Xəzər dənizi hövzəsində neft və qaz ehtiyatlarının işlənilməsi sahəsində böyük işlər aparılır. Lakin regionun enerji ehtiyatlarından daha səmərəli istifadə edilməsi Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmasını tələb edir.

Bu sahədə son illərdə çox işlər görülür. Bunlardan Xəzəryanı dövlətlərin ilk dəfə bir araya gəldiyi Aşqabad sammitinin çox böyük əhəmiyyəti olmuşdur. Mən bu ilin may ayında İranda olarkən Prezident cənab Xatəmi ilə də bu sahədə səmərəli danışıqlar apardığımızı qeyd edirəm. Bundan başqa, bizim Rusiya və Qazaxıstanla imzaladığımız sazişlər də Xəzərin statusu ilə bağlı məsələnin həll olunmasına yardım edəcəkdir.

Cənab Sədr,

Hörmətli Sammit iştirakçıları!

Təəssüf hissi ilə qeyd etməliyəm ki, bəşəriyyət insanlıq üçün firavanlıq və əmin-amanlıq gətirən bütün bu işlərlə yanaşı, yeni minilliyə köhnə minillikdən miras qalmış bir sıra problemlərlə də qədəm qoymuşdur. Bunlardan ən təhlükəlisi etnik münaqişələr və terrordur.

2001-ci ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarında törədilmiş dəhşətli terror hadisəsi əslində tərəqqipərvər bəşəriyyətə ciddi bir siqnal oldu. Bir necə saat ərzində bütün dünya terrorun nə qədər dəhşətli, bəşəriyyət və insanlıq üçün nə qədər təhlükəli və faciəli olduğunu müşahidə etdi.

Bir çox dövlətlər üçün bu dəhşətli faciə yeni bir hadisə idi. Lakin bizim ölkələrimizin bir çoxunda etnik münaqişələrin və dinc insanlara qarşı çevrilmiş terrorçuluğun, təcavüzkar separatçılığın və şovinizmin nə olduğunu çox yaxşı bilirlər. Minlərlə insan bunun ağrı-acılarını öz şəxsi həyatlarında yaşayıb və bu gün də yaşamaqdadır.

Etnik münaqişələrdən və terrordan zərər çəkən bir dövlət olaraq, Azərbaycana bu münaqişələr daha yaxşı tanışdır. Odur ki, biz dərhal antiterror mübarizəsində ölkəmizin bütün imkanlarından istifadə etməyi, bu dəhşətli faciə ilə mübarizəyə hazır olduğumuzu birmənalı bəyan etdik.

Biz neçə ildir ki, Azərbaycanda etnik separatizm və bunun nəticəsində yaranmış terrorçuluqla təkbaşına mübarizə aparırıq. Qonşu Ermənistanın Azərbaycana qarşı 14 il əvvəl əsassız ərazi iddiaları ilə başladığı hərbi təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma yurdlarından zorla çıxarılaraq qaçqın və köçkünə çevrilmişdir. Bu münaqişə nəticəsində 35 min azərbaycanlı öz torpaqlarında həlak olmuş, yaxud qətlə yetirilmişdir. İşğalın nəticələri ölkəni ciddi iqtisadi və sosial problemlərlə üz-üzə qoymuşdur.

Biz dəfələrlə bəyan etmişik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dinc yolla həll olunmalıdır. Biz müharibə istəmirik. Biz sülh tərəfdarıyıq. Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur.

Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir. Lakin Ermənistanla belə əməkdaşlıq

yalnız və yalnız Dağlıq Qarabağ münaqişəsi həll olunduqdan, Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra mümkün ola bilər.

Hesab edirik ki, terrora qarşı mübarizə bütün dövlətlərin və beynəlxalq təşkilatların əlbir fəaliyyətini tələb edir. Bununla bağlı düşünürəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı da üzərinə düşən tarixi vəzifəni yerinə yetirməli və bundan sonra da ümumbəşəri dəyərlər uğrunda mübarizəni davam etdirməli, bu təşkilatın üzvü olan Azərbaycanın haqq işinə dəstək verməlidir.

Hörmətli Sədr!

Hörmətli Sammit iştirakçıları!

Sonda bir daha əmin olduğumu bildirmək istəyirəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşü yeni əsr üçün regionun inkişafının başlıca istiqamətlərini müəyyən edəcək və qarşımızda duran əsas maneələrin aradan qaldırılmasında, xalqlarımızın və dövlətlərimizin daha da yaxınlaşmasında mühüm addım olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Türkiyənin iş adamları ilə görüşdə**
**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı**

**15 oktyabr 2002, İstanbul, Türkiyə**

- Türkiyənin 9-cu Prezidenti, əziz dostum-qardaşım, hörmətli Süleyman Dəmirəl!

Hörmətli nazirlər!

Dəyərli iş adamları!

Xanımlar və cənablar!

Sizin hamınızı səmimi qəlbdən salamlayıram və Türkiyədə başqa bir məsələ ilə əlaqədar olduğum halda burada, "Çırağan" sarayında Türkiyənin dəyərli iş adamları ilə görüşümdən həddən ziyadə məmnun olduğumu bildirmək istəyirəm.

Bilirsiniz ki, mən İƏT təşkilatının zirvə görüşündə iştirak etmək üçün Türkiyəyə, İstanbula gəlmişəm. Biz dünən çox iş gördük. Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərin sədrliyi ilə İƏT-in VII zirvə görüşü öz işini apardı və tamamladı. Türkiyə hökuməti İƏT-in növbəti zirvə görüşünə sədr seçildi, İƏT-ə başçılıq edəcəkdir. Ümidvaram ki, Türkiyə Cümhuriyyəti İƏT-ə çox böyük önəm verdiyinə görə, təşkilat gələn illərdə ölkələrimiz arasında əlaqələrin inkişaf etməsində yeni uğurlar qazanacaqdır.

Mən ayrıca olaraq, hörmətli Prezident Əhməd Necdət Sezərlə görüşdüm, Türkiyə-Azərbaycan əlaqələri haqqında və onun daha da inkişaf etdirilməsi haqqında geniş söhbət apardıq. Hər dəfə olduğu kimi, bu dəfə də bizim görüşümüz dostluq, qardaşlıq, mehribanlıq şəraitində keçdi. Mən bu işləri qurtarandan sonra yeni bir işə başlamışam. Burada siz mənə yardımçı olduğunuza görə təşəkkür edirəm.

Mən buraya gələrkən bildirmişdim ki, Türkiyənin iş adamları ilə görüşmək arzusundayam. Keçən dəfə Prezident Əhməd Necdət Sezər Bakıda olarkən danışdığım zaman ona bildirmişdim. Mənim bu arzum qəbul edilmişdir və çox məmnunam ki, bu işin təşkilatçıları, bizim gözəl insanlarımız, dostlarımız çox çalışıblar, yaxşı bir görüş hazırlayıblar.

Burada yaxşı çıxışlar söylənildi. Hörmətli Süleyman Dəmirəl hər dəfə olduğu kimi çox geniş, dərin mənalı, çox əhəmiyyətli çıxış etdi. Əziz dostum, Azərbaycan haqqında, Azərbaycanın artıq 11 ildir keçdiyi əziyyətli müstəqillik yolu haqqında, bu yolda əldə etdiyimiz uğurlar haqqında, şəxsən mənim fəaliyyətim haqqında xoş sözlərə görə, izahatlara görə Sizə təşəkkür edirəm. Bildirmək istəyirəm, indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan öz dövlət müstəqilliyini qoruyacaq, saxlayacaq, möhkəmləndirəcək, inkişaf etdirəcək və demokratik, hüquqi, dünyəvi, güclü bir Azərbaycan olacaqdır.

Bu yolda biz həmişə dost, qardaş Türkiyə Cümhuriyyəti ilə, türk xalqı ilə bir yerdə olmuşuq. Azərbaycan dövlət müstəqilliyini elan edəndən sonra Türkiyə ilk olaraq bu müstəqilliyi tanımışdır. Biz yenicə

doğulmuş bir cocuq, bəbə kimi hələ ayaqlarımızı ata  bilmirdik, ancaq Türkiyə bizim qolumuzdan tutmuşdu, bizə yardım etmişdi və öz təcrübəsini bizə göstərmişdi. Mən bunu dəfələrlə demişəm, böyük Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yol, əldə etdiyi nailiyyətlər Azərbaycan üçün həmişə örnək, nümunə olubdur. Biz çalışmışıq ki, bundan səmərəli istifadə edək və ölkəmizi yeni bir müstəqil yol ilə aparaq. Biz buna nail ola bilmişik.

Burada hörmətli Süleyman Dəmirəl dedi, bizim qarşımızda çox çətinliklər də olmuşdur, çevriliş cəhdləri də olmuşdur, Azərbaycanda vətəndaş müharibəsi də olmuşdur. Azərbaycan parçalanırdı. Ancaq xalqımız öz iradəsini göstərdi və biz bunların hamısının qarşısını aldıq. İndi Azərbaycan rahat bir yola çıxıbdır. Doğrudur, bizim problemimiz var. Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycan torpaqlarının işğal olunması problemi var. Bu, başqa bir problemdir. Amma belə bir ağır problemi olmağına baxmayaraq, Azərbaycan böyük iqtisadi inkişaf yoluna çıxmış və inkişaf etmişdir.

Burada bizim Türkiyə tərəfindən çıxış edən dostlarımız, bizim iqtisadi inkişaf nazirimiz və xüsusən  hörmətli Süleyman Dəmirəl əldə etdiyimiz nailiyyətlər haqqında danışdılar. Mən bu barədə vaxt almaq istəmirəm. Ancaq onu demək istəyirəm ki, biz çox çətin bir şəraitdə nailiyyətlər əldə etmişik.

İndi Azərbaycan inkişaf edən bir ölkədir. İqtisadiyyatı inkişaf edir. Təbiidir, Azərbaycanın böyük problemləri var. Birincisi, Dağlıq Qarabağ problemidir. Torpaqlarımızın 20 faizi işğal altındadır. 8 ildən çoxdur ki, atəşkəs şəraitində yaşayırıq.  Hələ ki, müharibə yoxdur. Ancaq sülh, barış da yoxdur. Bir milyondan artıq vətəndaşımız qaçqındır, köçkündür, çadırlarda yaşayır. Onlar işləyə bilmirlər, iş yerləri yoxdur. Biz onları yaşatmalıyıq. Amma çadırda yaşamaq nə qədər çətindir- bunu bilirsiniz. İki-üç il bir hadisə ilə əlaqədar çadırda yaşamaq olar.  Amma 10-11 il çadırda yaşamaq... İndi bizdə uşaqlar var, çadırlarda doğulub, böyüyüb, çadırda məktəbə gedirlər. İnsanlar çadırda evlənir, ailə qururlar. İnsanlar çadırda həyatdan gedirlər. Bilirsiniz, nə qədər ağır, çətin şəraitdə yaşayırlar. Ancaq dözürlər. İnanırlar ki,  məsələ sülh yolu ilə həll olunacaqdır.

İndi vaxt yoxdur, bu, böyük bir məsələdir, bu barədə demək istəmirəm. Bu, çox çətindir. Ermənistan bizim torpaqlarımızı işğal etdiyinə görə Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəyir. Biz isə öz qədim torpaqlarımızı itirə bilmərik. Onlar işğal etdikləri torpaqları azad etmirlər. Dünyada bir ölkə yoxdur, bir beynəlxalq təşkilat yoxdur ki, bu məsələni ədalətlə müzakirə etsin, desin ki, sən günahkarsan, sənin başqa ölkənin torpağını işğal etməyə haqqın yoxdur, sən buradan çıxmalısan.

Prezident kimi mənə deyirlər ki, gedin Ermənistanın Prezidenti ilə danışın, razılaşın. Bunu Amerika da deyir, Rusiya da deyir, Fransa da deyir, ATƏT də deyir, Türkiyə də deyir, Avropa Birliyi də deyir. Hamısı deyir ki, onlarla razılaşın, hansı razılığı əldə etsəniz, biz də ona razı olacağıq, bu işdə sizə kömək edəcəyik. Mən razılaşa bilmirəm. Çünki niyə? O, torpaqları işğal edib məndən tələb edir. Əvvəla, onun tələbini yerinə yetirə bilmirəm. Bəs nə olsun? Müharibə edək?! Artıq bizim xalqımızda müharibə əhval-ruhiyyəsi qalxır - gedək müharibə edək, vuruşaq, ya torpaqlarımızı azad edək, ya da məhv olaq. Amma bu da doğru yol deyildir.

Baxmayaraq ki, bizim xalqımızda belə fikirlər artıq çox geniş yayılıbdır. Mən bir Cümhur başqanı kimi bunu məqbul hesab etmirəm, bunun qarşısını alıram. Amma təsəvvür edin, belə şəraitdə yaşamaq nə qədər çətindir.

Bütün bunlara baxmayaraq, Azərbaycan inkişaf edir. Bu inkişafda da Türkiyə ilə bizim iqtisadi əlaqələrimiz həmişə xüsusi yer tutubdur. İlk illərdə biz özəl sektor nədir bilmirdik, başqa şeylər bilmirdik. Biz 70 il kommunist rejimində yaşamışıq. Hər şey ümumi, dövlətin idi, şəxsi mülkiyyət ola bilməzdi. Ona görə də biz bir neçə il ağır fikirləşmə yolu ilə gedirdik. Çoxları deyirdi ki, yox, onu dəyişdirmək olmaz. Onu dəyişdirsəniz, hər şey batacaqdır. Mən isə düşünürdüm, yox, risk etmək lazımdır, dəyişdirmək lazımdır. Hələ 1995-ci ildə mən torpaq islahatı keçirdim. Ondan iki il sonra torpağı kəndlilərə payladım, bütün heyvanları payladım. Kolxozları, sovxozları dağıtdım. İlk il çətinliklər oldu. İndi bizdə aqrar sektor, kənd təsərrüfatı çox inkişaf edibdir. Biz özümüzü taxılla təmin edirik. Əti, südü, başqa şeyləri əvvəllər Rusiyadan gətirirdik. İndi hamısı Azərbaycanda var. Azərbaycanın kəndində özəl sektor inkişaf edir.

Biz özəlləşdirmə keçirdik. Ticarət tamamilə özəl sektordadır. İndi Azərbaycanda ticarət çox gözəldir. Sizin mağazalarda olan şeyləri gedib orada da ala bilərsiniz. Sizdə nə yoxdursa, gəlin oradan alın. Ticarət özəl oldu, nəqliyyat da belə oldu. Qısa bir zamanda böyük dəyişikliklər əldə etdik.

Süleyman bəy elektrik şəbəkəsindən danışdı. Burada "Barmek" şirkətinin rəhbəri oturubdur. Siz bəzi şeyləri bilmirsiniz. Biz elektrik enerjisini hasil edirik, insanlara veririk, pulunu ala bilmirik. Biz özümüz 6 milyard kubmetr qaz hasil edirik. 4 milyard kubmetr Rusiyadan alırıq. Əhaliyə, insanlara qaz veririk, amma pulunu ala bilmirik. Pulunu vermirlər. İndi təsəvvür edin, biz dövləti nə cür saxlayırıq. Çox sağ olsun, Hüseyn Arabil gəldi dedi ki, mən bu ağır işi götürəcəyəm. Mən dedim, bu, çox ağırdır, ola bilər, sonra qaçdı. Amma hələ ki, qaçmayıbdır və görürəm, hələ qaçmayacaqdır. "Bakıelektrikşəbəkə"ni ona verdik. Çox çətin işlədir. Ancaq indi satılan enerjinin 49 faiz dəyəri ödənilir. Amma biz 8-10 faiz yığa bilirdik.

İndi "Sumqayıtelektrikşəbəkə"ni götürübdür. Sonra nə iş görəcəksən, 3 ildə 80 faizə çatdıracaqsan? Çox yaxşı, təşəkkür edirəm.

Bax, budur, Türkiyə şirkətinin, türk iş adamının Azərbaycanda ölkəmiz üçün gördüyü çox önəmli iş. Bəlkə Türkiyə iş adamlarının Azərbaycanda indiyə qədər gördüyü işlərdən ən önəmlisi budur. Çünki bilirsiniz, nə qədər elektrik enerjisi işlədirik. Bakı böyük şəhərdir. İki milyon əhalisi var. Bizdə metropoliten işləyir, başqa şeylər var. Nə qədər elektrik enerjisi gedir, bizim nə qədər vəsaitimiz gedirdi. İndi isə büdcəyə nə qədər vəsait gələcəklər. Güman edirəm ki, belə iş adamları Azərbaycana bundan sonra daha da çox gələcəkdir.

İndiyə qədər Azərbaycana gələn adamlar çox iş görüblər. Onların hamısına təşəkkür edirəm. Əgər bu işlər olmasaydı, indi Azərbaycanda, məsələn, inşaat, ticarət və digər şeylər bu səviyyədə ola bilməzdi. Ancaq mən istərdim ki, Türkiyənin iş adamları gəlib istehsala sərmayə qoysunlar. Bir şey istehsal edək. Mən çox məmnunam ki, hörmətli Sabançı bizim bu məclisdədir. Mən buraya çox gəlib-gedirəm, amma onu az görürəm. Onu görməyə çox çalışıram. Ancaq bir dəfə deyirlər, Sabançı Amerikadadır, bir dəfə deyirlər İngiltərədədir,

mən onu görə bilmirəm. İndi Allah nəsib edib ki, burada görüşmüşük, bir yerdə oturmuşuq. Amma o, Azərbaycana heç ayağını qoymayıbdır.

Hörmətli Sabançı, indi mən bu insanların yanında, televiziyanın qarşısında sizə müraciət edirəm. Birincisi, siz mənim şəxsi qonağım, dostum kimi, Azərbaycana gəlin. Azərbaycana baxın, görün. Heç bir iş görməsəniz də gəlin, orada görünün.

Beləliklə, indi Türkiyə-Azərbaycan iqtisadi əlaqələri bu yerə gəlib çatıbdır. Biz bu mərhələyə gəlmişik. O xırda işlər, məsələn, restoranlar, mağazalar, inşaatdır – bunlar hamısı çox yaxşıdır. Bizə çox yardım etdi və hərtərəfli mənfəət götürdük. İş adamları da mənfəət götürdü, Azərbaycan da bir çox şeyləri öyrəndi. Bizim inşaatçılar Türkiyədən gələn inşaat şirkətlərindən çox şey öyrəndilər. İndi öyrəniblər, özləri şəhərdə 20 mərtəbəli evlər tikirlər. Bu, böyük hadisədir və bizim əməkdaşlığımızın, dostluğumuzun nəticəsidir. Amma bundan sonra daha geniş iş görmək lazımdır.

Bizim neft sektorunda gördüyümüz işlər haqqında burada danışıldı. Çox məmnunam ki, hörmətli Süleyman Dəmirəl də bu barədə danışdı və nə qədər əhəmiyyətli olduğunu dedi. Ancaq bir neçə kəlmə demək istəyirəm.

Mən 1994-cü ildən Türkiyəyə gəlirəm. Türkiyəyə hər dəfə gələndə hamı mənə sual verirdi: Bakı-Ceyhan, Bakı-Ceyhan. Mən özüm də Bakı-Ceyhanı düşünürdüm. Amma bilirdim ki, Bakı-Ceyhanı həyata keçirmək nə qədər çətin işdir. İndi isə Bakı-Ceyhanı soruşmurlar. Heç kəs soruşmur. Çünki Bakı-Ceyhan var.

Ancaq bilməlisiniz, mən Bakı-Ceyhan üçün çox ağır yollardan keçdim. Bağışlayın, bəlkə də yükün çoxu mənim üstümə düşdü. Mən idim bu işi aparan, mən idim bu işi görən. Mən Amerika, Avropa neft şirkətlərinə sübut etməliydim ki, Bakı-Ceyhanı həyata keçirmək lazımdır. 1994-cü ildə "Əsrin müqaviləsi"ndə bu, göstərilmişdi, imzalanmışdı. Amma biz sonra Bakı-Supsa ixrac boru xəttini tikdik. 1999-cu ildən indiyə qədər Bakı-Supsa ilə təxminən 25 milyon ton neft ixrac olunubdur. Şirkətlər dedilər ki, Bakı-Ceyhan çox baha olacaq, çətin olacaq, gəlin, Bakı-Supsanı genişləndirək və nefti Bakı-Supsa vasitəsilə göndərək. Mən dedim, olmaz.

Hörmətli Süleyman bəylə danışdım, dedim siz bildirin ki, tankerləri Bosfordan daha buraxmayacaqsınız. Yoxsa Bakı-Supsanı genişləndirəndə yenə də Bosfordan keçməlidir. Bosfordan nə qədər keçər? Bizim məqsədimiz o idi ki, bu boru xətti Türkiyədən keçsin, Ceyhana getsin, tankerlər daha dənizdən keçməsin, Bosfordan keçməsin, gəlib nefti Ceyhandan götürsünlər. Mənim bu mübarizəm həmin Qərb şirkətləri ilə, hansılar ki, pulu, hər şeyi qoyurlar, onlarla idi. Onlar öncə deyirdilər ki, olmaz. Bakı-Novorosiysk kəməri var, oradan nəql edək. Ondan da qurtardıq, bundan da qurtardıq. Sonra dedilər ki, pul yoxdur. Pul da tapdıq, filan etdik və 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə Ankarada bəyannaməni imzaladıq. Türkiyə Cümhuriyyəti, Azərbaycan Cümhuriyyəti, Gürcüstan, Qazaxıstanı da qatdıq və bəyannamə imzalandı. Ondan sonra, 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbuldakı zirvə görüşündə Cümhur başqanı Süleyman Dəmirəl, Cümhur başqanı Edurad Şevardnadze, Cümhur başqanı Nursultan Nazarbayev, Cümhur başqanı Heydər Əliyev

son olaraq sazişi imzaladıq. Amerikanın Cümhur başqanı Bill Klinton da ona öz imzasını qoydu. Ondan sonra biz bu işləri apara bildik.

Artıq indi inşaata başlamışıq. Mən çox mənunam ki, "Botaş" şirkəti Türkiyədə inşaatı başlayıbdır. Bizim şirkətlər də - həm Azərbaycan ərazisində, həm də Gürcüstan ərazisində işə başlayıbdır. Düşünürəm ki, 2004-cü ildə olmasa da, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan tamam olacaq və biz Ceyhan limanında gedib Azərbaycan neftinin oraya çatmasını görəcəyik.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri barədə. Öncə heç kəsin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər təbii qaz olacaq və biz onu çıxaracağıq. Amma bu da oldu və anlaşmaları yenə burada imzalamışıq. İş gedir. Bir az problemlər var, bir balaca gecikir. Türkiyə tərəfdə problemlər var. Bizim şirkətlərdə də, - yəni bizim deyəndə, oradakı şirkətlərin hamısı Avropanın, Amerikanın şirkətləridir, - problemlər var. Ancaq onları da həll edəcəyik və güman edirəm ki, 2006-cı ildə də "Şahdəniz" qaz yatağından qaz Ərzuruma çatacaqdır və Türkiyə ondan istifadə edəcəkdir.

Biz bu qədər böyük işlər görmüşük. Bunlar təkcə iqtisadi məsələ deyildir. Bunlar bizim ölkələrimizi polad tellərlə bir-birinə bağlayır. Bu, bizim təhlükəsizliyimizi təmin edir. Bu, bizim daim bir yerdə olduğumuzu göstərir. Bakı-Tbilisi-Ceyhan 10, 20 il üçün deyil, 100 illər üçündür. Bilin ki, Xəzər dənizində neft hələ XXII əsrədək olacaqdır. İndi görün, nə qədər vaxt üçün biz belə layihələr hazırlamışıq. Ona görə bizim bu işlərimiz, təbiidir ki, başqa işlərimiz də çox yüksək qiymətə layiqdir. Ancaq bu işlər böyük işlərdir.

Biz çalışmalıyıq ki, hər bir iş adamına, Türkiyənin iş adamına Azərbaycanda imkan yaradaq ki, gəlib iş görsünlər. Amma indi rəqabət daha da artıbdır. Əgər beş il bundan qabaq belə bir rəqabət yox idisə, indi rəqabət var. Çünki iş görmək istəyənlər çoxdur. Şərq ölkələrindən, Qərbdən gələnlər çoxdur. Azərbaycanın öz yerli iş adamları artıq yaranıbdır, onlar iş görürlər. Bu rəqabət nəticəsində iş almaq lazımdır. Mən istərdim ki, Türkiyənin iş adamları bunu da nəzərə alsınlar.

Bilirsiniz, Türkiyə ilə Azərbaycanın dostluğu, qardaşlığı ancaq iqtisadi əlaqələrlə bağlı deyildir. Bizim dostluğumuzun, qardaşlığımızın dərin kökləri var. Bizim xalqlarımız qədimdən birdir, bəli, biz bir millət, iki dövlətik. Ona görə də bizim dərdimiz birdir, bizim sevincimiz birdir, qəmimiz, kədərimiz birdir, bayramımız birdir- hamısı birdir.

Türkiyə qüdrətli bir dövlətdir. Dünyanın böyük dövlətlərindəndir. Türkiyə demokratik dövlətdir və demokratiyanı müsəlman aləmində inkişaf etdirən ilk dövlətdir. Türkiyənin böyük iqtisadi potensialı var. Türkiyənin güclü ordusu var. Türkiyə bizim üçün dayaqdır, arxadır. Mən inanıram ki, Türkiyə bundan sonra da böyük öndər Atatürkün yolu ilə gedərək, böyük nailiyyətlər əldə edəcəkdir. Əmin ola bilərsiniz ki, Azərbaycan daim Türkiyənin yanında olacaqdır. Azərbaycan bir müstəqil dövlət kimi demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edəcəkdir, inkişaf etmiş dövlətlər səviyyəsinə qalxacaqdır. Bu da Türkiyə-Azərbaycan dostluğunu bir-birinə daha da bağlayacaqdır. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, dönməzdir, sarsılmazdır.

Yaşasın, Türkiyə Cümhuriyyəti!

Yaşasın, türk xalqı!

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun Praqa Zirvə görüşündəki çıxışı

**22 noyabr 2002, Praqa, Çex Respublikası**

Hörmətli cənab Sədr,

Hörmətli həmkarlar,

Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək, dünya nizamına qarşı həmlələr edir, ekstremizm, təcavüzkar millətçilik və davakar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə və dəyişməyə cəhd göstərir.

Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa çəkilir. 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlar ilə birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik. Təhlükələrin xarakteri və miqyasları NATO/Avroatlantika Tərəfdaşlıq Şurası çərçivəsində birgə və hərtərəfli mübarizə üçün hər cür məhdudiyyətləri, o cümlədən də coğrafi məhdudiyyətləri aradan qaldırır.

Lakin bu təhlükə 11 sentyabrdan əvvəl də mövcud idi. Terrorizm və onunla bağlı beynəlxalq cinayətkarlıq ocaqları münaqişə zonalarında və qanuni hakimiyyətlər tərəfindən nəzarət olunmayan ərazilərdə formalaşır. Bu ərazilər isə təcavüzkar millətçilik və zorakı separatizm siyasətindən doğan müharibələr nəticəsində meydana çıxır. Bu mənada Cənubi Qafqaz ən çox narahatlıq doğuran regiondur.

Azərbaycan beynəlxalq terrorizmə və ekstremizmə qarşı barışmaz mübarizə apararaq, əsas səylərini öz ərazilərini Ermənistanın işğalından azad etməyə və orada qanun-qaydanı və nəzarəti bərpa etməyə yönəldir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Avroatlantika Tərəfdaşlığının bütün dövlətlərinin mənafelərinə uyğundur. Nə qədər ki gec deyil, dünya birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir.

Azərbaycan NATO ilə tərəfdaşlığı gələcək Avroatlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək, Alyans ilə inteqrasiya tərəfdaşlığına və intensiv ikitərəfli dialoqa səy göstərir. Bununla yanaşı, Alyans və Tərəfdaşlıq üzvlərinin artmaqda olan qarşılıqlı asılılığını, tərəfdaşların mənafe və tələbatının daha çox nəzərə alınması zəruriliyini qeyd etmək istəyirəm.

Biz NATO tərəfindən Cənubi Qafqaza diqqətin artdığını görürük. Lakin hər cür regional təşəbbüslər və təkliflər ilk növbədə müharibələrin nəticələrinin aradan qaldırılmasına və dövlətlər arasında beynəlxalq miqyasda tanınmış sərhədlərin bərpa olunmasına yönəldilməlidir.

Biz məmnunluqla qeyd edirik ki, NATO ilə Rusiya arasında yeni qarşılıqlı münasibətlər inkişaf etməkdədir, bu isə Avropanın müxtəlif regionlarında böhranların aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edə bilər.

Mən Alyansa daxil olmaq barədə dəvət almış dövlətləri təbrik edirəm. NATO-nun yeritdiyi açıq qapı siyasətini qiymətləndirirəm.

Cənab Sədr,

Qarşımızda duran məqsədlər böyük səylər tələb edir. Lakin bizim geri çəkilməyə ixtiyarımız yoxdur. Bizim müqəddəs vəzifəmiz gələcək nəsillərə təhlükəsiz və sabit dünya bəxş etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Davamlı İnkişaf üzrə Ümumdünya Zirvə Toplantısında çıxışı

**4 sentyabr 2002, Yohannesburq, Cənubi Afrika Respublikası**

Cənab Sədr,

Cənab Baş Katib,

Zati-Aliləri,

Hörmətli Nazirlər,

Hörmətli Nümayəndələr,

Xanımlar və Cənablar,

Fəaliyyətlər üçün ümumi narahatçılıqları, bölüşdürülmüş məsuliyyətləri və öhdəlikləri əks etdirən Minilliyin Bəyannaməsi, Doha Razılaşmaları, Monterrey Konsensusu və Yohannesburq Fəaliyyət Planı Yeni Minillikdə qlobal inkişaf layihələridir. Əldə olunmuş ruh yüksəkliyi qorunmalı və qazanılmış impuls nəzərə çarpan nəticələrin nail olunması istiqamətində inkişaf etdirilməlidir.

Bu yeni qlobal durum Azərbaycan kimi ölkələr üçün xüsusilə vacibdir. Rio Sammiti ilə eyni yaşa malik olan, keçid iqtisadiyyatlı, dənizə çıxışı olmayan və bundan başqa, münaqişə vəziyyətində olan Azərbaycan sürətlə qloballaşan dünyada ən çox təsirə məruz qalan ölkələr qrupuna daxildir. Bu səbəbdən də, Millenium Deklarasiyasının məqsədlərinə nail olmaq üçün əlverişli xarici mühitin olması bizim üçün həlledici əhəmiyyət kəsb edir.

Cənab Sədr,

İcazə verin Azərbaycanın Riodan sonra keçdiyi inkişaf yolu və qarşıya qoyulmuş məqsədlərə çatma yolunda qarşılaşdığımız təhlükələr və problemlər barədə qısa məlumat verim.

İlk növbədə qeyd etmək istərdim ki, biz tam anlayırıq ki, inkişafda davamlılığı təmin etmək üçün əsas səylər milli səviyyədə göstərilməlidir. Ölkəmizdə beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq şəraitində aparılan düzgün islahat siyasəti makroiqtisadi vəziyyətin stabilləşdirilməsi, struktur dəyişikliklər, özəl sərmayələrin cəlb olunması sahəsində əhəmiyyətli nəticələrini vermişdir. Özəl sektor və sahibkarlıq yeni iqtisadiyyatın inkişafı və formalaşması üçün aparıcı qüvvəyə çevrilmişdir. Adambaşına düşən birbaşa xarici sərmayə göstəricisi keçid iqtisadiyyatlı ölkələr arasında ən yüksəklərdən biridir. Bunun nəticəsində Azərbaycan dünyada ən yüksək orta artım templərinə malikdir.

Bununla belə, inkişaf hələ balanslaşdırılmayıb, əsas etibarilə energetika sektoru tərəfindən hərəkətə gətirilir və ölkənin dar spektrli sənayesi və regionları ilə məhdudlaşır. Əhalinin böyük hissəsi, xüsusilə də kənd yerlərində yoxsulluq içərisində yaşayır.

Ölkənin struktur islahatlar və iri özəlləşdirmə, enerji resurslarının tam-mərhələli kəşfiyyatı, transregional infrastruktur layihələrinin həyata keçirilməsindən ibarət olan vacib, həlledici inkişaf yoluna qədəm qoyması ilə əlaqədar biz həmçinin yüksək artım normasının davamlı inkişafa keçməsi kimi ciddi vəzifə ilə üzləşirik.

Bu tələblərə cavab vermək üçün aşağıdakı sahələr davamlı inkişaf üçün prioritet kimi müəyyənləşdirilib:

Yoxsulluğun azaldılması. Milli strategiya qeyri-neft, kiçik və orta biznes (SME) və kənd təsərrüfatı sektorlarının inkişafına yönəldilmişdir.

Ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması. Qəbul olunmuş Milli Fəaliyyət Planı BMT-nin İqlim Dəyişikli

yi üzrə Çərçivə Konvensiyası və Kioto Protokolu, Biomüxtəliflik üzrə Konvensiya, həmçinin iqtisadi inkişafın ətraf mühitin çirkləndirilməsindən ayrılmasını nəzərdə tutan digər beynəlxalq sazişlər tərəfindən təsdiq edilmiş öhdəliklərin yerinə yetirilməsini nəzərdə tutur.

Struktur və inzibati islahatlar, adekvat institusional çərçivənin qurulması, institusional imkanların gücləndirilməsi, yaxşı idarəetmə təcrübələrinin təşviqi hazırda həyata keçirilən tədbirlər arasındadır.

Dünya ticarət sisteminə inteqrasiya və Ümumdünya Ticarət Təşkilatına üzvlük.

Cənab Sədr,

Biz həmçinin başa düşürük ki, qloballaşma və qarşılıqlı asılılığın daima artdığı bir şəraitdə davamlı inkişafa olan təhlükələr yalnız milli səviyyələrdə həll edilə bilməz. Təbii və süni fəlakətlər, trans-sərhəd çirklənmə - regional səviyyədə əməkdaşlığı zəruri edən problemlərdir. Bu baxımdan mən Pan-Avropa Şərq-Qərb ətraf mühit üzrə əməkdaşlıq təşəbbüsünü dəstəklədiyimizi bildirmək istərdim. Bu tribunadan istifadə edərək mən həmçinin qonşu dövlətləri Helsinki və Bazel Konvensiyalarına qoşulmağa çağırıram.

Regional əməkdaşlıq və ticarət, qloballaşmanın mənfi təsirlərini zərərsizləşdirən resursların daha səmərəli istifadə olunması üçün mühüm vasitələrdir. Azərbaycan regional iqtisadi təşkilatlar, proqramlar çərçivəsində, həmçinin regional infrastruktur layihələrinin həyata keçirilməsində fəal əməkdaşlıq edir. Böyük məmnunluq hissi ilə bildirmək istəyirəm ki, Xəzər dənizinin karbohidrogen resurslarının beynəlxalq bazarlara ixracı üçün nəzərdə tutulan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin tikilişinə həsr edilmiş mərasim sentyabrın 18-də Azərbaycanın paytaxtı Bakı şəhərində keçiriləcək.

Yeni nəqliyyat dəhlizlərinin inkişafında əməkdaşlıq etməklə Azərbaycan Asiya və Avropanın bir-birinə yaxınlaşmasına yardım göstərir. TRACEKA beynəlxalq katibliyinin yerləşdiyi ölkənin nümayəndəsi kimi bu yüksək foruma, Əfqanıstana humanitar yüklərin bu marşrutla daşınmasını asanlaşdırmaq üçün zəruri tədbirlərin görülməsinə dair üzv ölkələrin təzəlikcə qəbul etdikləri yekdil qərarı barədə məlumat vermək istəyirəm.

Cənab Sədr,

Aydındır ki, biz qarşıda duran bütün çağırışlarla təkbaşına mübarizə apara bilmərik və xüsusilə də yuxarıda qeyd olunan prioritet sahələrdə beynəlxalq əməkdaşlığı və yardımı alqışlayırıq.

Lakin, ölkəmin on ildən artıq üzləşdiyi ciddi və kəskin problem hələ də həll edilməyərəq qalmışdır. Siz xəbərdarsız ki, Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan ərazisinin beşdə bir hissəsi işğal olunmuş, bir milyon qaçqın və köçkünlər (hər səkkizinci vətəndaş) ölkə ərazisinə səpələnərək hazırda ölkənin müxtəlif yerlərində müvəqqəti çadır şəhərciklərində yoxsulluq şəratinində yaşamaq məcburiyyətində qalmışdır. İnfrastruktura dağıdılmış, şumluq torpaqlar minalanmış, münbit torpaqlar məhv edilmişdir. Bunun iqtisadiyyat və cəmiyyət üzərinə qoyduğu ağır yük haqqında danışmağa lüzum yoxdur.

Cənubi Qafqazdakı vəziyyət münaqişələr və onların nəticələrinin regional səviyyədə əməkdaşlıq və davamlı inkişafa dağıdıcı təsir göstərməsini açıq-aşkar nümayiş etdirir. Bu səbəbdən münaqişələr və münaqişəyə məruz qalmış ərazilər beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır. Burada heç də əzab çəkənlərin problemlərinin həll edilməsi üçün daha çox yardım göstərmək deyil, həmçinin beynəlxalq ictimaiyyətin qərəzsiz mövqeyi və beynəlxalq hüquq norma və prinsiplərinə riayət olunması və təsdiqində uyğunluq və ardıcıllıq nəzərdə tutulur. Sülh və sabitlik davamlı inkişafın əsas şərtləridir.

Cənab Sədr,

Çıxışımın sonunda icazə verin bir daha bildirim ki, Azərbaycan Siyasi Deklarasiyanı və Yohannesburq Fəaliyyət Planını dəstəkləyir, Dünya əhalisinin rifahına yönəlmiş xeyirxah məqsədlərə nail olunmasında beynəlxalq ictimaiyyətlə əməkdaşlıq etməyə hazır və sadiqdir.

Nəhayət, mən BMT Katibliyinə və Cənubi Afrika Respublikasının Hökuməti və xalqına gözəl Yohannesburqda məhsuldar iş və xoşagələn qalma üçün yaratdıqları əla şəraitə görə öz minnətdarlığımı bildirmək və diqqətinizə görə təşəkkür etmək istərdim.

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin BMT Baş Assambleyasının 57-ci sessiyasında çıxışı

**15 sentyabr 2002, Nyu-York, ABŞ**

Cənab Sədr,

İlk öncə icazə verin Baş Assambleyanın 57-ci sessiyasının sədri təyin olunması münasibətilə Zati Aliləri cənab Yan Kavanı təbrik edim və Baş Assambleyanın 56-cı sessiyasının sədri vəzifəsində fəaliyyətinə görə cənab Han Senq-Su Xana minnətdarlığımı bildirim.

Mən BMT-nin üzv dövləti olması münasibətilə İsveçrəni təbrik etməkdən məmnunluq duyuram.

Hazırda beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində aparıcı rol oynamaq vəzifəsi həvalə edilmiş Birləşmiş Millətlər Təşkilatı üzv dövlətlərin səylərini birləşdirmək və qlobal miqyas almış təhlükə və risklərin qarşısını almaqda təsirli beynəlxalq əməkdaşlığı təşkil etmək qabiliyyətinin ciddi sınaq dövrünü yaşayır.

Bir il əvvəl Nyu-Yorkda baş verən faciəli hadisələr hamımızı dünyaya yeni tərzdə baxmağa və yeni dövrün çağırışlarının qlobal səviyyədə qarşılıqlı asılılığını dərk etməyə məcbur etdi.

Biz etiraf etməliyik ki, problemlərə etinasız yanaşmaqla, beynəlxalq hüquq normalarının pozulmasına göz yummaqla, təcavüzə laqeyd qalmaqla, bəzi dövlətlərin qeyri-qanuni hərəkətlərinin, separatizmin, silahların yayılmasının doğurduğu təhlükələrə cavab verməməklə dünya özü terrorizm dəhşətini yetişdirmişdir. Buraxılan səhvlərdən dərs götürmək və birgə yanaşmalar əsasında terrorizmə qarşı geniş hücuma başlamaq lazımdır.

Qeyri-ardıcıllıq, seçimlilik və ikili standartlar istisna olmaqla, universal yanaşmaya hörmət terrorizmin qarşısının alınmasında dünyanın birləşməsinin vacib şərtidir. Belə yanaşmanın hüquqi əsası Terrorizmə qarşı Mübarizəyə dair Hərtərəfli Konvensiyada qoyulmalıdır. Heç bir siyasi, sosial, ideoloji, dini və digər səbəblər terrorizm fəaliyyətinə, metodlarına və praktikasına bəraət qazandıra bilməz. Terrorizmə qarşı effektiv əks-tədbirlər missiyası və onun tam ləğv edilməsi problemin müxtəlif aspektləri və səbəblərinin kökünü nəzərə alan ən geniş və kompleks yanaşmadan istifadə edilməsini tələb edir.

Aydındır ki, terrorist qruplar iqtisadi və sosial tənəzzül, silahlı münaqişələr, yoxsulluq, savadsızlıq və özünütəcrid ilə səciyyələnən mühitdə daha asanlıqla yeni üzvləri cəlb edir və inkişaf edirlər. İnkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrə yardım üzrə yeni proqramların təşkili və mövcud proqramların genişləndirilməsi üçün lazımi resurslar  səfərbər edilməlidir. Bu ölkələrdə sabit inkişafa və iqtisadi artımın dirçəlməsinə yardım üzrə BMT qərarlarının həyata keçirilməsi çox böyük rol oynayır. Biz Əfqanıstana təcili beynəlxalq yardımın göstərilməsini xüsusilə qeyd etməliyik.

Sivilizasiyalararası çəkişmələrdən çəkinmək, dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət ruhunun yaradılması terrorizmin ləğv edilməsi probleminin digər mühüm tərəfidir. Biz sivilizasiyalararası dialoqun davam etdirilməsi və dərinləşməsi meylini müdafiə edərək, onun çoxşaxəli məna ifadə etdiyini vurğulayırıq. Biz hesab edirik ki, təhsil, məlumat və sivilizasiyalararası mədəni dialoq sahələrində proqramların həyata keçirilməsi Qərb və Şərqin üzləşdiyi ümumi problemlərin həlli üçün böyük ehtiyac duyulan qarşılıqlı anlaşma və inamın formalaşmasını asanlaşdıracaq. Bu məzmunda, mən Azərbaycanın təşəbbüsü ilə «Müasir demokratik cəmiyyətdə dinin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının axtarışı» mövzusunda ATƏT-lə birgə 2002-ci il 10-11 oktyabr tarixində Bakıda keçiriləcək beynəlxalq konfransın əhəmiyyətini xüsusilə qeyd etmək istərdim.

Beynəlxalq terrorizmlə mübarizədə üstünlük onun barışmaz millətçilik və təcavüzkar separatizm kimi təzahür formalarına verilməlidir. Çox hallarda müxtəlif tipli separatçı və millətçilərin terrorçu qrupları bir-biri ilə yaxın əlaqələr saxlayır və birbaşa dövlətlər tərəfindən maliyyələşdirilir. Terrorizmlə mübarizə silahlı separatizm və xarici təcavüz nəticəsində meydana çıxan dırnaqarası nəzarətsiz ərazilərdə kəskin mürəkkəb problemə çevrilir.

Artıq on ildir ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisində belə nəzarətsiz zona mövcuddur. Təcavüzkar millətçilik, terrorizm və qonşulara qarşı ərazi iddiaları ideologiyasını özünün dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistan Respublikası Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə yolu ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda silahlı separatçı terrorçu qruplaşmanı yaratmışdır. Bundan sonra Ermənistanın Azərbaycana qarşı açıq silahlı təcavüzü baş verdi. 1987-1988-ci illərdə öz ərazisində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə tətbiq etmiş Ermənistan 1992-1993-cü illərdə 60 minlik yerli azərbaycanlı əhalini didərgin salaraq nəinki bütün Dağlıq Qarabağ regionunu, həmçinin Azərbaycan Respublikasının digər 7 rayonunun ərazisini işğal etdi və beləliklə, azərbaycanlı qaçqınlarının ümumi sayını bir milyona çatdırdı. Hazırda Ermənistan Dağlıq Qarabağ regionunu Azərbaycandan qoparmaq məqsədilə təcavüz və etnik təmizləmənin nəticələrini möhkəmləndirmək niyyətindədir.

Ermənistan xalqların öz müqəddəratını təyin etmək hüququ prinsipinə müraciət etməklə anneksiyaçı siyasətini örtbasdır etmək istəyir. Lakin beynəlxalq hüquqa əsasən, bu prinsip yalnız sülh yolu ilə və ərazi bütövlüyü prinsipinə müvafiq olaraq həyata keçirilə bilər. Öz müqəddəratını təyin etmək hüququ birtərəfli şəkildə ayrılmaq hüququnu nəzərdə tutmur və suveren və müstəqil dövlətin parçalanmasına gətirib çıxarmamaldıdır. Bununla yanaşı, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan ermənilər heç bir halda öz müqəddəratını təyin etmək hüququnun subyektləri kimi nəzərdən keçirilə bilməzlər.

Dağlıq Qarabağ regionunun heç vaxt Azərbaycana məxsus olmadığına dair erməni tərəfinin iddiası, onun beynəlxalq hüquqa istinadları kimi tamamilə əsassızdır. Dövlətlərarası münaqişələrin həllində tarixə müraciətin yanlış, həddindən artıq təhlükəli olduğu və beynəlxalq hüquq normalarının universallığını şübhə altına aldığı faktını kənara qoyaraq, qeyd etmək lazımdır ki, bu bəyanatlar bir sıra tarixi rəsmi sənədlərlə təkzib

olunur. Öz ərazi iddialarına bəraət qazandırmaq məqsədilə tez-tez Millətlər Cəmiyyətinə istinad edən Ermənistan xatırlamalıdır ki, Millətlər Cəmiyyəti öz rəsmi sənədlərində Ermənistanı təmsil etmək iqtidarında olan sabit hökumətin mövcudluğuna şübhə ilə yanaşmış və, ən əhəmiyyətlisi, Ermənistanın dəqiq müəyyən edilmiş sərhədlərinin olmamasını təsdiqləmişdir.

Dağlıq Qarabağ regionunun Ermənistanla yenidən birləşdirilməsi və bu regionun Azərbaycanın tərkib hissəsi olmasını qeyd edən heç bir beynəlxalq sənədin tanınmaması haqqında Ermənistan Parlamentinin qərarları qeyri-qanunidir. Həmçinin, Dağlıq Qarabağ regionunda olan qeyri-qanuni separatçı rejimin qərarları, müharibə və bütün azərbaycanlı əhalisinin zorakılıqla qovulması şəraitində keçirdiyi qondarma referendumlar və seçkilər heç bir beynəlxalq hüquqi qüvvəyə malik ola bilməz.

Digər tərəfdən, Ermənistan özü azərbaycanlı əhalisinin öz müqəddəratını təyin etmək hüququnu pozmuşdur. Hamı tərəfindən tanınmış beynəlxalq hüquqi *uti possidetis juris* doktrinasına müvafiq olaraq, keçmiş ittifaq respublikaları əvvəllər federasiya daxilində mövcud olmuş sərhədlər çərçivəsində yeni müstəqil dövlətlər kimi tanınırlar. Məhz bu sərhədlər çərçivəsində BMT 1992-ci ilin mart ayında Azərbaycanı tanıdı və onu tamhüquqlu üzv kimi bu universal təşkilata qəbul etdi.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələri qəbul etmişdir. Bu qətnamələr Ermənistanın Azərbaycana qarşı təcavüzünün hər yeni mərhələsindən sonra qəbul edilmişdir. Şura birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəklədi, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkib hissəsi kimi tanınmasını təsdiq etdi və erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını və qaçqınlar və məcburi köçkünlərin geri qayıtmaları üçün şəraitin yaradılmasını təkidlə tələb etdi. Buna baxmayaraq, Təhlükəsizlik Şurasının bu tələbləri indiyə kimi həyata keçirilməmişdir. Qeyd etmək istərdim ki, bu qətnamələrə regionda vəziyyətə dair Təhlükəsizlik Şurasına hesabatların təqdim edilməsi haqqında BMT Baş Katibinə, ATƏT-in Fəaliyyətdə olan Sədrinə və Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi mandatını həyata keçirən Minsk Qrupunun Sədrinə edilmiş xahiş də daxildir. Son qərar bütün dörd qətnamələrin həyata keçirilməsi prosesinə dair məlumat verilməsi xahişini vurğulamışdır. Təəssüf ki, bu xahiş hələ də kağız üzərində qalır. Hadisələrin belə durumu bizim üçün münasib ola bilməz; bu, məsələnin həlli prosesinin «zəifləməsinə» və, nəticə etibarilə, işğal faktı qarşısında qoymaq kimi təhlükəli məqamda vəziyyətin dondurulmasına aparır. Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməməsi onun nüfuzunu və insanların ədalətə və məsələnin sülh yolu ilə siyasi həllinin mümkünlüyünə inamını sarsıdır.

Məlum olduğu kimi, ATƏT-lə əməkdaşlığa dair BMT Baş Assambleyasının hər il yeniləşən qətnaməsində «Birləşmiş Millətlər Təşkilatı bu regional təşkilatın və Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında gedən münaqişənin həllində vasitəçilik edən onun Minsk Qrupunun səylərini dəstəklədiyini ifadə edir». Biz 1992-ci ilin mart ayında ATƏM Nazirlər Şurasının Helsinki görüşündə Minsk Qrupunun təşkil edilməsindən sonra onillik müddət ərzində edilən bu səyləri necə qiymətləndirə bilərik?

Əgər vasitəçiliyin ilk mərhələlərində Minsk Qrupu münaqişənin nəticələrinin aradan qaldırılmasına dair təkliflər irəli sürürdüsə, hazırda onun fəaliyyəti danışıqlar şərtlərinin əksinə olaraq qurban vermiş tərəfin təcavüzkarın şərtlərini qəbul edənə qədər «gözlə və bax» siyasətinin dəstəklənməsi kimi qiymətləndirilə bilər. Vasitəçilərin belə mövqeyi başqa cür deyil, yalnız Ermənistanın yeritdiyi və bizim üçün qəbuledilməz olan fakt qarşısında qoymaq siyasətinin passiv şəkildə dəstəklənməsi kimi qiymətləndirilə bilər.

Münaqişənin sülh yolu ilə həll edilməsi və ATƏT və onun Minsk Qrupu ilə qarşılıqlı fəaliyyətə dair öhdəliyini yerinə yetirməkdə davam edən Azərbaycan Emənistan-Azərbaycan münaqişəsinin həllinə effektiv töhvə məqsədilə öz potensialından indiyə qədər istifadə etməyən BMT Təhlükəsizlik Şurasının məsələyə yeni və qəti müdaxiləsinə ciddi zərurət duyur.

Hazırki vəziyyət çox təhlükəlidir. Bəli, artıq səkkiz ildir atəşkəsə riayət olunur, vasitəçilik fəaliyyəti davam etdirilməkdədir, lakin münaqişənin sülh yolu ilə real həll edilməsi baş vermir. Ermənistan Azərbaycanın ərazilərini işğal etmişdir və güc mövqeyindən danışıqlar apararaq, vasitəçilərin barışdırma fəaliyyəti fonunda, hətta özünün anneksiyaçı niyyətlərini gizlətməyə cəhd etmədən Azərbaycanın bir hissəsini qoparmağa çalışır.

Azərbaycan ərazi işğallarının qanuniləşdirilməsi ilə heç vaxt razılaşmayacaq. Azərbaycan ərazisinin bir millimetrinin belə itirilməsini qəbul etməyəcək və o, suverenliyi və ərazi bütövlüyünü müdafiə etmək üçün BMT Nizamnaməsinin şərtləndirdiyi bütün lazımi tədbirləri görmək hüququnu özündə saxlayır.

Biz BMT Təhlükəsizlik Şurasını mövcud vəziyyəti nəzərdən keçirməyə, Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərindən silahlı qüvvələrini dərhal çıxarmağa məcbur etməyə və Dağlıq Qarabağ regionunun Azərbaycan daxilində statusunu beynəlxalq hüququn norma və prinsipləri əsasında müəyyən edilməsinə dair danışıqlar aparmağa çağırırıq.

Biz Ermənistan Respublikasını məntiqin səsinə qulaq asmağa və Azərbaycana qarşı ərazi iddiaları kimi zərərli siyasətindən əl çəkməyə çağırırıq. Azərbaycan torpaqlarının işğalının və onunla qarşıdurmanın davam etdirilməsi erməni xalqına uğursuzluq və əzablardan başqa heç nə verməyəcək.

Münaqişə Cənubi Qafqaz regionunda təhlükəsizliyi nəinki sarsıdır, həm də ikitərəfli və regional əməkdaşlığın yaradılmasında əsas maneəni təşkil edir. Bu əməkdaşlıq regionda bütün dövlətlər üçün mənfəət gətirə və beynəlxalq aləmdə onların mövqe və nüfuzunun güclənməsində həlledici rol oynaya bilərdi. Təbii ehtiyatlarından və əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan Cənubi Qafqaz regionunun inkişafına böyük töhvə verir və, faktiki olaraq, onun dünya sisteminə inteqrasiyasında mühərrik rolunu oynayır. AVROSTAT-ın keçən ilki məlumatına əsasən, Cənubi Qafqaz ölkələrinin ümumi məhsulunun 52 faizi Azərbaycanda istehsal olunmuşdur. Üç gündən sonra Cənubi Qafqazın hüdudlarını aşan möhtəşəm hadisə, yəni Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlinin qoyulması mərasimi keçiriləcək ki, onun tikilməsi bu ölkələrin iqtisadiyyatlarına böyük sərmayə axınına təkan verəcək. Ermənistan Azərbaycana qarşı hərəkətləri ilə bu tipli layihələrdə iştirakdan özünü təcrid etmiş oldu. Bəli, Ermənistan hər səviyyədə Azərbaycanla əməkdaşlıq etmək istəyini bəyan edir. Lakin Ermanistanın düşüncəsində Azərbaycan öz ərazilərinin işğalına göz yummalı və

Ermənistanla iqtisadi əlaqələr qurmalıdır. Fikrimcə, siz razılaşacaqsınız ki, faktiki olaraq təcavüzkarla barışma demək olan bu təklifi çətin ki, bir kəs qəbul edə bilsin.

Hazırki vəziyyətdən çıxış yolu axtaran və münaqişənin həlli prosesini hərəkətə gətirmək istəyən Azərbaycan konstruktiv mövqe nümayiş etdirərək, Ermənistana erməni qüvvələrinin işğal olunmuş dörd rayondan çıxarılmasını və nəticə etibarilə, Azərbaycan, Ermənistan və regionun digər ölkələrini bir-birinə bağlayan əsas dəmir yolu xəttini bərpa etməyi təklif etmişdir. Xoş niyyət jesti kimi başa düşülən, münaqişənin nəticələrinin bir hissəsinin aradan qaldırılması və əməkdaşlığın bərpa edilməsi üçün edilmiş bu unikal tədbirlər paketi hər iki ölkədə danışıqlar mühitini və ictimai fikri əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilərdi. Münaqişənin hər iki tərəfinə və regionun digər ölkələrinə mənfəət vəd edən Azərbaycanın bu təklifi ATƏT və onun Minsk qrupunda, Avropa İttifaqı və Avropa Şurasında geniş dəstək qazandı. Lakin praktiki fəaliyyətə gələndə, Ermənistan özünün sülh və əməkdaşlığa olan öhdəliyini canfəşanlıqla nümayiş etdirərək, inama doğru aparan bu addımı rədd etdi.

Ermənistan-Azərbaycan münaqişəsində «nə sülh nə müharibə» vəziyyəti saat mexanizmli bombadır və xalqın, ilk növbədə öz evlərindən zorakılıqla məhrum edilmiş və təcavüzün nəticələrinin ən ağır yükünü daşımağa məhkum olunmuş, öz qanuni hüquqlarının bərpa edilməsinə olan səbr və ümidlərini itirməkdə olan qaçqınlar və məcburi köckünlərin ümidsizliyidir. Ermənistanın təcavüzkar hərəkətləri nəticəsində Azərbaycan hazırda bir milyondan artıq qaçqın və məcburi köçkünlərə sığınacaq verir. Keçən illərdə beynəlxalq humanitar təşkilatların, ilk öncə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının yardımı sayəsində qaçqınların problemlərinin həll edilməsi yolunda böyük iş görülmüşdür. Eyni zamanda, münaqişənin həllində irəliləyişin olmamasının davam etməsi ilə əlaqədar beynəlxalq təşkilatların göstərdiyi humanitar yardımların həcminin azaldılması meyli və bəzi agentliklərin öz fəaliyyətlərini ixtisar etmək niyyəti Azərbaycanda hümanitar vəziyyətin ağır olaraq qaldığı bir vaxtda böyük narahatçılıq doğurur. Hazırda biz tibb müəssisələrinin lazımi tibbi preraparatlar və təchizatlarla təmin edilməsi, kənd təsərrüfatı proqramlarının həyata keçirilməsi, yeni iş yerlərinin açılması və xırda sahibkarlığın inkşaf etdirilməsi üçün xüsusi yardımın göstərilməsinə ciddi zərurət duyuruq. Biz BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, digər beynəlxalq qurumları və donor dövlətləri bizim problemlərimizə reaksiya verməyə və onların tələb olunan miqyasda həllini sürətləndirmək üçün ehtiyatları səfərbər etməyə çağırırıq.

Cənab Sədr,

İcazə verin BMT-nin fəaliyyətində effektivlik və praktiki nəticələrin artırılması məqsədini daşıyan BMT-də islahatlar məsələsinə qısaca olaraq toxunum. Biz bir sıra mümkün islahatları müəyyən etməliyik ki, bunların arasında Təhlükəsizlik Şurasının genişləndirilməsi xüsusilə qeyd olunmalıdır. Ümid etmək istərdim ki, bu məsələnin hər bir aspekti üzrə maksimal geniş konsensus əldə olunacaq. Şura daxilindəki daha böyük balans inkşaf etmiş ölkələrlə yanaşı inkişaf etməkdə olan nüfuzlu ölkələrin onun tərkibinə qatılması ilə təmin oluna bilər. BMT-nin aparıcı orqanlarından birinin tərkibində təmsilçiliyin – rasional əhatədə – artırılması

zamanın reallıqlarına və beynəlxalq sülh və təhlükəsizliyin qorunması yolundakı vacib məsələlərin həllində daha geniş maraqların nəzərə alınmasına cavab verə bilərdi. İslahatlara münasibətdə biz daha çox demokratiya, fəaliyyət və dəyişikliklərin tələblərinə uyğunluğu arzu edərdik.

İnanmaq istərdim ki, islahatlar beynəlxalq sülh və təhlükəsizliyi qorumağa, regional münaqişələrin qarşısını almağa və həll etməyə, qloballaşmanın yeni şəraitində qlobal təhlükə və risklərin qarşısını almağa qadir olan universal təşkilat kimi öz rolunu təsdiq etməkdə BMT-yə imkan yaradacaq.

Təşəkkür edirəm.

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının VII Görüşündə bəyanatı**

**25 oktyabr, Tirana, Albaniya**

Cənab Sədr,

Əziz Həmkarlar,

Hörmətli İştirakçılar,

Xanımlar və Cənablar,

İlk öncə mən bu görüşü keçirdiyinə, həmçinin bizə göstərilmiş qonaqpərvərliyə görə Fəaliyyətdə olan Sədr Albaniya Respublikası Baş Nazirinin Müavini və Xarici İşlər Naziri Zati-Aliləri Cənab İlir Metaya təşəkkür etmək istərdim. Bu görüşün keçirilməsi üçün edilən hazırlıq işinə görə Ali Rəsmilər Komitəsinə və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinə xüsusi təşəkkürlərimi bildirirəm.

Bugün bizim bir araya toplanmağımız xüsusi əhəmiyyət kəsb edir, çünki bu hadisə dövlət və hökumət başçılarımızın 1992-ci il İstanbul Bəyannaməsindən bəri edilən irəliləyişləri qiymətləndirdiyi və üzərimizə yeni vəzifələr qoyduğu İstanbulda keçirilən Onillik Zirvə Görüşündən sonra ilk dəfə baş verir.

Şübhəsiz, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü son zamanlar baş verən ən əhəmiyyətli hadisə kimi səciyyələndirilə bilər və mən əminəm ki, Zirvə Görüşündə qəbul edilən İstanbul Bəyannaməsi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafında mühüm rol oynayacaq.

Bu əminlik həm Bəyannamənin qəbul edildiyi səviyyədən, həm də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunun ən mühüm problemlərini əks etdirmək qabiliyyətindən irəli gəlir. Belə ki, yalnız bu problemlərin həll edilməsi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının təşkilat və məkan kimi inkişafına təkan verə, həmçinin bu inkişafın yeni ölçülərini müəyyən edə bilər.

Təşkilatın fəaliyyətinə hörmət və onun tanınması rəmzi olan bu yaxınlarda üzərimizə qoyulan vəzifələr hazırda üzləşdiyimiz məsələlərlə effektiv şəkildə məşğul olmaq məqsədilə eyni zamanda təşkilati tələbləri və

öhdəlikləri milli səviyyədə üzərimizə götürməyə təkan verir. Bu baxımdan, ümumi səylərimizin real əməkdaşlığa doğru gələcək təkamülünü təmin edə biləcək bir sıra mühüm məsələlər nəzərdən keçirilməlidir.

Cənab Sədr,

Son altı aylıq fəaliyyəti nəzərdən keçirərək, biz məmnunluq hissi ilə qeyd edə bilərik ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı əməkdaşlığımızı daha mükəmməl mərhələyə aparmaqla üzv-dövlətlər arasında və beynəlxalq səviyyədə əməkdaşlığımızın əsas sahələrində təşkilat kimi irəliləmiş və beynəlxalq səviyyədə yerini tapmışdır. Üzv-dövlətlərimizin töhfəsini tərifləməkdən əlavə mən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin və şəxsən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş Katibi Zati-Aliləri Cənab V.Çeçalaşvilinin fəaliyyətini xüsusilə yüksək qiymətləndirmək istərdim.

Əzəz Həmkarlar,

Buna baxmayaraq, irəlidəki tələbləri yerinə yetirmək məqsədilə biz fəaliyyətimizin bütün sahələrində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının bütün orqanları arasında daha yaxşı əlaqələndirməni və sıx əməkdaşlığı təmin etməyə ehtiyac duyuruq.

Bu baxımdan, Qara Dəniz Ticarət və İnkişaf Bankı əməkdaşlığımızın ən mühüm dayaqlarından biri və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının layihə təmayülünə çevrilməsində vasitə olmaqda qalır. Biz Qara Dəniz Ticarət və İnkişaf Bankının yeni Prezidenti Cənab Mustafa Qurtinin təzə işə başlamasını, həmçinin Bankı üzv-dövlətlərin, xüsusilə kiçik üzv-dövlətlərin ehtiyaclarına daha da yaxınlaşdırmaq məqsədi güdən səylərini alqışlayırıq.

Bu mənada, biz Qara Dəniz Ticarət və İnkişaf Bankının Beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birlikdə çox mühüm təşəbbüsdə – Azərbaycanda orta və kiçik müəssisələr sektorunun inkişafını dəstəkləmək məqsədilə Mikromaliyyələşdirmə Bankının təsis edilməsində iştirak etməsini tövsiyə edirik.

Böyük məmnunluqla deyə bilərəm ki, Azərbaycan Nizamnamə kapitalına öz payını ödəməklə Qara Dəniz Ticarət və İnkişaf Bankı qarşısında ilkin öhdəliyini yerinə yetirmişdir. Biz, bizə Bankla əməkdaşlığın imkanlarından tam şəkildə istifadə etmək imkanı verəcək bütün həll olunmamış öhdəliklərimizi yerinə yetirəcəyimizə əminik.

Biz Qara Dəniz Ticarət və İnkişaf Bankı İdarəetmə rəhbərliyinin Bakıya qarşıdangələn səfərini hərarətlə alqışlayırıq və ümid edirik ki, bu səfər Bankla Azərbaycan arasında daha yaxın əlaqələrin yaradılmasına güclü təkan verəcək.

Regional iqtisadi əməkdaşlığın inkişafı kontekstində xüsusi rol, real layihələrin həyata keçirilməsinə daha çox əhəmiyyət vermək şərtilə, Biznes Şurasına ayrılmalıdır. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı məkanında hələ də aşkar edilməmiş böyük özəl təşəbbüs potensialı vardır və məhz Şura bu potensialı araşdırmalıdır. Bu, Şuranı təşkilati cəhətdən gücləndirməklə və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının müvafiq orqanları ilə, həmçinin yerli biznes birlikləri ilə daha sıx əməkdaşlığı inkişaf etdirməklə həyata

keçirilə bilər. Biz Biznes Şurasının işləyib hazırladığı müvafiq təşəbbüsləri, xüsusilə Biznes Şurası ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının birgə inkişaf etdirdiyi İnvestisiya Təşəbbüsünü dəstəkləməyə hazırıq, və bu məqsədlə Baş Direktor və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı nümayəndələrinin noyabrın əvvəllərində Bakıya səfərini alqışlayırıq.

Elm sahəsinin əhəmiyyətini tanıyaraq, biz elm və texnologiya və nəzəri sahədə əməkdaşlığın genişləndirilməsində Qara Dəniz Araşdırmaları Beynəlxalq Mərkəzinin gördüyü işi yüksək qiymətləndiririk və bu əməkdaşlığın inkişaf etdirilməsində Baş Direktoru, onun baxışını və qətiyyətini, həmçinin onun ixtisaslı komandasını layiqincə qiymətləndiririk. İqtisadi ölçülərlə yanaşı, təhlükəsizlik və sabitlik və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı–Avropa İttifaqı əməkdaşlığı Qara Dəniz Araşdırmaları Beynəlxalq Mərkəzinin analitik mərkəz kimi mühüm rol oynaya biləcəyi sahələr sırasındadır.

Əməkdaşlığımızın digər mühüm sahəsi Qara Dəniz Universitetləri Şəbəkəsi çərçivəsindədir. Biz inanırıq ki, düzgün olaraq təşkil və idarə edilsə, Qara Dəniz regionu Universitetləri arasında əməkdaşlıq geniş potensiala malikdir. Bildiyiniz kimi, bu ilin sentyabr ayında Bakıda keçirilən Konqres və Konfrans zamanı Azərbaycan Qara Dəniz Universitetləri Şəbəkəsi Sədrliyini öz üzərinə götürdü. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızın gücləndirilməsi ümumi məqsədinə effektiv yardım etmək üçün Qara Dəniz Universitetləri Şəbəkəsinə imkan yaratmaq məqsədilə Qara Dəniz Universitetləri Şəbəkəsinin təşkilati cəhətdən gücləndirilməsi, xüsusilə ali təhsildə keyfiyyət təminatı, ali təhsildə diplomların akreditə edilməsi, elmi proqramların hazırlanması və s. kimi istiqamətlərdə fəaliyyət prioritetlərinin müəyyən edilməsi bizim bilavasitə vəzifələrimizə daxildir.

Cənab Sədr,

Azərbaycan öz strateji maraqlarına uyğun olaraq həmişə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə həmrəy və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının inkişaf etməsində maraqlı olduğunu nümayiş etdirmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının tam qüvvəsi ilə fəaliyyət göstərdiyi vaxt ərzində təşkilat çərçivəsində prioritet istiqamətlər artıq müəyyən edilmişdir. Təşkilat daxilində inkişafı genişləndirməyə xidmət edən və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının coğrafi üstünlüklərindən istifadəyə imkan verən nəqliyyat və enerji sahələri də bu prioritet sahələr arasındadır. Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına bu sahələrin inkişafında həmişə öz töhvəsini vermişdir və gələcəkdə bu töhvəni gücləndirmək iqtidarındadır.

Azərbaycanın geostrateji mövqeyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı da daxil olmaqla Avropa üçün Asiya bazarlarına və əksinə, Asiya üçün Avropa bazarlarına əlverişli çıxış imkanı yaradır. Bu istiqamətdə bir çox təşəbbüslər irəli sürülmüşdür ki, bunlardan biri də Aİ tərəfindən maliyyələşdirilən TRASECA proqramıdır.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin eyni zamanda Əsas Çoxtərəfli Sazişdə iştirak etdikləri də nəzərə alınarsa, Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı – TRASECA

əməkdaşlığı təşəbbüsünü irəli sürmüşdür. Biz inanırıq ki, bu əməkdaşlığın inkişafı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda fəaliyyət göstərə bilən nəqliyyat infrastrukturunun yaradaılmasına əhəmiyyətli kömək göstərə bilər.

Qara Dəniz regionunda enerji infrastrukturunun inkişafında vacib elementlərdən biri də Azərbaycanın hidrokarbon ehtiyatlarının qərb bazarlarına nəql edilməsi üzrə geniş layihələr olacaq. Türkiyə, Gürcüstan, Avropa İttifaqı, ABŞ və Asiya dövlətlərinin yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə 18 sentyabr 2002-ci il tarixində Bakı-Ceyhan əsas ixrac neft kəmərinin tikintisinə başlanması mərhələsi bu hadisənin beynəlxalq əhəmiyyətini açıq şəkildə nümayiş etdirdi.

Bakı-Tbilisi-Ceyhanla yanaşı Bakı-Tbilisi-Ərzrum qaz kəməri də bu strateji məhsulların regionda axınının istiqamətlərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayacaq. Azərbaycanın, Gürcüstanın və Türkiyənin sıx əməkdaşlıq etdiyi və digər ölkələrin də qoşulmağı nəzərdə tutulduğu bu kəmərlərin tikintisi nəinki Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin əməkdaşlığını gücləndirməyə xidmət edir, həm də uzunmüddətli Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və Avropa əməkdaşlığına yol açır.

Bu məzmunda biz reqionarası əməkdaşlıq potensialının və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə enerji daşıyıcıları ilə zəngin Xəzər dənizi regionunun bir araya gətirilməsinin mümkünlüyünün araşdırılmasında maraqlıyıq. Yuxarıda qeyd edilən layihəni biz bu istiqamətdə ilk addım kimi qiymətləndiririk. Xəzərin enerji resurslarının gələcək tədqiqi şübhəsiz ki, yeni tədarük strukturlarının və regional tədarük şəbəkəsinin müvafiq inkişafına gətirib çıxara bilər.

Cəmiyyətimizin inkişafında enerji daşıyıcılarının həlledici rolunu və Azərbaycanın regionda aparıcı enerji istehsalçılarından birinə çevrilməsini nəzərə alaraq inanırıq ki, bizim ölkəmiz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı bölgəsində inteqrasiya prosesinə əhəmiyyətli dərəcədə töhvə verə bilər.

Yuxarıda göstərilənləri nəzərə alaraq və İşçi Qrupun müvafiq sahələrdə əməkdaşlığın gücləndirilməsində oynaya biləcəyi əhəmiyyətli rolu tanıyaraq və Ölkə-Əlaqələndiricisi təsisatının vacibliyini nəzərə alaraq, Azərbaycan əlaqələndirici funksiyasını üç işçi qrupu – Nəqliyyat, Enerji və Elm və Texnika səhəsində Əməkdaşlıq qrupları tərkibində öz üzərinə götürməyi təklif etmişdir.

Bizim əməkdaşlığımızın müvəffəqiyyəti Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı orqanları və üzv-dövlətlərin qarşılıqlı səylərindən asılıdır. Bu mənada milli səviyyədə öhdəliklər və imkanlar məsələsi böyük əhəmiyyət kəsb edir. Biz Azərbaycanda sektorlararası şəbəkəni inkişaf etdirmək üçün müvafiq tədbirlər görür və əminik ki, bunlar koordinasiyanı yaxşılaşdıracaq və imkanlarımızı öhdəliklərimizi yerinə yetirmək üçün uyğun səviyyəyə gətirib çıxaracaq.

Əziz həmkarlarım,

Bildiyiniz kimi, Təşkilatımızın regional kontekstdə və onun xaricində baş qaldırmış problemlərə cavabı kimi əməkdaşlığın yeni təşəbbüsləri və ölçüləri müəyyənləşdirilmişdir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının layihə təmayüllü fəaliyyətə çevrilməsi bir çox vacib sənədlərin qəbul edilməsi ilə qeyd edilmişdir. Biz belə başa düşürük ki, Layihə İnkişaf Fondunun əsası qoyulduqdan sonra  bütün Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı strukturları Fondun həyat qabiliyyətli olması və üzv ölkələrin ehtiyaclarına cavab verməsi üçün əllərindən gələni etməlidirlər. Biz öz dəstəyimizi və fonda maliyyə yardımı göstərilməsində maraqlı olduğumuzu təsdiq edirik.

Biz həmçinin inanırıq ki, bütün üzv dövlətlər tərəfindən qəbul edilən Ümumavropa ideyaları möhkəmləndirilməli və bütövlükdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq səviyyəsində idarə olunmalıdır. Hal-hazırda bu əməkdaşlığın imkanları bəzi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin Avropa İttifaqına qəbul edilməsi prosesində qazandığı uğurlardan daha əhəmiyyətli görünür. Yunanıstan Respublikasının Avropa İttifaqına sədrlik etdiyi dövrdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafı məqsədilə konkret addımlar atmaq təklifini alqışlayaraq biz əmin etmək istərdik ki, Azərbaycan bu əməkdaşlığa yardım etmək üçün bütün səylərini göstərəcək.

Əməkdaşlığımızın həlledici aspektlərindən biri də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda təhlükəsizliyin və stabilliyin gücləndirilməsidir. Qara Dəniz regionunda təhlükəsizliyi və stabilliyi gücləndirmək üçün yeni səylərin vacibliyini bəyan edərək İstanbul Bəyannaməsi bizi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının reqional təhlükəsizliyə yardımı gücləndirməsi yollarını müzakirə etməyə və vasitələr axtarmağa ruhlandırır.

Eyni zamanda münaqişələrin hələ də regionda əməkdaşlıq üçün ciddi maneə olaraq qalmasını etiraf edərək İstanbul Sammiti bu münaqişələrin beynəlxalq hüquq normalarına və prinsiplərinə uyğun olaraq həll edilməsinin vacibliyini vurğulamışdır.

Hörmətli nümayəndələr,

Təşkilat inkişaf etdikcə yeni problemlərin həlli üçün daha effektiv və imkanlı strukturlar tələb olunur. Təşkilati cəhətdən gücləndirilmiş, peşəkar cəhətdən təkmilləşdirilmiş və təsisati cəhətdən dəstəklənən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı şübhəsiz ki, bizim tapşırıqlarmızı daha yaxşı yerinə yetirməyə qadir ola bilər.

Çıxışımın sonunda, cənab Sədr, mən Sizi uğurlu Sədrliyiniz münasibətilə təbrik və bir daha əmin etmək istərdim ki, Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının real əməkdaşlığa çatması üçün daha fəal kömək göstərməyə hazırdır. Mən həmçinin Fəaliyyətdə olan Sədr, Ermənistanın Xarici işlər naziri cənab Oskanyana da öz fəaliyyətində uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun.

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin ATƏT-in Nazirlər Şurasının 10-cu görüşündə çıxışı

**7 dekabr 2002, Porto, Portuqaliya**

Cənab Sədr,

Mənim ölkəm GUÖAM adından hörmətli Ukrayna Naziri tərəfindən dünən edilən bəyanatı dəstəkləmişdir. Azərbaycan nümayəndəsi kimi mən vəzifəsini tərk edən Nazir Martins da Kruza məndən öncə çıxış etmiş və təşəkkürlərini bildirmiş natiqlərə qoşulur və bizim yeni Sədrimiz, Nazir Yaap de Hoop Şefferi salamlayaraq ona təşkilatımızın üzləşdiyi çoxsaylı tapşırıqların yerinə yetirilməsində müvəffəqiyyətlər arzulayıram.

İlk öncə yeni Avro-Atlantik təhlükəsizlik arxitekturasının qurulmasında yeganə pan-Avropa təşkilatı kimi ATƏT-in gələcəkdə də rol oynaması zərurətinə olan əminliyimizi bir daha təsdiq etmək istərdim. Digər tərəfdən, Avropa təhlükəsizliyinin qarşılaşdığı mürəkkəb problemlərin aradan qaldırılmasında ATƏT-in potensialı və onun real səmərəliliyinin əməli tətbiqinə gəlincə, bizim çox əmin və yaxud həddindən artıq nikbin olmağımız üçün heç bir əsas yoxdur.

Təəssüf ki, ATƏT çərçivəsində aparılan işin həm mahiyyətində, həm də metodunda ciddi çatışmamazlıqların aradan qaldırılması baxımından 2002-ci il daha bir itirilmiş il olmuşdur. Təşkilat öz norma və prinsiplərinin həyata keçirilməsində ardıcıl və müvəffəq olmamışdır. Avropa təhlükəsizliyinin qurulduğu suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmamazlığı kimi fundamental prinsiplər ATƏT regionunda hələ də qorunulmalıdır. Bu, ATƏT ərazisində 10 il davam edən münaqişələrin həll olunmasında olduqca əhəmiyyətlidir. ATƏT-in dəyərlərinin yüksək tutulmasında ardıcıllığın olmamasının ATƏT-in «elastikliyi» ilə heç bir əlaqəsi yoxdur. Biz bu vəziyyətə hələ neçə il dözəcəyik?

Bir sıra regionlarda oxşar problemlərə seçimli yanaşma ATƏT-də üstünlük təşkil etməkdə davam edir. ATƏT-in gündəliyində insan hüquqları ilə bağlı problemlərin həlli haqlı olaraq mühüm yer tutduğu bir halda, iştirakçı dövlətlər ATƏT regionunda milyonlarla qaçqının problemlərinin həll olunması üçün, demək olar ki, hər hansı siyasi məram nümayiş etdirməmişdir. ATƏT regionun bəzi hissələrinə bu təşkilat daha çox diqqət və vəsait ayırdığı halda, digərləri hələ də ATƏT-in gündəliyinin ön xəttində deyildir. Bütün iştirakçı dövlətləri üçün ATƏT-in lazımlığı təmin edilməyincə bu təşkilat getdikcə öz üzvlərinin siyasi dəstəyini itirəcəkdir.

Cənab Sədr,

Şübhəsiz ki, beynəlxalq və regional sülh və təhlükəsizlik üçün terrorizm başlıca təhlükələrdən biridir. Bu, insan həyatını təhlükə altına alan və insan ləyaqətini pozan, ən fundamental insan hüquqlarına ciddi bir təhlükədir. Terror aktları dövlətlərin və regionların sabitliyinə və daimi inkişafına birbaşa mənfi təsir göstərir.

Faciəli 11 sentyabr hadisələri terrorizmin bütün forma və təzahürlərilə mübarizə aparmaq üçün dünya ictimaiyyətinin səylərinin birləşdirməsi vacibliyinin təciliyini bir daha açıq-aydın göstərdi. Bu təhlükənin müxtəlif ölçülərinin baxılmasında ikili standartlar olmamalıdır.

Terrorizmin kökünün kəsilməsi məqsədini güdməklə onun səbəblərinin kökünütapmaq, onun təşkil olunmuş cinayət, həmçinin maliyyə mənbələri ilə əlaqəsini müəyyənləşdirmək lazımdır. Terrorizmi və qanunsuzluğu törədən təcavüzkar millətçilik, zorakı ekstremizm və silahlı separatçılıq kimi amillərə qarşı beynəlxalq ictimaiyyət səmərəli və daimi olaraq iş aparmalıdır. Separatçılar tərəfindən nəzarət altına alınmış və, silah qaçaqmalçılığı, narkotik və insanların alqı-satqısı və qanunsuz yolla yığılmış pulların «yuyulması» da daxil olmaqla, hər cür kriminal fəaliyyət zonalarına çevrilmiş ərazilərdən gələn bir sıra risk və təhlükələrə ciddi diqqət yetirilməlidir.

Cənab Sədr,

Ermənistan və Azərbaycan arasında davam edən silahlı münaqişə təkcə mənim ölkəmin təhlükəsizliyini deyil, həm də bütün region və Avropanın təhlükəsizliyini hədəfə alır. Yarımçıq tədbirlər və gözləyib-baxmaq siyasətinə artıq yer yoxdur. Pisləşən vəziyyət, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası da daxil olmaqla, beynəlxalq ictimaiyyətdən prinsipial yanaşmağı və təcili tədbirlər görməsini tələb edir. Münaqişənin tez həll olunması, nəhayət, ATƏT-in əsas prioritetinə çevriləlidir və bununla əlaqədar biz növbəti Niderland Sədrliyindən ediləsi lazım olan töhvəni gözləyirik.

1992-ci ildən bəri Minsk prosesinin münaqişənin həllində hiss olunan nəticələr verməməsinə baxmayaraq, Azərbaycan qəbul olunmuş beynəlxalq hüquq norma və prinsipləri, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in uyğun sənəd və qərarları əsasında münaqişənin sülh yolu ilə həll olunmasına hələ də sadiq qalır.

Bununla belə, Ermənistanın heç bir illüziyası olmamalıdır – Azərbaycan öz ərazi bütövlüyünü BMT-nin Nizamnaməsi və beynəlxalq hüquq tərəfindən nəzərdə tutulmuş bütün vasitələrlə bərpa edəcəkdir.

Ermənistan Nazirinin dünənki bəyanatı ilə əlaqədar aşağıdakıları qeyd etmək istərdim.

Ermənistannın «sülh, əməkdaşlıq və Azərbaycana uzadılmış dostluq əli» barədə ritorikası ölkəmə qarşı 10 il ərzində aparılan təcavüzdən və Azərbaycan qaçqınlarının pozulmuş hüquqlarından ATƏT-in iştirakçı dövlətlərinin diqqətini yayındırmaq üçün edilən abırsız bir cəhddir. Silahlı yolla Azərbaycan ərazilərini işğal etmiş, bir milyon azərbaycanlını Ermənistandan, Dağlıq Qarabağ regionu və onun ətrafındakı yeddi Azərbaycan rayonundan etnik təmizləmə yolu ilə qovmuş, yüzlərlə Azərbaycan şəhər və kəndlərini qarət etmiş və yandırmış, Ermənistan və Dağlıq Qarabağda olan Azərbaycan tarixi və mədəni obyektlər və abidələrini məhv etmiş Ermənistan, hazırda təcavüzün nəticələrini möhkəmləndirməyə çalışaraq, təbliğat üsullarına əl atır. Belə bir şəraitdə Azərbaycanın beynəlxalq hüquqa əsasən özünü təcavüzdən müdafiə etmək qanuni hüququnu Ermənistan «müharibəni qızışdırmaq» kimi təqdim edir.

Qeyd etmək istərdim ki, Azərbaycan həm çoxtərəfli, həm də ikitərəfli səviyyədə regional əməkdaşlıq konsepsiyasını həmişə dəstəkləmişdir. Mənim ölkəm TRASEKA, GUÖAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və s. kimi regiona yönəlmiş təşəbbüslərin təsisçisi və fəal üzvüdür. Biz yaxın qonşularımız – Gürgüstan, İran, Rusiya və Türkiyə - ilə mehriban qonşuluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq, səmərəli, qarşılıqlı surətdə faydalı çoxtərəfli əməkdaşlığı inkişaf etdiririk.

Ermənistanla əməkdaşlığa gəldikdə, de-fakto müharibə vəziyyətini və Azərbaycan ərazilərinin davam edən işğalını nəzərə alaraq, yalnız münaqişənin həlli Ermənistanla əməkdaşlığımızın bərpa olunmasına zəmin yaradacaq. Ermənistanla bütün iqtisadi əlaqələrin kəsilməsi ölkəmə qarşı aparılan təcavüzkar siyasətin təbii nəticəsidir. Biz həqiqətin üzünə baxmalıyıq: Ermənistan və Azərbaycan əsgərlərini ayıran səngərlər Ermənistanın deyil, ölkəmin ərazisinin daxilində yerləşir və onlar hər hansı bir ikitərəfli səylər üçün çətin ki yaxşı stimul yarada bilsin. Bu, bütün digər münaqişə zonalarında indiyə qədər mövcud olan haldır, və bununla əlaqədar Ermənistan və Azərbaycan arasında olan münaqişənin hər hansı bir istisna təşkil ediləcəyinə inanmağa bizim heç bir əsasımız yoxdur.

Öz müqəddəratını təyin etmək prinsipinin mahiyyətini təhrif etmək məqsədilə Ermənistanın daim göstərdiyi səylər ilə bağlı, icazənizlə, mən Ermənistan Nazirinin diqqətini Helsinki Yekun Aktına və Yeni Avropa üçün Paris Xartiyasına cəlb etmək istərdim. Beynəlxalq hüquqda öz müqəddəratını təyin etmək prinsipi suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin pozulmamazlığı prinsiplərilə birlikdə tətbiq olunur və dinc yolla həyata keçirilir. Azərbaycan ərazisinin Ermənistan tərəfindən hərbi yolla işğal olunduğu bir şəraitdə «müstəqillik» haqqında tələblərin öz müqəddəratını təyin etmək prinsipi ilə heç bir ümumiliyi yoxdur.

Nazirin dirnaqarası «Dağlıq Qarabağ xalqı»na çoxsaylı istinadlarına gəldikdə isə mən «xalq» məfhumunun Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan erməni azlığına aidiyyəti barədə mübahisəni başlamaq niyyətində deyiləm. İcazə verin xatırladım ki, Dağlıq Qarabağ regionunun əhalisi iki icmadan – Azərbaycan və erməni icmalarından ibarətdir. Dağlıq Qarabağ tarixən, sovet dövrü də daxil olmaqla Azərbaycanın bir hissəsi olmuş və heç bir gün də Ermənistanın hissəsi olmamışdır. Dağlıq Qarabağ regionunda bütün azərbaycanlıların evlərindən məcburi qovulması beynəlxalq hüquq baxımından nə regionun Azərbaycanın ayrılmaz hissəsi kimi statusunu dəyişməmiş, nə də erməni icmasının statusunu yüksəltməmişdir.

Ermənistanın özünü Minsk Qrupunun «müdafiəçisi» kimi qələmə vermək məqsədilə etdiyi gülünc cəhdləri ilə əlaqədar Ermənistanın dəfələrlə Minsk Qrupunun təkliflərinin qarşısının almasını qeyd etmək yerinə düşərdi. ATƏT-in 1996-cı ildə keçirilmiş Lissabon Sammitində iştrak etmiş Ermənistan Naziri ATƏT-in bütün iştirakçı dövlətlərinin dövlət və hökumət başçıları tərəfindən dəstəklənən Minsk Qrupunun təkliflərini məhz onun ölkəsi tərəfindən rədd edildiyini xatırlatmaq istəyə bilərdi.

Cənab Sədr,

Ermənistan uzun müddətdir ki, beynəlxalq hüququn norma və prinsiplərinə qarşı gizli müharibə aparır. Bu ölkə tərəfindən ATƏT-in hər hansı bir sənədində ərazi bütövlüyü və sərhədlərin pozulmamazlığı prinsiplərini

tamamilə rədd edilməsi dünən keyfiyyətcə yeni səviyyəyə – beynəlxalq sərhədlərin dəyişdirilməsi barədə açıq çağırışa keçmişdir. Helsinki Yekun Aktının əsas prinsiplərinin sayılmamasına nəhayət cavab verilməlidir.

Təşəkkür edirəm.

# *QANUNLAR*

## *DİPLOMATİK XİDMƏT HAQQINDA*
## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında dövlət qulluğunun bir növü olan diplomatik xidmətin təşkilinin hüquqi əsaslarını, diplomatik xidmətdə olan dövlət qulluqçularının hüquqi vəziyyətini müəyyən edir.

### FƏSIL 1.
### ÜMUMİ MÜDDƏALAR

***Maddə 1. Diplomatik xidmət anlayışı***

1.1. Diplomatik xidmət – Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən müvafiq dövlət orqanlarında vətəndaşların peşəkar fəaliyyətidir.
1.2. Konsul xidməti Azərbaycan Respublikasının Konsul nizamnaməsi əsasında həyata keçirilən diplomatik xidmətin bir növüdür.

***Maddə 2. Diplomatik xidmət orqanlarının sistemi***

2.1. Diplomatik xidmət orqanlarının vahid sistemini Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanının fəaliyyətini təmin etmək üçün yaradılan yardımçı təşkilatlar, Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanının təhsil müəssisələri təşkil edir.
2.2. Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı Azərbaycan Respublikasmın diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edir.

***Maddə 3. Diplomatik xidmət orqanlarının vəzifələri***

3.1. Diplomatik xidmət orqanlarının əsas vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının xarici siyasətinin konsepsiyası və əsas istiqamətləri üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanına təqdim edilməsi;

3.1.2. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinin təmin edilməsi;

3.1.3. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərində vahid siyasət xəttinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə digər müvafiq İcra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;

3.1.4. Azərbaycan Respublikasının suverenliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünlin və sərhədlərinin toxunulmazlığının, onun siyasi, iqtisadi və digər sosial maraqlarının diplomatik üsul və vasitələrlə təmin olunması;

3.1.5. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına diplomətik üsul və vasitələrlə kömək göstərilməsi;

3.1.6. Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüqıqi şəxslərinin xaricdə hüquq və maraqlarının müdafiə olunması;

3.1.7. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla diplomatik və konsul əlaqələrinin həyata keçirilməsi;

3.1.8. Azərbaycan Respublikası dövlət protokolunun təmin edilməsi.

3.2. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq digər vəzifələri də həyata keçirə bilər.

***<u>Maddə 4. Diplomatik xidmət orqanlarının funksiyaları</u>***

4.1. Diplomatik xidmət orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

4.1.1. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil edilməsi;

4.12. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla iqtisadi, sosial, elmi-texniki, mədəni və başqa sahələrdə əməkdaşlığının inkişafına kömək göstərilməsi;

4.1.3. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla danışıqlarının aparılmasının və beynəlxalq müqavilələrin imzalanmasının təşkili;

4.1.4. yüksək dövlət və hökumət səviyyələrində dövlətlərarası mübadilələrin protokol təminatı;

4.1.5. xaricdə yaşayan həmvətənlərlə əlaqələrin inkişafına kömək göstərilməsi;

4.1.6. diplomatik və konsul imtiyaz və immunitetlərinin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsi;

4.1.7. Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında informasiyanın Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri vasitəsilə xaricdə yayılmasının təmin edilməsi;

4.1.8. Azərbaycan Respublikasının dövlət orqanlarının və Azərbaycan Respublikasında mövcud olan kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasının beynəlxalq vəziyyəti və xarici siyasəti haqqında məlumatlandırılması;

4.1.9. Azərbaycan Respublikasının ərazisindəki diplomatik nümayəndəliklərin və konsulluqların fəaliyyətinə kömək göstərilməsi, öz səlahiyyətləri çərçivəsində onlara xidmət göstərən təşkilatların fəaliyyətinə nəzarət edilməsi;

4.1.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qeydiyyatı, uçotu və saxlanması üzrə vahid dövlət sisteminin fəaliyyətinin təmin edilməsi;

4.1.11. Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilələrin depozitarisi funksiyalarının həyata keçirilməsi;

4.1.12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsi;

4.1.13. Xarici siyasət və beynəlxalq münasibətlər sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdirilməsinə və bu qanunvericiliyin Azərbaycan Respublikasının beynəlxalq hüquqi öhdəliklərinə uyğunlaşdırılmasına dair təkliflərin hazırlanması.

4.2. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq digər funksiyaları da həyata keçirə bilər.

***Maddə 5. Diplomatik xidmət orqanlarının rabitə, arxiv və təhlükəsizlik təminatı***

5.1. Diplomatik xidmət orqanlarının sərəncamında müstəqil rabitə sistemi və arxiv vardır.

5.2. Diplomatik xidmət orqanlarının arxivində beynəlxalq müqavilələrin əsli və təsdiq edilmiş surətləri, habelə həmin orqanların fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan digər materiallar saxlanılır.

5.3. Diplomatik xidmət orqanları xüsusi kuryer xidmətindən istifadə edir.

5.4. Diplomatik xidmət orqanları qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində və xaricdə öz təhlükəsizlik sistemini təşkil edir.

## FƏSİL II.
## DİPLOMATİK XİDMƏT ƏMƏKDAŞLARI

***Maddə 6. Diplomatik vəzifələr***

6.1. Diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər diplomatik xidmət əməkdaşlarıdırlar.

6.2. Diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər diplomatik xidmət əməkdaşlarına aid deyildirlər. Həmin şəxslərin hüquqi statusu və ixtisas dərəcələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

6.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları üçün aşağıdakı vəzifələr müəyyən edilir:

6.3.1. Fövqəladə və səlahiyyətli səfir; Azərbaycan Respublikasının beynəlxalq təşkilatlardakı daimi nümayəndəsi;

6.3.2. baş konsul;

6.3.3. müşavir-elçi; daimi nümayəndənin müavini;

6.3.4. müşavir;

6.3.5. konsul;

6.3.6. birinci katib;

6.3.7. vitse-konsul;

6.3.8. ikinci katib;

6.3.9. üçüncü katib;

6.3.10. attaşe.

6.4. Azərbaycan Respublikasının ərazisindəki diplomatik xidmət orqanlarında işləyən diplomatik xidmət əməkdaşlarının vəzifələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

6.5. Diplomatik xidmət əməkdaşları diplomatik xidmət orqanlarından Azərbaycan Respublikasının digər dövlət orqanlarına vəzifəyə keçirildikdə, onlar müvafiq İcra hakimiyyəti orqanının ehtiyatına daxil edilirlər. Ehtiyata daxil etmə ilə bağlı qaydalar müvafiq İcra hakimiyyəti orqanı tərəfindən edilir.

***<u>Maddə 7. Diplomatik vəzifələrə təyin edilmə</u>***

7.1. Diplomatik vəzifələrə ali təhsilli və xarici dil bilən Azərbaycan Respublikasının vətəndaşları təyin edilirlər.

7.2. Diplomatik xidmət orqanlarında vəzifələrə təyin edilmə və vəzifələrdən azad edilmə qaydaları, habelə vəzifə tutan şəxslərə dair tələblər Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ hüquqi aktları ilə, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.

7.3. Xaricdə işlədikdən sonra Azərbaycan Respublikasına qayıdan diplomatik xidmət əməkdaşı, xaricdə tutduğu vəzifə nəzərə alınmaqla, diplomatik xidmət orqanlarında müvafiq vəzifəyə təyin edilir.

***Maddə 8. Diplomatik rütbələr***

8.1. Diplomatik xidmət əməkdaşlarına, tutduqları vəzifə və ixtisasları nəzərə alınmaqla, aşağıdıkı diplomatik rütbələr verilir:
8.1.1. Fövqəladə və səlahiyyətli səfir;
8.1.2. birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;
8.1.3. ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;
8.1.4. birinci dərəcəli müşavir;
8.1.5. ikinci dərəcəli müşavir;
8.1.6. birinci dərəcəli birinci katib;
8.1.7. ikinci dərəcəli birinci katib;
8.1.8. birinci dərəcəli ikinci katib;
8.1.9. ikinci dərəcəli ikinci katib;
8.1.10. üçüncü katib;
8.1.11. attaşe.
8.2. Diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

***Maddə 9. Diplomatik rütbələrin verilməsi qaydaları***

9.1. Fövqəladə və səlahiyyətli səfir, birinci və ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndinə müvafiq olaraq verilir.
9.2. Digər diplomatik rütbələrin verilməsi qaydaları müvafiq İcra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
9.3. Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi, bir qayda olaraq, diplomatik xidmətdə tutduğu vəzifəyə uyğun olmalı, yaxud ondan bir pillə yuxarı və ya aşağı olmalıdır.
9.4. Diplomatik rütbələrin verilməsi barədə əmək kitabçasında (xidmət siyahısında) müvafiq qeyd aparılır. Diplomatik rütbələr ömürlük verilir.

***Maddə 10. Diplomatik rütbələrdə olmanın müddətləri***

10.1. Diplomatik xidmət əməkdaşları üçün diplomatik rütbələrdə olmanın aşağıdakı müddətləri müəyyən edilir:
10.1.1. attaşe, üçüncü katib, ikinci və birinci dərəcəli ikinci katib üçün – 2 il;
10.1.2. ikinci və birinci dərəcəli birinci katib, ikinci dərəcəli müşavir üçün – 3 il;
10.2. Birinci dərəcəli müşavirdən başlayaraq yuxarı diplomatik rütbələrdə olma müddəti müəyyən edilmir.

10.3. Diplomatik xidmət əməkdaşlarının diplomatik rütbələrdə olma müddətlərinə aşağıdakılar daxildir:

10.3.1. müvafiq İcra hakimiyyəti orqanında və onun yardımçı təşkilatlarında iş;

10.3.2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və kosulluqlarında iş;

10.3.3. keçmiş SSRİ-nin və müttəfiq respublikaların xarici işlər orqanlarında iş;

10.3.4. beynəlxalq təşkilatlarda iş;

10.3.5. müvafiq İcra hakimiyyəti orqanının ali təhsil və elmi müəssisələrində elmi və pedaqoji fəaliyyət müddəti;

10.3.6. müvafiq İcra hakimiyyəti orqanının göndərişi əsasında həyata keçirilən ixtisasartırma müddəti;

10.3.7. ali təhsil müəssisələrinə, aspiranturaya (dokturanturaya) müvafiq İcra hakimiyyəti orqanı tərəfindən göndərilənlərin təhsil müddəti.

***Maddə 11 . Dlplomatik rütbənin vaxtından əvvəl və növbədənkənar verilməsi, aşağı salınması, məhrum edilməsi və bərpa olunması***

11.1. Diplomatik xidmət əməkdaşlarının rütbələri, işlərində mühüm nailiyyətlərin və ya xüsusi xidmətlərin olduğu hallarda, müəyyən edilmiş müddətin başa çatmasından əvvəl və ya növbədənkənar artırıla bilər.

11.2. Azərbaycan Respublikasının və olduqları dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, diplomatik xidmət əməkdaşlarının rütbələri aşağı salına və ya onlar öz rütbələrindən məhrum edilə bilərlər.

11.3. Diplomatik xidmət əməkdaşının rütbədən məhrum edilməsi və ya onun rütbəsinin aşağı salınması, rütbənin verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

11.4. Diplomatik xidmət əməkdaşının əvvəlki rütbəsinin bərpa olunmasına yalnız həmin əməkdaş qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti attestasiyadan keçdikdən sonra yol verilir.

## FƏSİL III.
## DİPLOMATİK XİDMƏT KEÇMƏ

***Maddə 12. Diplomatik xidmət əməkdaşlarının vəzifə yerdəyişmələri və vəzifələrinin əvəz edilməsi***

12.1. Diplomatik xidmət əməkdaşlarının vəzifə yerdəyişmələri ixtisas, peşə hazırlığı və rotasiya prinsipləri nəzərə alınmaqla, xidməti zərurətlə əlaqədar həyata keçirilir.

12.2. Vakant vəzifələrin əvəz edilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

***Maddə 13. Diplomatik xidmət əməkdaşlarının rotasiyası***

13.1. Diplomatik xidmət orqanlarında əməkdaşların rotasiyası Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.
13.2. Rotasiya çərçivəsində diplomatik xidmət əməkdaşları, peşəkar hazırlıqları və ixtisasları nəzərə alınmaqla, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə təyin oluna və ya öz fəaliyyətlərini müvafiq İcra hakimiyyəti orqanında həyata keçirə bilərlər.
13.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya kosulluğunda fəaliyyəti başa çatmış diplomatik xidmət əməkdaşı yenidən diplomatik nümayəndəliyə və ya konsulluğa işə təyin olunmazdan əvvəl müvafiq İcra hakimiyyəti orqanında, bir qayda olaraq, azı bir il işləməlidir.
13.4. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinin başçısı təyin olunmuş şəxsin müvafiq dövlətdə və ya beynəlxalq təşkilatda fasiləsiz iş müddəti, bir qayda olaraq, beş ildir. Bu müddət Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən uzadıla bilər.
13.5. Digər diplomatik xidmət əməkdaşlarının müvafiq diplomatik nümayəndəliklərdə və ya konsulluqlarda fasiləsiz iş müddəti üç ildən artıq olmamalıdır. Bu müddət, xidməti zərurətlə əlaqədar və diplomatik xidmət əməkdaşının razılığı ilə müvafiq İcra hakimiyyəti orqanı tərəfindən bir ildən artıq olmayan müddətə uzadıla bilər.
13.6. Diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə getməkdən üzürlü səbəblər olmadan imtina etməsi intizam pozuntusu hesab edilir və intizam tənbeh tədbirinin tətbiqi üçün əsasdır.

***Maddə 14. Xidməti attestasiya***

14.1. Diplomatik xidmət əməkdaşları qanunvericiliklə müəyyən edilmiş qaydada üç ildə bir dəfədən çox olmayaraq xidməti attestasiya keçirlər.
14.2. Diplomatik nümayəndəliyə və ya konsulluğa işə təyin olunmuş diplomatik xidmət əməkdaşları xidməti attestasiyanı Azərbaycan Respublikasına qayıtdıqdan sonra keçirlər.
14.3. Xidməti attestasiyanın keçirilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

***Maddə 15. Diplomatik xidmət əməkdaşlarının ali təhsil və elm müəssisələrinə göndərilməsi***

15.1. Diplomatik xidmət əməkdaşları öz razılıqları ilə peşəkar hazırlıq və ixtisasartırma və yaxud elmi tədqiqat aparılması üçün Azərbaycan Respublikasında və ya digər ölkələrdə yerləşən ali təhsil və elmi müəssisələrə müvəqqəti olaraq göndərilə bilərlər.

15.2. İxtisasartırma və ya elmi ezamiyyət başa çatdıqdan sonra diplomatik xidmət əməkdaşı əvvəl tutduğu vəzifədən aşağı olmayan diplomatik vəzifəyə təyin edilir.

***Maddə 16. Diplomatik xidmət əməkdaşlarının imtiyaz və immunitetləri***

16. Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları xaricdə işlədikləri dövrdə beynəlxalq hüquq normalarına uyğun olaraq diplomatik heyətin üzvləri üçün müəyyən olunmuş imtiyaz və immunitetlərdən istifadə edirlər.

***Maddə 17. Diplomatik xidmət əməkdaşlarınm vəzifələri***

17. Diplomatik xidmət əməkdaşları xaricdə işlədikləri dövrdə olduqları dövlətin qanun və qaydalarına hörmət bəsləməyə, üzərlərinə qoyulmuş vəzifələri yerinə yetirməyə, Azərbaycan Respublikasını layiqincə təmsil etməyə borcludurlar.

***Maddə 18. Diplomatik xidmət əməkdaşlarının geri çağırılması***

18.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının və ya olduqları dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvenciliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.
18.2. Diplomatik xidmət əməkdaşlarının vaxtından əvvəl geri çağırılmasına, onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsirli bilinməsi də əsas ola bilər.

***Maddə 19. Diplomatik xidmət əməkdaşlarının məsuliyyəti***

Diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda və qaydada məsuliyyətə cəlb oluna bilərlər.

## FƏSİL IV.
## DİPLOMATİK XİDMƏTİN TƏCHİZATI, TƏMİNATLAR VƏ ÖDƏMƏLƏR, DİPLOMATİK XİDMƏT ƏMƏKDAŞLARININ MADDİ VƏ SOSİAL TƏMİNATI

### ***Maddə 20. Diplomatik xidmətin maliyyə təminatı və maddi-təsərrüfat təchizatı***

20.1. Diplomatik xidmət orqanları sisteminin vahid maliyyə təminatı dövlət büdcəsinin vəsaitləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada digər mənbələr hesabına həyata keçirilir.

20.2. Diplomatik xidmət orqanlarının fəaliyyətinin maddi-təsərrüfat təchizatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

20.3. Diplomatik xidmət orqanlarının Azərbaycan Respublikasının ərazisində və xaricdə dövlət mülkiyyətində olan əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

### ***Maddə 21. Diplomatik nümayəndəliklərdə işlədikləri dövrdə diplomatik xidmət əməkdaşlarına verilən təminatlar və kompensasiyalar***

21.1. Diplomatik xidmət əməkdaşlarına və onların ailələrinə təminatlar, xidmət şəraitinin mürəkkəbliyi, xidmət keçməklə bağlı risk, habelə müvafiq xarici dövlətin spesifik xüsusiyyətləri nəzərə alınmaqla verilir.

21.2. Diplomatik xidmət əməkdaşları və onların ailə üzvləri müvafiq tibbi xidmətlə təmin olunurlar.

21.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə təyin olunan, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda fəaliyyətini başa çatdırıb Azərbaycan Respublikasına qayıdan diplomatik xidmət əməkdaşının və onun ailə üzvlərinin müvafiq nəqliyyat xərcləri dövlət hesabına ödənilir.

21.4. Ödənilən illik məzuniyyət və ya ailə üzvlərindən birinin ölümü ilə əlaqədar, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya kosulluğunda işləyən diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasına gəlməsi və işlədiyi dövlətə qayıtması üçün nəqliyyat xərcləri müvafiq qaydada ödənilir.

21.5. Diplomatik xidmət əməkdaşı və onunla birlikdə yaşayan ailə üzvləri, onun tutduğu vəzifə və yerli şərait nəzərə alınmaqla, xaricdə yaşayış yeri ilə təmin olunmalıdırlar.

21.6. Diplomatik xidmət əməkdaşının ümumtəhsil məktəbində oxuyan ailə üzvlərinin təhsil haqqı dövlət tərəfindən ödənilir.

21.7. Hərbi və ya mülki münaqişələr və yaxud təbii fəlakətlər və digər fövqəladə hallar baş verdikdə, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsulluqlarının və onların heyətinin təhlükəsizliyi üçün gorxu yarandıqda, müvafıq İcra hakimıyyətı orqanları diplomatik xidmət əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin olunması və qorunması üçün zəruri tədbirlər görür.
21.8. Xaricdə işlədiyi dövrdə öz xidməti vəzifələrini yerinə yetirərkən diplomatik xidmət əməkdaşına və ya onun ailə üzvlərinə dəymiş zərər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.
21.9. Diplomatik xidmət əməkdaşlarının xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın müvafiq İcra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük rüsumu tutulmur.
21.10. Bu maddənin müddəaları diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə də şamil olunur.
21.11. Bu maddədə nəzərdə tutulmuş təminat və kompensasiyaların verilməsi Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan qaydalarla tənzimlənir.

***Maddə 22. Diplomatik xidmət əməkdaşlarının əmək münasibətlərinin tənzimlənməsi***

Diplomatik xidmət əməkdaşlarının əmək münasibətləri "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, bu Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə tənzimlənir.

***Maddə 23. Diplomatik xidmət əməkdaşlarının əməyinin ödənilməsi***

23.1. Azərbaycan Respublikasının ərazisində işləyən diplomatik xidmət əməkdaşlarının əməyinin ödənilməsi Azərbaycan Respublikasının qanunve-riciliyinə uyğun olaraq həyata keçirilir.
23.2. Xaricdə işləyən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin əməyinin ödənilməsi, habelə maddi və maliyyə təminatı, olduqları dövlətin sosial-iqtisadi və maddi-məişət şəraiti nəzərə alınmaqla, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.
23.3. Rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanında aldıqları əmək haqqının 50 faizi saxlanılır.

***Maddə 24. Diplomatik xidmət əməkdaşlarının mükafatlandırılması***

Diplomatik xidmət əməkdaşlarının mükafatlandırılması Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları əsasında həyata keçirilir.

***Maddə 25. Diplomatik xidmət əməkdaşlarının məzuniyyətləri***

25.1. Diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər.
25.2. Xaricdə işləyən diplomatik xidmət əməkdaşlarına və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə, əmək şəraiti və əmək funksiyalarının xüsusiyyətləri nəzərə alınmaqla, əlavə məzuniyyət verilə bilər.

***Maddə 26. Diplomatik xidmət əməkdaşlarnıın pensiya təminatı və sosial müdafiəsi***

26.1. Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin pensiya təminatı və sosial müdafiəsi Azərbaycan Respublikası qanunvericiliyinə uygun olaraq həyəta keçirilir.
26.2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin və onlarla birlikdə yaşayan ailə üzvlərinin icbari tibbi sığortası dövlət hesabına həyəta keçirilir.
26.3. Bu müddəalar müvafiq İcra hakimiyyəti orqanı tərəfindən ali təhsil müəssisələrinə, aspiranturaya (doktoranturaya) və elmi müəssisələrə göndərilənlərə də şamil edilir.

**Heydər ƏLİYEV,**
***Azərbaycan Respublikasının***
**Prezidenti.**

Bakı şəhəri, 8 lyun 2001-cl il.
"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

**AZƏRBAYCAN RESPUBLIKASI PREZİDENTINІN FƏRMANI**

*"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə qərara alıram:*

1. Azərbaycan Respublikası Nazirlər Kabineti iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafıq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlannın həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.2.-ci maddəsində nəzərdə tutulmuş diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin Qanunun 21-ci maddəsində nəzərdə tutulmuş təminat və kompensasiyaların verilməsi qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin Qanunun 21.7.-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanlarfnın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- öz səlahiyyətləri daxilində "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:
- "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 3.1.1-ci və 13.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;
- həmin Qanunun 8.2-ci, 21.9-cu və 21.11-ci maddələrində nəzərdə tutulmuş "Müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

- həmin Qanunun 2.1-ci, 2.2-ci, 6.5-ci, 9.2-ci, 10.3.1-ci, 10.3.5-ci, 10.3.6-cı, 10.3.7-ci, 13.1-ci, 13.2-ci, 13.3-cü, 13.5-ci, 23.3-cli və 26.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 sentyabr 2001-ci il.**

# *MƏQALƏLƏR*



***HİCRAN HÜSEYNOVA***
***Bakı Dövlət Universitetinin***
***«Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» fakültəsinin***
***magistratura üzrə dekan müavini,***
***siyasi elmlər doktoru***

## ***GEOSİYASƏT VƏ İNTEQRASİYA***

Beynəlxalq münasibətlərə dair mövcud tədqiqatların demək olar ki, hamısında geosiyasətin məzmun və mahiyyətindən bəhs edərkən onun siyasət və məkan komponentlərini ayırır, siyasi qiymətin ölkənin və ya xalqın coğrafi yerləşməsi ilə bağlı nəticələri ümumiləşdirilir. Geosiyasətin dualist xarakteri – siyasət və məkan komponentləri beynəlxalq münasibətlərin, cəmiyyətin, nəhayət materiyanın özünün dualist xarakterilə bağlıdır desək, - yəqin ki, səhv etmərik. Ayrı-ayrılıqda siyasət və məkan anlayışları kifayət qədər geniş və mücərəddirlər. Konkret şəraitə və ya reallıqlara tətbiq edildikdə isə geosiyasət «monado» təlimi («monas» yunanca vahid və ya bölünməz mənasındadır) kimi çıxış edir. İkinci dünya müharibəsindən sonra meydana gəlmiş «Yalta» və ya «San-Fransisko» dünya qaydaları məhz geosiyasətin hüquqi, praktiki bərkintisi idi. Bu baxımdan forma, mahiyyət və məzmunca tamamilə başqa olmalarına baxmayaraq inteqrasiya geosiyasətin törəməsi kimi çıxış edir.

«İnteqrasiya» terminini elmi dövriyyəyə ilk dəfə gətirən alman alimi Q.Leybnits hesablamanın riyazi inteqral

üsulunun mahiyyətini açmış və kiçik kəmiyyətlərin inteqrallaşması yolu ilə yaranan nisbi böyük inteqralların sonsuzluğu nəticəsinə gəlmişdi. Fəlsəfi baxımdan bərpaetmə, tamamlama kimi qiymətləndirilən «inteqrasiya» anlayışı «müxtəlif elementlərin tamda birləşdirilməsini» ehtimal edirdi ki, bu mənada inteqrasiyanın dualizmi çoxkomponentliyi ilə seçilir. Bu komponentlərin başlıqlarından biri «məkandır» ki, həmin «məkan» geosiyasətin mühüm elementlərindən biridir. Dünyada gedən inteqrasiya proseslərinin geosiyasətlə sıx əlaqəsini nəzərə alsaq (geosiyasət «məkanı» ilə inteqrasiya «məkanının» üst-üstə düşməsi) inteqrasiyanı ikinci dünya müharibəsindən sonrakı geosiyasətin nəticəsi kimi qiymətləndirə bilərik. Müasir qərb və rus geosiyasət məktəblərində dominonluq edən «avromərkəz dünya», «Avro-Asiya» konsepsiyalarının demək olar ki, hamısı geosiyasətin inteqrasiya modelinə həsr olunmuşdur ki, bunlarda üç məkan nəzərdə tutulur: Avropa, Asiya, Rusiya.

Fransa nəzəri məktəbləri «kontinental geosiyasət» konsepsiyasından bəhs edərkən onun başlıca məqsədini «böyük məkan» olduğunu qeyd edirlər. Belə «böyük məkan» isə «Federal İmperiya» olmalıdır. Əgər XX yüzilliyin 90-cı illərinə qədər belə «Federal məkan» Qərbi Avropa idisə, 90-cı illərdən sonra belə məkana Rusiya, habelə Çinə qədər bütün Asiya (o cümlədən Qafqaz) daxil edilməsi idi. Bu isə inteqrasiyanın məkanca genişlənməsi, geosiyasətin qloballaşması deməkdir. Dərindən diqqət yetirsək geosiyasətin məkanca genişlənməsini «Qərbi Avropa təhlükəsizlik sisteminin Şərqə doğru genişlənməsində (NATO-ya üç keçmiş «sosialist» dövlətinin qəbulu) axtarmağın zəruriliyini görərik. Belə genişlənmə praktiki (yeni üzvlərin qəbulu) və «üzvlüyə namizədlərin hazırlanması» («Sülh naminə tərəfdaşlıq») istiqamətlərində gedir.

İnteqrasiyanın «Qərbi Avropa» və «Cənub Şərqi Asiya» modelləri «soyuq müharibənin» yetirmələri idi. Dünyada gedən qloballaşma prosesləri həmin modellərin də həcmcə genişlənməsini şərtləndirmiş oldu: «Qərbi Avropa» modeli Ümumavropa təhlükəsizlik sisteminə çevrildi və Cənubi Qafqaz bölgəsini də ağuşuna aldı; «Cənub-Şərqi Asiya» modeli isə Asiya-Sakit okean əməkdaşlığına çevrildi və Şimali-Şərqə doğru genişlənməyə başladı.

Müasir geosiyasi məktəblərdə mühüm yer tutan Avropa-Çin alyansı konsepsiyası fikrimizcə aşağıdakı üç məqsədi reallaşdırmağı nəzərdə tutur:

1) Avropanın Rusiyanın sərhədlərinədək genişləndirilməsi;
2) Avropa-Çin alyansının yaradılması;
3) Cənubi Qafqaz bölgəsinin yüksəlişi və onun müasir Avrasiya (TRASEKA) tranzit yolunun üzərində «qızıl korpüyə» çevrilməsi.

Regionumuzla bağlı olan Avropa-Çin alyansı konsepsiyası strateji baxımdan bir neçə məqsəd güdür ki, bunların içərisində konturları cızılmaqda olan Rusiya-Çin alyansının yaradılmasına imkan verməmək öndə gedir. Bir qayda olaraq geostrategiyaya illər, onilliklər zaman baxımından olduqca qısa müddətdir. Təsadüfi deyildir ki, ABŞ, Avropa İttifaqı və Avropa Şurası tərəfindən irəli sürülmüş proqram və layihələr heç olmasa yarıməsrlik dövr üçün nəzərdə tutulmuşdur. Beynəlxalq terrorizmin bəşəriyyəti hədələdiyi bir dövrdə həmin

layihələrin əhəmiyyəti daha da artmışdır. İndi Qərb bu istiqamətdə Qərb demokratiyasının formalaşması yönümündə ciddi iş aparır, bu məqsədlərə külli miqdarda kapitallar xərclənir.

Avropanın Rusiya sərhədlərinə qədər genişlənməsi problemi Rusiyanın dualist münasibətini ziddiyyətli etmişdir. Qərb nəzəri məktəblərinin Avropa «Atlantikadan Uraladək» tezisi Rusiya-Avropa münasibətlərinin uzaq gələcəyinə nikbin proqnozları əks etdirir. Lakin Rusiyada həm bu proseslərdən kənarda qalmamaq, həm də «soyuq müharibə» dövrünün sovet Rusiyasına çevrilmək istiəyində olmaq özünü ciddi şəkildə büruzə verir ki, bu, istər-istəməz Qərb geostrategiyası üçün ciddi problemlər yaradır. Avropa-Çin alyansı ideyası məhz həmin narahatlığın təzahürüdür.

Nəhayət, bütün qlobal layihələrdə mühüm yer tutan, Avropa ilə Şərqi bir-birinə birləşdirən Cənubi Qafqaz regionu geosiyasət inteqrasiya cütlüyündə xüsusi əhəmiyyətə malikdir. Bu günkü Qərb strategiyası regionun Rusiyanın siyasi və iqtisadi təsirindən tamamilə azad olmağa istiqamətlənməlidir. Biz vaxtilə qeyd etmişdik ki, Azərbaycan demokratiyasının məqsədyönlü mübarizəsinin nəticəsində Qərbin Azərbaycana maraqları olduqca artmışdır ki, bu NATO-nun Şərqə doğru genişlənməsində özünü bariz şəkildə nümayiş etdirir. Belə ki, 1993-cü ilin sonlarında NATO-nun Cənub-Qərb komandanlığının fəaliyyət dairəsinin genişləndirilməsi, Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionunun bu komandanlığının məsuliyyət zonasına aid edilməsi qərara alındı ki, həmin qərar Rusiya-Ermənistan alyansı tərəfindən ciddi narahatlıqla qarşılandı. Bir qədər sonra Azərbaycan Avropa Şurasında fəxri qonaq statusu aldı (1996-cı ilin iyununda), 2000-ci ilin yanvarında isə onun üzvləri sırasına qəbul edildi. Geosiyasət prizmasından baş vermişləri təhlil etsək, Avropa inteqrasiyasının məkanca Xəzər dənizi hüdudlarınadək genişlənməsi nəticəsini almış olarıq. Məhz belə zəmində əldə olunmuşların dönərsizliyini təmin etmək məqsədilə əvvəlcə «Qafqaz evi» ideyası, bir qədər sonra isə GUÖAM ideyası yaradıldı. Şübhəsiz Qərbin Şərqə doğru belə sürətlə genişlənməsi Rusiyanın geosiyasi maraqlarına ciddi təhlükə yaratdığı üçün Rusiyanın qlobal gedişi gözlənilməli idi. Gözümüzün önündəcə «Aşqabad beşliyi» «Şanxay altılığına» çevrilməyə, bu yeni birliyin müxtəlif aspektlərdəki konturları cızılmağa başladı. Dünyada baş verənləri 1990-cı ildə heç bir cəsarətli politoloq, diplomat proqnozlaşdıra bilməzdi. Baş verməkdə olan proseslərin belə sürətlə genişlənməsi bizə həm regionumuzun gələcəyi, həm də inteqrasiyasının perspektivlərinə nikbinliklə baxmağa imkan verir.

Qərbin məkanca genişlənməsi (inteqrasiya prosesləri) şübhəsiz Xəzər dənizi ilə hüdudlaşmayacaq, yaxın onillik dövr ərzində Mərkəzi Asiya dövlətləri də bu proseslərdə aktual iştirak edəcəklər. Çünki Avropa inteqrasiyası iqtisadi modellər və proqramlar vasitəsilə (Rusiyadan fərqli olaraq) genişlənməkdədir. Bu isə onu deməyə əsas verir ki, MDB, «Şanxay altılığı» ən yaxşı halda transformasiya olunmağa məhkumdurlar.

Nəhayət, Cənubi Qafqaz bölgəsi ilə bağlı geosiyasət-inteqrasiya cütlüyünün enerji tərəfi də vardır. Regionun enerji ehtiyatları barəsində kifayət qədər müzakirələr getmiş və getməkdədir. Təkcə belə bir faktı qeyd etmək yerinə düşər ki, İran, İraq və Livanda birlikdə 250 mlrd barel yanacaq ehtiyatı vardır. Ancaq Xəzər hövzəsində bu göstərici 33-50 mlrd. ton arasındadır. Təsadüfi deyildir ki, yanacaq ehtiyatlarının miqdarına görə, Xəzər

hövzəsi Səudiyyə Ərəbistanından sonra ikinici yerdə gedir. Bu isə region uğrunda geosiyasi mübarizəyə stimul verən başlıca faktorlardan biridir, həm regionun, həm də dünyanın nəhəng dövlətlərinin bölgə uğrunda geosiyasi mübarizəsinə rəvac verən budur. Neft uğrunda gedən mübarizə nəinki geosiyasi mübarizəni kəskinləşdirmiş, habelə inteqrasiya proseslərinə də güclü təkan vermişdir. Hələ 1995-ci ildə BMT-nin yaradılmasının 50 illiyi ilə bağlı keçirilən təntənələrdə keçmiş Rusiya və ABŞ prezidentləri B.Yeltsin və B.Klinton arasında narazılıq məhz Azərbaycan məsələsinin gələcəyi üstündə baş vermişdi.

Qeyd etmək yerinə düşərdi ki, Xəzər neftinin istismarına cəlb olunmuş neft şirkətlərinin hamısı öz dövlətlərinin təmsilçiləridir. «Vaşinqton post» qəzeti yazırdı ki, «Amerikada siyasi həyatın reallıqlarından biri belədir: ABŞ-ın neft şirkətlərinin siyasəti dövlətin siyasəti ilə üst-üstə düşür». Bu isə geosiyasətin «alfa» və «omeqasıdır». Qəzet daha sonra yazırdı ki, «ABŞ-ın neft şirkətləri ilk növbədə ölkənin milli maraqlarını əks etdirən neft müqavilələrini 50-60 il əvvəl bağlayırlar. Analoji mövqe digər dövlətlərdə də özünü göstərir. Enerji ehtiyatlarının bölüşdürülməsi uğrunda diplomatik mübarizənin gedişində geosiyasi faktor iştirakçıların və tərəfdaşların sayını dəqiqləşdirdi. İranın «kondominimum» konsepsiyasından əlavə, Xəzərin bölgüsündə say nisbəti təqribən aşağıdakı kimi ola bilərdi:

- Azərbaycan – 19%-dən çox;
- Qazaxıstan -29%
- İran –14%
- Rusiya – 19%-ə yaxın
- Türkmənistan –19%-dən çox.

Məlum olduğu kimi, keçmiş SSRİ ilə İran arasında imzalanmış 1921-ci il və 1940-cı il müqavilələri iki dövlət arasında su sərhədlərini də dəqiq müəyyənləşdirmişdi. Belə şəraitdə İranın «kondominumum» konsepsiyası ilə (Xəzərətrafı ölkələrə bərabər miqdarda pay ayrılması) çıxış etməsi ən azı Azərbaycan və Türkmənistandan pay ummaq, ən yüksəyi isə hər ikisi respublikaya qarşı mənəvi təcavüzdür.

Enerji faktoru Cənubi Qafqazda geosiyasət inteqrasiya cütlüyünə rəvac verməklə yanaşı, həm də regional stabilliyi və regional əməkdaşlığı (inteqrasiyanı) şərtləndirən ən əhəmiyyətli şərtlərdən biridir. Amerikan politoloqlarından birinin dediyi kimi, əgər «Cənubi Qafqazda sabitlik olarsa, neft hamıya çatar» ifadəsi bu günümüzün reallıqları ilə olduqca incə şəkildə uzlaşır.

Əsrlərin qovuşağında inteqrasiya prosesləri geostrategiya və geosiyasətdə mühüm rol oynamaqdadır, çünki son məqsəd dünyanın harmonik inkişafı, onun bölünməzliyi və tamlığıdır.



***МАХИР ХАЛИФА-ЗАДЕ***

***I секретарь отдела стран Среднего Востока и Южной Азии Второго Территориального Управления Министерства Иностранных Дел Азербайджанкой Республики.***

***Кандидат наук***

## *ПОЛИТИКА США В АЗИИ*

Начиная с середины 90-х годов прошлого столетия во внешней политике США можно наблюдать определенные тенденции смещения фокуса стратегических интересов США в сторону Азиатского континента. Следует отметить, что ряд фундаментальных причин служат определенной причиной подобного сдвига центра стратегического «внимания» Соединенных Штатов.

Так, еще в 1998 году специалисты из Пентагона подготовили специальный доклад, в котором оценивались потенциальные угрозы доминированию США в мире и, в этой связи, рассматривались основные положения новой военной доктрины США.

В частности приводились оценки, согласно которым общая политическая обстановка в мире на ближайшие 10-15 лет охарактеризовывалась как период стратегической паузы, где появление сверхдержавы способной бросить вызов глобальной мощи США (как это сделал в свое время СССР) оценивалось как маловероятное. В то же время при рассмотрении на обозримое будущее вероятности возникновения в том или ином геополитическом регионе силы способной бросить вызов мощи США отмечалось, что такая угроза может исходить из Азии. Подобный вывод аргументировался тем, что Азия представляет собой наиболее динамично развивающийся континент с крупнейшими экономическими, природными, людскими, интеллектуальными и военными ресурсами, которые могут быть использованы для формирования силы способной бросить вызов мощи Соединенных Штатов. Подчеркивалось, что Азия – это континент, где может возникнуть сила способная конкурировать с американской мощью в глобальном масштабе[1].

В то же время по мнению бывшего советника президента США по вопросам национальной безопасности в Администрации Дж.Картера З.Бзжезинского в стратегической перспективе в Азии

может появиться страна (или группа стран) способная в глобальном масштабе соперничать с США как сверхдержава. Как считает З.Бзжезинский Китай обладает всеми необходимыми параметрами, чтобы в перспективе превратиться в сверхдержаву[2].

Следует отметить, что действительно в последние годы развитие глобальной политической обстановки с одной стороны и фундаментальные измения в Азии (рост могущества Китая, создание Индией и Пакистаном собственных ядерных сил, уход России из Индокитая, рост авторитета и влияния Ислама) с другой, неуклонно перемещали Азиатский континент в центр американской политики. Кроме того, стремление США удержать лидерство в мировой политике и, исходящее из этого понимание необходимости расширения своего влияния в Азии, также заставляли США все большем масштабе акцентировать свое внимание на проблемах этого континента.

Можно констатировать, что Азиатский континент во все возрастающей степени фокусирует на себе политичекую, дипломатическую и военную активность Соединенных Штатов.

Следует подчеркуть, что последнее стало явным и масштабным после беспрецендентной террористической аттаки на США имевшей место в сентябре 2001 года. Объявление Президентом США Дж.Бушем войны международному терроризму и начало международной анти-террористической операции в Афганистане, а также озвученная им в январском обращении к нации идея о необходимости уничтожения т.н. «оси зла», представленной странами-изгоями поддерживающими международный терроризм такими как Иран, Ирак и Северная Корея[3] позволяют предположить, что азиатский континент надолго превратится в объект самого пристального внимания и активной практической политики Вашингтона.

В этой связи представляет интерес рассмотреть тенденции развития общей политической обстановки в Азии и, в частности, в регионе Южной и Юго-Восточной Азии. Кроме того, описать потенциальные угрозы интересам и безопасности США, а также возможные новые инициативы по их снижению и укреплению общей безопасности.

Следует отметить, что безопасность и политическая стабильность в регионе Южной и Юго-Восточной Азии имеет принципиальную важность с точки зрения стратегических интересов и безопасности Соединенных Штатов.

Данный регион находится на пересечении технологической, индустриальной, экономической и военной мощи Северо-Восточной Азии, Индийского полуострова и Ближнего Востока. Кроме того, основные торговые и коммуникационные линии Японии, Тайваня, Сингапура и Австралии также приходятся на данный регион. С военной же точки зрения проливы и судоходные линии вокруг региона

---

[1] Информационный бюллетень USIA (18.06.98)
[2] Бжезинский З. Великая шахматная доска. М.: Международные отношения, 1999
[3] State of the Union Adress, January 31, 2002, Washington file;

имеют исключительное значение для передвижения ВМС США из Тихого океана в Индийский и в регион Ближнего Востока.

В этой связи ведущие американские аналитические группы выделяют следующие угрозы стабильности и безопасности в регионе, а также интересам национальной безопасности США:

- возникновение прямого вооруженного конфликта с применением как обычного так и ядерного вооружений;
- угрозы со стороны международных террористических организаций и их сетей;
- угрозы исходящие из внутренней политической ситуации стран региона;
- распространение компонентов оружия массового поражения.

Следует отметить, что действительно КНР проводит стратегическую программу по формированию современных и высокомобильных ВМС способных проецировать военную мощь и, таким образом, обеспечивать защиту китайских интересов в любой заданной точке. Кроме того, Китай энергично наращивает политические и дипломатические усилия по укреплению и расширению своего влияния на регионы открывшиеся в результате распада СССР.

В этой связи некоторые государства азиатского континента могут рассматривать Соединенные Штаты в качестве силы способной гарантировать региональную стабильность и безопасность, а также как важнейший фактор уравновешивающий возрастующую китайскую мощь.

В то же время эксперты отмечают малую вероятность того, что Китай прибегнет к масштабному конфликту с применением обычных вооружений[1]. Однако, следует отметить, имеются и серьезные факторы сдерживающие рост активности Китая, а также возможность конфликтности отношений между КНР и ведущими странами региона. В частности Китай, проводящий политику масштабных реформ и модернизации, имеет высокую заинтересованность в развитии хороших отношений как со своими соседями так и с США. В Пекине прекрасно понимают, что только при сохранении сотрудничества с Соединенными Штатами можно обеспечить доступ к новым американским технологиям, инвестициям, а также выход китайских товаров на крупнейший и престижный американский рынок.

Кроме того, следует подчеркнуть, при сохранении и развитии долговременных отношений с США Китай сохраняет стратегически необходимое «пространство» и выбор маневра перед основными конкурентами за лидерство в Азии и, в первую очередь, перед Россией, которая имеет свои далекоидущие планы и любой ценой стремится укрепить свое влияние в регионе.

Таким образом, Пекин весьма заинтересован в сохранении на долгосрочную перспективу стратегической стабильности в Азии. Какой-либо вооруженный конфликт приведет к нарушению международной торговли и к смене благоприятного инвестиционного климата. В свою очередь это нанесет серьезный ущерб китайским возможностям поддерживать высокий уровень экономического

---

[1] Southest Asia after 9/11: regional trends and US interests, RAND Corporation, December 2001

роста, который следует рассматривать как один из важнейших и ключевых факторов в становлении Китая в качестве мировой державы.

Необходимо подчеркнуть, что события 11 сентября 2001 года фундаментальным образом воздействовали на переосмысление и формулирование интересов США как в глобальном масштабе так и в том или ином геополитическом регионе. Подобные рассуждения справедливы и к азиатскому континенту и, в частности к региону Южной, Юго-Восточной Азии.

С другой стороны возвышение Китая, становление Индии и Пакистана как ядерных держав, распространение ракетных и ядерных технологий, рост угрозы со стороны Северной Кореи - все это в совокупности также подталкивали США к необходимости формулирования новой интегральной внешнеполитической стратегии и новых подходов к обеспечению безопасности и стабильности.

В этом аспекте, проводимую под эгидой США анти-террористическую операцию в Афганистане и последующее там дислоцирование под флагом международных миротворческих сил фактически войск НАТО, а также размещение американских войск в регионе Средней Азии можно рассматривать как некий новый рубеж в обеспечении безопасности и стратегических интересов США (Запада в целом) на Азиатском континенте. Все это свидетельствует о том, что наблюдается процесс пересмотрения имеющихся систем региональной безопасности.

Изменение стратегической обстановки в Азии требует модернизации систем безопасности в Азии их пересмотра в плане более точного соответствия новым стратегическим требованиям и интересам национальной безопасности США, вытекающим из событий 11 сентября.

Полагаем, что в рамках обеспечения новобозначенных целей и интересов Вашингтон[1] будет прилагать энергичные усилия по достижению адекватной конфигурации систем безопасности в наибольшей степени отвечающей американским интересам и, таким образом, обеспечивающей на стратегическую перспективу баланс сил в Азии в пользу Соединенных Штатов.

Так некоторые элементы новой конфигурации системы безопасности можно наблюдать в последовательном дислоцировании американских войск (или союзников США под эгидой миротворческих сил) в ранее не доступных для них регионах Южной, Центральной, Юго-Восточной Азии. Параллельно, Соединенные Штаты стремяться активизировать свое влияние и участие в ведущих азиатских организациях и, впервую очередь в тех, где присутствуют Россия и Китай. В частности, настойчиво США добиваются статуса наблюдателя в «Шанхайской шестерке».

В то же время с точки зрения интересов США важным также является и обеспечение стабильности американских союзников - партнеров. Как считают эксперты, значительные усилия должны быть направлены на реорганизацию действующих и формирование новых эффективных

---

[1] The National Security Strategy of the United States, White House, September, 2002

структур безопасности, что позволит связать в единую систему общей региональной безопасности такие страны как США, Японию, Таиланд, Филипины и Южную Корею[1].

В свою очередь Адмирал Д.Блейер Командующий американскими войсками в Азиатско-Тихоокеанском регионе выделяет следующие угрозы интересам США и их союзников, а также стабильности и безопасности на континенте: международный терроризм, распространение компонентов оружия массового поражения, торговля оружием, активность международных криминальных структур, нелегальная миграция. По его мнению после событий 11 сентября 2001 года и началом военной операции в Афганистане Соединенные Штаты стоят перед необходимостью выработки стратегии направленной на усиление совместных возможностей США и их союзников реагировать и совместно выступать против угроз безопасности и стабильности.

В качестве основных элементов новой американской стратегии Адмирал считает должно быть существенное улучшение оперативных характеристик войск США и их созников; более масштабное и глубокое сотрудничество со странами региона в разведывательной области[2]. С целью укрепления своего влияния и более жесткого противостояния новым угрозам, согласно адмиралу, США должны активнее поддерживать своих союзников и партнеров Вашингтона в делах азиатской политики. Важным на его взгляд является поддержка сплоченности, политической стабильности и территориальной целостности ключевых стран Южной и Юго-Восточной Азии таких как Индонезия и Пакистан.

Д.Блейер также полагает, что США должны оказать содействие и помощь по дальнейшему развитию экономик стран членов ASEAN (Association of Southeast Asian Nations), росту торгового оборота, инвестиций и ускорению проведения национальных программ по экономическим реформам. Параллельно, Администрация Дж.Буша должна пересмотреть и направить значительные усилия на расширение военного сотрудничества со странам региона и, в частности, с Индонезией, Филипинами, Пакистаном, Индией, Японией.

В этом аспекте по мнению авторитетного английского журнала “South Asia Monitor” проведение анти-террористической операции выдвинуло также и Пакистан в фокус американской политики в регионе Южной Азии[3].

Действительно, следует подчеркнуть, несмотря на жесткий анти-американский фон и широкую критику США среди основной массы населения Пакистана, тем не менее Президент П.Мушарраф принял мужественное и ответственное решение поддержать США. Пакистан обязался предоставить воздушное пространство, разведывательную, специальную и иную информацию, а таже осуществлять с США тесное сотрудничество в ходе анти-террористической операции. Со своей стороны, следует отметить, Соединенные Штаты, оценивая стратегическую важность Пакистана, его роль и

---

[1] The United States and Asia, RAND Corporation, December 2001
[2] Asia-Pacific Security after September 11th, Washington file, February 27, 2002
[3] The US and South Asia: New priorities and Familiar interests, South Asia Monitor N38, October 01, 2001

политический авторитет в делах региональной политики сняли ограничения на оказание правительственной помощи, принятые в 1998 года по итогам ядерных испытаний в Пакистане и Индии. Кроме того, Администрация Дж.Буша приняла решение списать около 2,5 млрд.долларов в качестве долга Пакистана и выделила кредиты на закупку современных систем вооружений для пакистанской армии.

В качестве усилий по снижению общего накала политической обстановки в Южной Азии, неисключено, что США предпримут также попытки снизить порог развязывания вооруженного индийско-пакистанского конфликта путем более активного подталкивания обеих сторон к прямому диалогу по поиску урегулирования Кашмирской проблемы. Однако, стремясь избежать «завязнуть» в урегулировании конфликта США, весьма вероятно, постараются избежать прямого вовлечения в сложный переговорный процесс. Действительно, в ходе своего визита в Индию и Пакистан в середине мая с.г. помощница Госсекретаря США по делам Южной Азии Кристина Рокк подтвердила готовность США оказывать только лишь содействие продолжению переговоров по урегулированию индо-пакистанских отношений[1].

Параллельно, в рамках серьезного переосмысления приоритетов американской политики после событий 11 сентября следует рассматривать и усилия Администрации Дж.Буша направленные на пересмотр и наращивание американо-индийского сотрудничества. В свою очередь, следует подчеркнуть, индийская сторона после долгого периода сдержанных отношений с США также демонстрирует твердое намерение добиваться существенного изменения духа и содержания американо-индийских отношений. Так, недавнее введение Премьер-Министром Индии А.Б.Ваджпайем нового политического термина - «естественные союзники» в лексикон американо-индийских отношений, на наш взгляд, четко характеризует новые стратегические тенденции в индийской внешней политике ориентированные на укрепление и расширение взаимодействия с Соединенными Штатами Америки.

Посол США в Индии Р.Блеквилл выделяет следующие направления, имеющие особую важность для общей безопасности в Азии: роль ядерного оружия в системе международных отношений; энергетическая безопасность и безопасность судоходства в Индийском океане; проблемы сохранения стабильности в Азии. В этом аспекте важнейшими аспектами двустороннего сотрудничества им рассматриваются индийско-американское взаимодействие в области обороны, разведки, укреплению правопорядка, контр-террористической деятельности. Так, в ближайшее время Соединенные Штаты намереваются предоставить Индии компоненты для спутника, запасные части к боевым вертолетам, самолетные двигатели, оборудование для подводных лодок, патрульный противоракетный самолет и другую военную технику[2].

---

[1] The News International, Pakistan, May 16, 2002, The Dawn, Pakistani News Agency, October 1, 2002

[2] Transformation of US-India relations "Picking up Speed", Washington file, Feb 27, 2002

Действительно, наблюдающаяся в последнее время переоценка Администрацией Дж.Буша индийско-американских отношений, впервую очередь связана с колоссальным политическим сдвигом произошедшим в мировой политике после событий 11 сентября 2001 года. Кроме того, в силу становления Индии как одной из мировых ядерных держав, как одного из влиятельных лидеров в Азии, как страны с крупнейшим политическим, военным, интеллектульным, экономическим и людским потенциалом.

Проводя политику на последовательное сближение с Индией и с другими ведущими азиатскими странами, неисключено, что США, на наш взгляд, последовательно «выбивают почву» из потенциальной возможности формирования некого анти-американского объединения стран.

Далее, в качестве одного из важнейшего направлений политики США в Азии приоритетным является сдерживание роста влияния ведущих соперников. Более того, предотвращение роста или формирования страны, или группы стран - гегемона способного подорвать роль и влияние США на континенте и, таким образом, бросить вызов мощи США в глобальном масштабе. Для осуществления указанного, как считают эксперты, рекомендуется проводить следующую целенаправленную стратегию:

- сформировать структуру (механизм) безопасности с участием России, Китая и Индии обеспечивающий выгодный для Вашингтона баланс силы и исключающий возможность доминирования или одной из стран или вместе взятых;
- поддерживать проведение обще-политического диалога в Азии по снижению общей напряженности и созданию континентальной системы безопасности;
- обеспечить урегулирование территориальных споров, поддерживать территориальную целостность Индонезии, способствовать урегулированию Кашмирской проблемы;
- проводить меры по избежанию гонки ядерных вооружений на континенте [1].

Необходимо отметить, что имевшая место 11 сентября 2001 года террористическая атака на США, придала существенный толчок новому пониманию развития политической обстановки в мире. Подобное страшное нападение явилось мощным фактором переосмысления и переоценки политическими элитами ведущих стран потенциальных угроз и вызовов миру, стратегической стабильности и безопасности.

Возможно, что события 11 сентября знаменуют начало нового периода в политической истории – эпохи отхода от реалий периода постхолодной войны и переходу к качественно новому миропорядку порядку.

[1] The United States and Asia: Towards a New US Strategy and Force Posture, RAND, 2001

В этом плане можно наблюдать некоторые новые контуры и подходы по обеспечению глобальной безопасности и стратегической стабильности. В частности возможно, что формирование т.н. «двадцатки» – Совета НАТО-Россия есть определенное следствие из событий 11 сентября.

Так, сближение США и НАТО с Россией, введение России в европейские и трансатлантические механизмы безопасности позволяют определенным образом обеспечить контроль над российской внешней и оборонной политикой, что в свою очередь снижает вероятность формирования Россией анти-западного альянса. Недопущение изоляции России и некоторых других стран является одним из важнейших элементов американской внешней политики.

Следует также отметить, что террористическая атака на Соединенные Штаты продемонстрировала серьезную ущербность безопасности США и привели политическую элиту страны к жесткой необходимости выработки новых стратегий по обеспечению национальной безопасности и пересмотру стратегических интересов как глобальных так и для того или иного геополитического региона и, в первую очередь для Азии.

Весьма возможно, что Администрация Дж.Буша стоит перед необходимостью разработки и имплементации новой стратегии обеспечивающей формирование и сохранение на стратегическую перспективу баланса силы между Китаем, Индией и Россией с параллельным усилением влияния и расширением пристутствия США на континенте. Подобная стратегия направлена на предотвращение приобретения какой-либо из упомянутых стран (или же их вместе) преимущества над Соединенными Штатами в Азии.

Неисключено, что после событий 11 сентября и начала анти-террористической войны интегральная линия американской внешней политики и политики безопасности на среднесрочную перспективу будет строиться исходя из в первую очередь стратегических интересов США в Азии. Данный тезис аргументируется наличием основных угроз безопасности и могущества США исходящих из Азии.

В этом плане вероятно, что некоторые направления американской политики (расширение НАТО, сотрудничество с Россией и др.) приобретают несколько иную ориентированность и стратегическую подчиненность и, в частности, ориентированность на стратегические интересы США в Азии.

Возможно, что при укреплении позиций и дальнейшем расширении влияния в Азии Соединенным Штатам удастся удержать глобальное превосходство и, таким образом, обеспечить общее политическое, интеллектуальное, экономическое и технологическое превосходство Запада. В этом аспекте разумно полагать, что США будут активно нуждаться в поддержке со стороны парнеров по НАТО. В свою очередь европейские партнетры США (несмотря на рост антиамериканских проявлений и растущие вылазки антиглобалистов) также прекрасно понмимают, что подобная задача –

обеспечение глобального превосходства Запада - без Соединенных Штатов Америки весьма трудно выполнима.

Таким образом, Соединенные Штаты в совокупности с союзниками по НАТО имеют все необходимые параметры сохранить на обозримую перспективу лидерство в мировой политике и, таким образом, обеспечивать общее превосходство Запада в глобальной политике.



***RƏŞAD ƏLİYARLI***
***Azərbaycan Respublikasının***
***Ərəb Əmirliklərindəki Səfirliyinin***
***müşaviri***

---

## *İRAQ BÖHRANININ BEYNƏLXALQ VƏZİYYƏTƏ TƏSİRİ* [1]

İraq böhranı 2001-ci ilin 11 sentyabr terror hadisələri və bununla əlaqədar Əfqanıstanda aparılan müharibədən sonra beynəlxalq səhnədə diqqət mərkəzində olan və müzakirə edilən əsas mövzulardandır.

1991-ci ilin Körfəz müharibəsindən sonra İraq mövzusu əsasən ərəb dövlətlərinin ikitərəfli münasibətləri, habelə Ərəb Dövlətləri Liqası (ƏDL) və Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) çərçivəsində mütəmadi şəkildə müzakirə edilmiş, Yaxın Şərq regionunda baş verən son hadisələr, xüsusilə də, ərəb-israil münaqişəsi zəminində beynəlxalq problem kimi yenidən diqqətə səbəb olmuşdur.

Qeyd olunmalıdır ki, hazırki İraq böhranı, parallel olaraq ərəb dövlətlərinin İraq ilə Küveyt arasında barışıq cəhdləri ilə müşayiət olunaraq əsaslı nəticə verməsə də, ərəb həmrəyliyi ideyaları baxımından əhəmiyyət kəsb etmişdir.

ƏDL-in 2002-ci ilin martında Beyrutda keçirilmiş Zirvə görüşü öncəsi Qatar Dövlətinin Xarici işlər naziri Şeyx Hamad bin Casim bin Cabir Əl-Təni İraq-Küveyt əlaqələrinin bərpa olunması və problemin birbaşa ikitərəfli və Körfəz Əməkdaşlıq Şurası ilə Bağdad arasında danışıqlar vasitəsi ilə müzakirə olunması təklifilə çıxış etmiş, lakin rəsmi Əl-Küveyt, Qatar Dövlətinin mövqeyinə hörmətlə yanaşdığını bəyan edərək, İraq ilə hər hansı təmaslardan imtina etdiyini bildirmişdir. Bununla belə, İraqın tam şəkildə ərəb cərgələrinə qayıtması

---
[1] Ì ÿãàëÿ Èðàãäà ñî í ùàäèñÿëÿðäÿí ÿââÿë éàçûëûá (ðåäàêñèéàíûí ãåéäè)

mövzusu göstərilən Sammit zamanı yenidən gündəmə gətirilmiş və hazırda ərəb siyasi-ictimai dairələrinin müzakirə etdiyi məsələlərdəndir.

Doğrudur, İraq-Küveyt münasibətlərində müəyyən irəliləyişlər, məsələn, 2002-ci ilin oktyabr ayında BMT-nin iştirakı ilə İraq-Küveyt sərhəddində 1990-cı ildə Küveytdən çıxarılmış arxiv materialları və digər rəsmi sənədlərin qaytarılması prosesi kimi tədbirlər həyata keçirilsə də, küveytli əsirlərin indiyədək İraqda saxlanılması və 1990-cı ildə İraq tərəfindən Küveytə, həm maddi, həm də böyük mənəvi itkilərə səbəb olmuş təcavüzün olunduğu rəsmi Əl-Küveytin bəyanatlarında vurğulanmaqdadır.

İraqın ərəb cərgələrinə qaytarılması istiqamətində cərəyan edən proseslər və bu məqsədlə Bağdad tərəfindən həyata keçirilən siyasi manevrlər Beyrut Sammiti ərəfəsində və onun gedişi zamanı daha qabaraq şəkildə müşahidə olunmuşdur. Bu mənada, İraqa qarşı yeni hərbi həmlələrin həyata keçirilməsi planlarına münasibətdə ərəb dövlətlərinin nümayiş etdirdiyi həmrəyliyi və mövqe birliyini İraq xarici siyasətinin uğuru kimi qiymətləndirmək olar.

İraqla bağlı ümumərəb mövqeyinin ərəb-israil münaqişəsinin həlli ilə əlaqəli olduğunu qeyd edərək söyləyə bilərik ki, ABŞ-ın İraqa qarşı yeni hərbi kampaniyaya hazırlaşması mövzusu ərəb aləmində Fələstin probleminin həllinə olan ciddi reaksiya və araşdırmalar ilə müşayiət olunur. Beynəlxalq səhnədə İraq probleminin müzakirəsi, bu mövzuda ərəb dövlətlərarası məsləhətləşmələrinin aparılması və İraq rəsmilərinin xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri ilə apardığı danışıqlar, çoxsaylı bəyanatların verilməsi və siyasi şərhçilərin dəyərləndirmələri ilə nəticələnmişdir.

Eyni zamanda, qeyd olunmalıdır ki, ABŞ-ın İraq problemi ilə bağlı bir növ barışmaz mövqeyi bütün aparıcı ərəb KİV-də əks səda doğurmuş və rəsmi Vaşinqtonun İraq və ümumən müsəlman dünyasına qarşı münasibəti mövzusunda şərhlərə səbəb olmuşdur.

ƏDL və KƏŞ Xarici işlər nazirləri şuralarının 2000-ci ilin sentyabr ayında keçirilmiş sessiyalarında İraq probleminin gündəlikdə başlıca yer tutması və göstərilən məclislərdə İraqa qarşı hər hansı yeni hərbi əməliyyatların aparılmasının əleyhinə qərarların qəbul olunması, aparıcı Avropa dövlətlərinin, BMT TŞ-nin Daimi üzvləri Rusiya, ÇİN və Fransanın, habelə Şərqi Asiya dövlətlərinin İraq məsələsində xüsusi mövqeyi 2001-ci il 11 sentyabr hadisələrindən sonra beynəlxalq aləmdə ən çox müşahidə olunan fikir ayrılığı kimi dəyərləndirilə bilər.

2002-ci ilin 9 sentyabr tarixində Vatikanın İraq probleminə dair, İraqa qarşı hər hansı hərbi aksiyanın BMT-nin razılığı ilə həyata keçirilməsi haqqında bəyanatı da diqqəti cəlb edərək, ABŞ-ın mövqeyinə təsir edə biləcək amil kimi qiymətləndirilə bilər.

Ərəb ölkələrində fəaliyyət göstərən elmi-tədqiqat institutları, habelə islam mərkəzləri öz bəyanatlarında ABŞ-ın siyasətinə qarşı daha sərt mövqelərdən çıxış edərək, rəsmi Vaşinqtonu ikili standartlara riayət etməkdə təqsirləndirirlər. Bu bəyanatlarda, məsələn, belə fikirlərə rast gəlmək olar ki, İraqa qarşı ABŞ tərəfindən həyata keçiriləcək hər hansı yeni hərbi aksiya yatmaqda olan nəhəng ərəb və islam qüvvələrini hərəkətə gətirə bilər.

Bir sıra radikal ərəb cərəyanları ABŞ-a qarşı ərəb və müsəlman dövlətləri tərəfindən iqtisadi təsir mexanizmlərindən istifadə olunmasına, o cümlədən neft siyasətinə yenidən baxılmasına çağıraraq, ABŞ tərəfindən göstərilən iqtisadi və hərbi yardımlardan imtina olunmasına, hətta Misirin, ildə ABŞ tərəfindən göstərilən 2 mlrd. ABŞ doll. həcmində hərbi və iqtisadi yardımdan imtina etməsi və s. tərəfdar olduqlarını bildirmişlər.

Ərəb ictimai-siyasi dairələri fələstinlilərə qarşı İsrail hökuməti tərəfindən aparılan «dövlət terroruna» son qoyulmasını tələb eədərək, İsrailin Dimona nüvə mərkəzinə hərbi ekspertlərin göndərilməsinə rəsmi Tel-Əvivin rədd cavabı verməsinə göz yumulmasını, bunun müqabilində isə, İraqa qarşı hərbi təsir metodlarından istifadə olunmasını qəbuledilməz hesab edirlər.

Təsadüfi deyildir ki, Səudiyyə Ərəbistanı rəsmilərinə istinadən, İraqa qarşı ABŞ tərəfindən hərbi əməliyyatlar aparılarsa, Bağdad tərəfindən Küveytin və Səudiyyə Ərəbistanının neft yataqlarının bombalanacağı, bunun nəticəsində dünya bazarlarında neft qiymətlərinin 1 barrelə görə 100 ABŞ doll. məbləğinə qədər artacağı barədə mülahizələr də səslənməkdədir.

Siyasi şərhçilərin çıxışları ümumən beynəlxalq aləmdə bu problemə dair rəylərin araşdırılması və hadisələrə müxtəlif müstəvidə qiymət verilməsi ilə müşahidə olunur. Maraqlıdır ki, ABŞ-ın son bir ildə ərəb aləmində və Şərqdə yeritdiyi xarici siyasətinin 11 sentyabr hadisələri çərçivəsində məhdudlaşdırıldığı barədə şərhlərə tez-tez rast gəlmək olur.

İraqda kütləvi qırğın silahlarının istehsal olunmasına dair bildirilir ki, 1981-ci ildə Bağdaddan 30 km. aralıqda yerləşən Tammuz (Osirak) nüvə reaktoru İsrail tərəfindən bombalandıqdan, 1991 və 1998-ci illərdə İraqda aparılmış hərbi əməliyyatlardan sonra əsas hərbi və o cümlədən mülki məqsədlərə xidmət edən obyektlər məhv edilmişdir. Eyni zamanda, İraqın kütləvi qırğın silahlarına malik olması barədə Londonda yerləşən Beynəlxalq strateji araşdırmalar institutunun məlumatları aşağıdakı təfsilatda verilir:

Nüvə və radioloji silahlar.

İraq, nüvə silahı üçün tələb olunan maddələri (atomun parçalanması) istehsal etmək imkanlarına malik deyildir. Lakin Bağdad rejimi həmin məsələdə maraqlıdır və bunun üçün həmin imkanlara malik olan xarici dövlətlərin yardımına ehtiyacı vardır.

Bioloji silahlar.

Ehtimal vardır ki, İraqın gizli anbarlarında minlərlə litr istifadəyə yararlı vəziyyətdə «anthrax» mayesi saxlanılır və bu komponentdən bioloji silahların istehsalında istifadə edilə bilər. 1998-ci ildən sonra həmin ehtiyatların yeri və onlardan istifadə olunması barədə məlumatlar yoxdur.

Kimyəvi silahlar.

Ehtimal vardır ki, İraqın gizli anbarlarında əsəb sisteminə təsir edən zarin və VX qazının istehsalı üçün lazım olan yüzlərlə tonn müvafiq maddələr saxlanılır. 1998-ci ildən sonra, bu ehtiyatların yeri və onlardan istifadə olunması barədə məlumatlar yoxdur.

Ballistik raketlər.

İraq, kiçik həcmdə, 650 km-lik məsafəni qət edən Əl-Hüseyn raketlərinə malikdir. Həmin raketləri daxili imkanlar sayəsində hazırda istehsal etmək mümkün deyil və illərlə vaxt tələb edir. Bu raketlərin istehsalı üçün xarici dövlətlərin yardımına ehtiyac var.

İraq, 200 km. məsafəni qət edən Əl-Samud raketlərini istehsal etmək imkanına malikdir. Ola bilsin ki, raketlərin istehsalı prosesində kimyəvi və bioloji komponentlərdən istifadə olunsun və raketlərin başlıqları kimyəvi və bioloji komponentlərlə təmin olunsun. Lakin, bu sahədə hər hansı işlərin aparılması barədə məlumatlar yoxdur.

Həmin mənbəyə görə, kimyəvi və bioloji tərkibli komponentlərdən xüsusi təyinatlı dəstələrin əməliyyatları zamanı və ya terrorizm məqsədləri ilə istifadə edilə bilər.

İraq eyni zamanda müasir MİQ 23 və Miraj F1 qırıcı təyyarələrinə malikdir ki, onların əməliyyatları 750 km-lik radiusda həyata keçirilə bilər. Eyni zamanda, hərbi arsenalda Su22, Su24 və Su25 hərbi təyyarələri və vertolyotlar vardır.

Beləliklə, hazırda İraqda hər hansı kütləvi qırğın silahlarının istehsal olunmasını təsdiq edən əsaslı faktların mövcud olmaması müqabilində, ABŞ Administrasiyasının S.Hüseyni hakimiyyətdən götürmək məqsədi ilə Bağdada qarşı hərbi aksiya həyata keçirməsini dəstəkləməyən ərəb aləmi, ərəblərə və müsəlmanlara qarşı təzyiqlərin artmasına etiraz bildirərək, İsrail hökuməti tərəfindən Fələstin ərazilərində aparılan hərbi əməliyyatlara son qoyulması, ərəb-israil münaqişəsinin və İraq böhranının sülh yolu ilə tənzimlənməsi istiqamətində xarici siyasi kursun təşkili sahəsində həmrəylik nümayiş etdirir.

Məlumdur ki, bir sıra aparıcı ərəb dövlətlərinin siyasi-ictimai dairələrində ABŞ ilə əməkdaşlığın əleyhinə çıxış edən klerikal cərəyanlar da vardır ki, onların ümumən ərəb aləmində tərəfdarları az deyildir. Həmin qüvvələrin ABŞ-a qarşı nəinki iqtisadi təsir imkanlarından istifadə olunması, hətta rəsmi Vaşinqton ilə hərbi əməkdaşlığa son qoyulması ideyaları ətrafında təşkil olunmuş mövqelərinin yaxın gələcəkdə səslənəcəyi istisna deyildir.

Göstərilən faktların İraq ilə əlaqələrə yeni impuls verən ərəb dövlətlərinin xarici siyasətində gözəçarpan dərəcədə müşahidə olunması ABŞ-ın Fələstin məsələsində mövqeyinə təsir etmək meylləri kimi qiymətlədirmək olar.

7 ərəb ölkəsinin (Əlcəzair, Misir, Suriya, Tunis, BƏƏ, Yəmən və Livan) İraq ilə azad ticarət haqqında müvafiq sazişlər imzalaması, İraq rəsmilərinin 2001-ci və 2002-ci ildə ərəb dövlətlərinə çoxsaylı səfərləri və ərəb liderləri ilə məsləhətləşmələri, son vaxtlar İraqın ikitərəfli iqtisadi əməkdaşlıq proqramları çərçivəsində Misir və Suriya ilə yeni razılaşmaları İraqa münasibətdə yeni yanaşmanın təzahürləri kimi qeyd oluna bilər.

Bəzi mənbələrə görə, BMT-nin neft əvəzinə ərzaq proqramı çərçivəsində kvotadan kənar İraqın Türkiyə ilə əməkdaşlığına alternativ yolların işə salınması məqsədilə Bağdad-Dəməşq məsləhətləşmələri aparılmışdır. Müşahidəçilərin fikrincə, rəsmi Ankaranın siyasətində ABŞ faktorunun güclü rol oynaması Türkiyənin İraqdan

neft idxalını azaltmaq qərarına gətirə bilər. Həmçinin, İraqın Körfəz ərəb ölkələrilə də qeyri-leqal neft ticarətinin mövcud olması ABŞ-ı narahat etməyə bilməz. Bunun müqabilində iki il öncə bərpa edilmiş Mosul-Hələp sərhədyanı dəmiryolu, həmçinin İraq-Suriya neft borusu vasitəsilə gündə 180 min barrel xam neftin İraqdan ötürüləcəyi ehtimal olunur. Araşdırmalara görə, İraq hazırda bir gündə 2,2 mlrd. barrel neft istehsal etmək qabiliyyətindədir.

İraqa qarşı 90-cı illərin əvvəllərində ABŞ tərəfindən aparılmış hərbi kampaniyalarda və əməliyyatlarda Körfəz ərəb dövlətlərinin fəal iştirakı (daha çox «səhrada tufan» (1991) əməliyyatında) sonra, bu əməliyyatların bəzi mənbələrə görə, 30-35 mlrd. ABŞ doll. məbləğində, digər qaynaqlara görə isə, 100 mlrd.-dan artıq başa gəlməsi və bu ölkələrin iqtisadiyyatına böyük zərbə vurduğu aşkar edildikdən sonra, artıq «səhrada tülkü» (1998) əməliyyatları zamanı, məsələn, Səudiyyə Ərəbistanı tərəfindən həmlələrdə iştirak edən hərbi texnikanı yalnız yanacaq ilə təmin etməsi barədə açıq bəyanatların verilməsinə baxmayaraq, ümumən ərəb dövlətlərinin dəstəyi ilə həyata keçirilmişdir. O zaman Körfəz ərəb dövlətləri itirdikləri maliyyə vəsaitləri ilə əlaqədar onların büdcələri və iqtisadiyyatlarına vurulan zərbənin yalnız bir neçə ildən sonra bir qədər aradan qaldırıldığını bəyan etmişlər.

Hazırda hadisələr başqa istiqamətdə cərəyan etməkdədir. ABŞ-ın İraqa qarşı yeni hərbi kampaniyanın yalnız mənəvi cəhətdən dəstəklənməsi sahəsində cəhdləri, rəsmi Vaşinqton bu dəfəki hərbi əməliyyatların maliyyələşdirilməsinin ABŞ hökuməti tərəfindən həyata keçiriləcəyinə işarə etsə də, bir nəticə vermir.

Beləliklə, Yaxın Şərq və Körfəz regionunda cərəyan edən siyasi proseslərin bilavasitə bir-biri ilə əlaqədə olduğunu şərh edə bilərik. Belə ki, ərəb-israil münaqişəsinin həllində yeni çalarların, o cümlədən ABŞ-İsrail müttəfiqliyi müqabilində İraq faktorunun gündəmə gəlməsi və ya gətirilməsi, habelə ərəb dövlətləri arasında yeni iqtisadi əməkdaşlıq proqramlarının həyata keçirilməsi hazırda regionun siyasi səhnəsində özünü biruzə verməkdədir. Ərəb siyasi şərhçilərinin təhlillərinə və müşahidələrimizə istinadən qeyd etmək olar ki, aparıcı ərəb dövlətləri ABŞ-ın Yaxın Şərq probleminin həllində rolunu həmişəki kimi yüksək dəyərləndirərək, eyni zamanda rəsmi Vaşinqtonun bu məsələdə mövqeyində düzəlişlər edilməsinə ehtiyac olduğunu vurğulayırlar.

Ərəb həmrəyliyi ideyalarının gücləndiyi hazırki dövrdə İranın ümumislam şüarları altında xarici siyasətini istiqamətləndirməsi, Körfəz ərəb dövlətləri ilə siyasi, iqtisadi və hərbi əməkdaşlıq proqramlarının həyata keçirilməsi təklifləri ilə çıxış etməsi yuxarıda qeyd olunan faktorlara əlavə edilən amil kimi qiymətləndirilə bilər. Məlumdur ki, İranın Körfəz regionunun xarici təsirlərdən azad olması və Körfəz ərəb dövlətləri ilə Fars Körfəzində birgə hərbi təlimlər keçirilməsi barədə öncə və mütəmadi olaraq verdiyi təkliflər altı Körfəz ərəb dövləti tərəfindən rədd edilmişdir. Bunun qarşılığında İranın KƏŞ üzvü olan altı ərəb dövlətinə azad ticarət zonasının yaradılması barədə yeni təklifləri maraq doğurmaya bilməz. Əlamətdar hal kimi qeyd olunmalıdır ki, KƏŞ Xarici işlər nazirləri Şurasının 2002-ci il 03 sentyabr tarixində Ciddədə keçirilmiş növbəti 84-cü sessiyası zamanı İranın bu təklifi müzakirə edilərək, ümumən müsbət qarşılanmışdır. KƏŞ-ə hazırda

sədarət edən Omanın Xarici işlər naziri Yusif bin Alavi ölkə liderlərinə rəsmi Tehranın İran ilə KƏŞ arasında azad ticarət zonasının yaradılması təklifilə razılaşmaq barədə rəy verildiyini bəyan etmişdir.

Bununla əlaqədar, ABŞ-ın İsrail ilə müttəfiqliyinin, zənnizcə, Körfəz ərəb dövlətlərinin Vaşinqtona müxalif olan İraq və hazırda İran ilə əlaqələrinin genişləndirilməsi ilə müşayiət olunması təsadüfi hal deyildir.

Qeyd olunmalıdır ki, Körfəz ərəb dövlətlərinin əsasən təhlükəsizlik, müdafiə və iqtisadi sahələri əhatə edən ABŞ ilə partnyorluq əlaqələri forma etibarı ilə dəyişikliklərə məruz qalmasa da, müəyyən amillər, məsələn əlverişli iqtisadi şəraitin yaradılması və s. faktorlara yenidən baxılması barədə şüarlarla səciyyələnə bilər. Bunlar, fikrimizcə, İraqın tam mənada ərəb cərgələrinə qaytarılması kimi siyasi gedişlər nəticə verməsə və fələstinlilərə qarşı İsrail hökumətinin təzyiqlərinin artacağı təqdirdə baş verəcəyini proqnozlaşdırmaq olar.

2002-ci ilin martında Beyrutda keçirilmiş ƏDL Zirvə görüşü ərəfəsində ABŞ-la razılaşdırılmış Səudiyyə Ərəbistanı Krallığının (SƏK) yeni sülh təkliflərinin göstərilən Sammitdə təqdim olunduqdan sonra, problemin həlli ilə əlaqədar yaranmış ümidlər boşa çıxaraq, İsrailin Fələstin torpaqlarında terrora qarşı mübarizə şüarı altında hərbi əməliyyatlarını gücləndirməsi və ev dustağı olan Y.Ərafatın mənzil-qərargahının və onun kommunikasiya sistemlərinin dağıdılması ilə nəticələnmişdir.

A.Şaron hökumətinin radikal siyasətinin rəsmi Vaşinqton tərəfindən dəstəklənməsi və SƏK sülh planının kənara qoyulması, onun müəllifi olan və 11 sentyabr terror aktlarının araşdırılmasında adı hallandırılan rəsmi Ər-Riyad tərəfindən adekvat addımların atılması ilə nəticələnmişdir.

Zənnimizcə, Beyrut Sammiti və ondan sonrakı dövrdə SƏK tərəfindən məqsədəuyğunluğu təsdiq edilən, İraqın ərəb cərgələrinə qaytarılması istiqamətində ərəb aləminin səyləri yuxarıda göstərilən siyasi proseslərin məntiqi nəticəsi kimi qiymətləndirilə bilər. Eyni zamanda, Fələstin probleminin hazırki İraq böhranı ilə bağlı olması tezisi ilə razılaşaraq, ərəb dövlətləri tərəfindən İraq kartından ərəb-israil münaqişəsinə münasibətdə istifadə edilməsinin nə qədər məqsədəmüvafiq olmasını Bağdada qarşı ABŞ-ın planlaşdırdığı yeni hərbi əməliyyatlar prizmasında Vaşinqtonun sərt reaksiyası ilə qarşılaşdığını şərh edə bilərik.

İraq məsələsində BMT TŞ-nin daimi üzvləri Rusiya və Fransanın, habelə ÇXR-in xüsusi mövqeyi, ərəb dövlətlərinin yekdil mövqe nümayiş etdirərək, İraqa qarşı hərbi müdaxilənin əleyhinə olması rəsmi Vaşinqtonun regionda yeritdiyi siyasətinə təsir etməyə bilməzdi. Bununla əlaqədar qeyd olunmalıdır ki, ABŞ administrasiyası İraqa qarşı yeni hərbi əməliyyata başlaması istiqamətində bütün göstərilən faktorlara, habelə Avropa və ABŞ ictimai-siyasi dairələrində belə müqavimətə baxmayaraq yeni müharibəyə başlamağa israrlı olduğunu nümayiş etdirməkdədir.

Bütün ərəb dövlətləri, o cümlədən onları öz cərgələrində birləşdirən ƏDL, həmçinin KƏŞ birmənalı şəkildə İraqa qarşı hər hansı yeni hərbi müdaxilənin əleyhinə olduğunu bildirsə də, ABŞ administrasiyası yeni hərbi kampaniyanı mütləq məntiqə çatdıracağını, S.Hüseyn rejiminin devrilməsi və İraqın gələcək siyasi sisteminin yenidən qurulması planlarını bəyan etmişdir. ABŞ mənbələrinə görə, gələcəkdə İraqda federal dövlət sisteminin təşkili, o cümlədən Şimali İraqda kürd muxtariyyətinin yaradılması planları mövcuddur. Digər

mənbələrə görə, İraqda Livan modelinin, yəni konfessional siyasi sisteminin yaradılması planlarına baxılır. Bu layihələrdə İraqın üç başlıca icmalarına üstünlük veriləcəyi bildirilir. Əsas dövlət postlarında şiə, sünnü və kürd nümayəndələrinin təmsil olunacağı və parlamentin kvota prinsipi əsasında təşkil ediləcəyi planlaşdırılır.

Ərəb mənbələrinə görə, ABŞ Dövlət Departamentində xüsusi işçi qrupları yaradılmış və onlar öz növbəsində həm İraqda, həm də onun xaricində fəaliyyət göstərən müxalif dairələrlə məsləhətləşmələr aparırlar. Həmin mənbələrə görə, İraqın xaricində 1000-ə qədər siyasi qrup fəaliyyət göstərir. Danışıqlarda həmçinin İraqa qarşı hərbi kampaniyada müxalif qrupların iştirakı müzakirə olunur.

ABŞ rəsmiləri ilə danışqlar aparan qrup «Altılar qrupu» adlanır. Bunlardan, Cəlal Talabaninin rəhbərlik etdiyi Kürdüstan Vətənpərvər Birliyi və İraqda İslam İnqilabı Ali Şurası şiə qrupu İran ilə sıx əlaqədədir. Sonuncu İranda fəaliyyət göstərən Ayətullah Məhəmməd Baqir əl-Hakim tərəfindən idarə olunur.

ABŞ-ın hərbi planlarına cəlb edilə biləcək digər real qüvvə kimi Məsud Barzaninin rəhbərlik etdiyi Kürdüstan Demokratik Partiyası göstərilir. Lakin, M.Barzaninin həm Vaşinqton, həm də Bağdad ilə əlaqələrdə olduğu barədə məlumatlar vardır.

Bəzi məlumatlara görə, İraqın şimalında hazırda 30 minlik hərbi hazırlıq keçmiş kürd silahlı dəstələri vadır ki, onlar ABŞ-ın hərbi əməliyyatlarına və S.Hüseyn rejiminin devrilməsi prosesinə cəlb edilə bilərlər. Bəzi mənbələr İran ərazisində 10 minlik kürd partizan dəstələrinin də mövcud olduğunu bildirirlər.

Rəsmi Vaşinqtonun istifadə edə biləcəyi siyasi qrup kimi mühacirətdə fəaliyyət göstərən Əhməd Çələbinin başçılıq etdiyi İraq Milli Konqresi də göstərilir. Ə.Çələbinin Pentaqon, Dövlət Departamenti, Konqres və Mərkəzi Kəşfiyyat Agentliyi ilə əlaqələri vurğulanır. Lakin bu qrupun İraqda nüfuzu və təsir imkanları məhduddur.

«Altılara» həmçinin Şərif Əli bin Əl Hüseynin başçılıq etdiyi Konstitusiyalı Monarxiya Hərəkatı qrupu da daxil edilir ki, bu kiçik siyasi qüvvə tarixən Haşimiyyə monarxiyasının varisi sayılır.

ABŞ-ın Kəşfiyyat orqanları və Dövlət Departamenti ilə sıx əlaqədə olan altıncı siyasi qüvvə kimi Əyyad Alavinin başçılıq etdiyi İraq Milli Razılıq Hərəkatı göstərilir.

Böyük maraqların üz-üzə gəldiyi Yaxın Şərq regionunda nüfuz mərkəzləri ətrafında çoxşaxəli siyasi manevrlər cərəyan etməkdədir. Məlumdur ki, bir sıra qüvvələr uzun illər İraq və Türkiyə ərazisində kürd dövlətinin yaradılması istiqamətində açıq və gizli fəaliyyət göstərmişlər. Bu baxımdan, Osmanlı İmperatorluğunun süquta yetməsi, bölgədəki su hövzələri ətrafında tarixən meydana gəlmiş ərəb-türk ziddiyyətləri də hazırda baş verən hadisələrə təsir edə bilən amil kimi dəyərləndirilə bilər. Təsadüfi deyildir ki, İraq ərazisində kürd dövlətinin yaradılması planlarına dərhal, Türkiyə tərəfindən birmənalı mövqe nümayiş etdirilmiş və bu planların qarşısını almaq məqsədilə Türk Silahlı Qüvvələrinin İraqın şimalına yeridiləcəyi bəyan edilmişdir.

Bununla əlaqədar, İraqa qarşı yeni hərbi həmlələrin həyata keçirilməsi məsələsində ərəb dövlətlərinin mövqeyinə ABŞ-ın hansı təsir mexanizmlərindən istifadə etməsi maraq doğurmaya bilməz. Zənnimizcə, Ağ Evin bu istiqamətdə siyasəti müxtəlif fomatlarda tətbiq olunur.

Birincisi, yuxarıda qeyd edildiyi kimi, ABŞ tərəfindən kürd silahlı dəstələrinin istifadə olunması ehtimalı və İraqın şimalında kürd muxtariyyətinin yaradılması planları artıq müzakirə edilən məsələlər sırasındadır. Yuxarıda göstərildiyi kimi, bu planların gerçəkləşməsində bir sıra qüvvələr maraqlıdır və hətta bəzi qeyri-dövlət ərəb təşkilatlarında «kürd şöbələri» fəaliyyət göstərməkdədir.

İkincisi, bölgədə siyasi nüfuza və güclü iqtisadi potensiala malik olan ərəb dövlətlərinə digər təsir mexanizmləri göstərilir. Məsələn, məlumdur ki, ABŞ, bəzi ərəb dövlətlərinə demokratik prinsiplərə riayət olunması və ölkədə islahatların aparılması istiqamətində məsləhət xarakterli tövsiyələr verməkdədir.

ABŞ-ın təkliflərinin bəzi ərəb dövlətləri tərəfindən qəbul olunması digər ərəb dövlətləri tərəfindən müsbət qarşılanmır və onların arasında müəyyən ziddiyyətlər yaradır.

Ərəb mənbələrinə görə, ABŞ Dövlət Departamenti tərəfindən hazırlanmış H.R.1646 adlanan Xarici Əlaqələr Aktına Prezident C.Buş tərəfindən sanksiya verilmək üzrədir. ABŞ-ın yaxın gələcəkdə xarici siyasət konsepsiyasını istiqamətləndirən həmin sənəddə qlobal beynəlxalq məsələlər, o cümlədən ərəb aləmi ilə əlaqələrin tənzimlənməsi məsələləri öz əksini tapmışdır. Ərəb-Amerika institutunun prezidenti, siyasi şərhçi Geymz C.Zoqbinin araşdırmalarına görə, göstərilən sənəd ərəb aləmi üçün ciddi təhlükə yarada bilər. Həmin mənbə H.R.1646 Aktında İsrailə ABŞ tərəfindən 100 mln. ABŞ dolları məbləğində hərbi və 260 mln. digər əlavə yardım ayrılmasının nəzərdə tutulduğunu qeyd edir.

Göstərilən sənəddə ərəb aləminin ən ağrılı problemi sayılan İərusəlimin statusuna da toxunulmuş və bu müddəa ərəb dövlətlərinə qarşı ən güclü təsir mexanizmi kimi qiymətləndirilə bilər. Belə ki, ərəb mənbələrinə görə, H.R.1646 Aktında ABŞ-ın rəsmi sənədlərində və xəritələrində İərusəlimin İsrailin paytaxtı kimi tanınması, Səfirliyin İərusəlimə köçürülməsi, Vaşinqtonda Fələstin Azadlıq Təşkilatının nümayəndəliyinin bağlanması və s. müddəalar öz əksini tapmışdır.

Göstərilən faktlar ərəb dövlətlərinin müvafiq reaksiyası ilə qarşılanmışdır. Ümumərəb mövqeyini şərh edən ƏDL Baş katibi A.Musa, 12 oktyabr 2002-ci il tarixində Livan telekanalı ilə müsahibəsində İərusəlimi İsrailin paytaxtı kimi tanıyan, orada səfirlik təsis edən və ya Tel-Əvivdən köçürən hər hansı dövlət ilə dərhal münasibətlərin pozulacağını bəyan etmişdir.

İraq Parlamenti 13 oktyabr 2002-ci il tarixli iclasında ABŞ Konqresinin Tel-Əvivdə yerləşən ABŞ Səfirliyinin İərusəlimə köçürülməsi barədə qərar qəbul etməsi ilə əlaqədar bütün ərəb dövlətlərinin bu ölkə ilə əlaqələrini dayandırmağa çağırmışdır.

Səudiyyə Ərəbistanı Baş nazirinin müavini, Baş inspektor, Müdafiə və aviasiya naziri Əmir Sultan bin Əbdüləziz Əl Səud ölkəsinin İraqa qarşı hərbi əməliyyatları dəstəkləmədini bəyan etmişdir.

Avropa dövlətlərində və ABŞ-da İraqa qarşı hərbi kampaniyanın əleyhinə keçirilmiş çoxsaylı yürüşlər, keçmiş hərbi inspektorların İraqın nüvə, bakterioloji və kimyəvi silahlar hazırlaması haqqında Ağ Evin bəyanatlarından fərqli məlumatları, ABŞ-ın neft naminə müharibə etməsi planlarının ciddi tənqidi və nəhayət, İngiltərədə leyboristlərin 2002-ci ilin oktyabrın əvvəllərində keçirilmiş illik qurultayında Baş nazir T.Bleyrin BMT qətnamələrinin yerinə yetirilməsi mexanizminin ərəb-israil münaqişəsinə də şamil edilməsi haqqında bəyanatı ərəb aləmində rəğbətlə qarşılanaraq, prinsipial mövqe tutmağa əsas yaratmışdır. Məlumat üçün qeyd edək ki, T.Bleyrin çıxışında yuxarıda göstərilən mövqeyindən başqa, ərəb-israil münaqişəsində 1967-ci il sərhədləri (yəni bütün işğal olunmuş ərəb torpaqları) probleminə toxunması İsrail hökumətinin ciddi narazılığı, Böyük Britaniyanın «pro-ərəb» siyasətinin tənqidi və açıq ittihamları ilə müşayiət olunmuşdur.

Ərəb mənbələrinə görə, İraqa qarşı Pentaqon tərəfindən hazırlanmış yeni hərbi əməliyyatlar planı 2002-ci ilin dekabr və ya 2003-cü ilin yanvar ayına nəzərdə tutulmuşdur. Bəzi müşahidəçilər ABŞ-ın İraqa qarşı çevik və sürpriz xarakterli hərbi əməliyyat keçirəcəyini proqnozlaşdırsa da, aydındır ki, ABŞ-da yerləşən sahilyanı hərbi bazalardan artıq bir neçə ay bundan əvvəl irimiqyaslı hərbi gəmilərin (C.Vaşinqto, Linkoln, H.S.Trumen və s.) Körfəz regionuna göndərilməsi, eyni zamanda ABŞ-ın Yaponiyadakı hərbi dəniz bazalarındakı, habelə Böyük Britaniya Hərbi Hava Qüvvələri (B-2 bombardman təyyarələri) və Səudiyyə Ərəbistanı, Küveyt, Bəhreyn, Qatarda yerləşdirilmiş kontingentdən, hazırda Hind Okeanı hövzəsində yerləşən qüvvələrdən və yüz mindən artıq rezervistlərdən istifadə olunması planları bu dəfəki hərbi kampaniyaya böyük əhəmiyyət verildiyindən və qısamüddətli olmayacağından xəbər verir.

ABŞ həmçinin parallel olaraq İsrailin hava hücumundan müdafiə sistemlərinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görərək, yeni «Arrow» müdafiə qurğularının qurulmasında İsrailə yardım etmişdir (Xatırladaq ki, 1991-ci ildə Körfəz müharibəsi zamanı İsrail istiqamətində İraq tərəfindən 39 raket buraxılmışdır.) Yeni müharibədə İsraildə yerləşən hərbi bazalardan İraqa qarşı istifadə olunacağı da istisna olunmur.

Həmin mənbələrə görə, mənzil-qərargahı Cenevrədə yerləşən Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti də artıq İraqdakı gələcək müharibəyə hazırlığa başlamışdır.

Ərəb və digər müsəlman ölkələrindəki ultra radikal qüvvələr hadisələrə öz münasibətini terror aktları ilə bildirmiş, Küveyt ərazisinə daxil olan adada ABŞ hərbçiləri gülləbaran edilmiş, Yəmən sahillərində Fransa neft tankeri hücuma məruz qalmış, İndoneziyada yüzlərlə insanın tələfatı ilə nəticələnmiş dəhşətli terror aktı baş vermişdir.

Mövzudan bir qədər kənarlaşaraq, Pakistanda keçirilmiş ümumxalq seçkilərində ABŞ əleyhinə fəaliyyət göstərən islamçı qüvvələrin Parlamentdə kifayət qədər yer qazanmasını da hazırkı təhlillə əlaqələndirmək olar.



*CAVANŞİR VƏKİLOV*

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İkinci Ərazi İdarəsinin Orta Şərq və Cənubi Asiya şöbəsinin müdiri, tarix elmləri namizədi.*

# *AZƏRBAYCAN RESPUBLİKASI VƏ İRAN: XX ƏSRİN BİRİNCİ YARISI*

## *İqtisadi əməkdaşlığın təməli*

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında hərtərəfli iqtisadi əlaqələrin möhkəmləndiyi bir dövrdə bu münasibətlərin inkişaf tarixçəsinə nəzər salmaq faydalı olardı.

XX əsrin 20-ci illərinin ticarət-iqtisadi əlaqələrində xüsusi rol, həmin illərdə Azərbaycanın İrana ixracının əsas obyekti olan neftin xaricə aparılması ilə məşğul olan təşkilatlara məxsus idi. İran üçün bu rol ölkənin əsasən şimal rayonlarının tələbatının neft məhsulları ilə təmin olunması zərurəti ilə şərtləndirilirdi. O zamanlar ağ neft real surətdə yalnız Bakı neft sənayesi tərəfindən daha əlverişli yollarla İrana çatdırıla bilərdi, çünki ingilis-İran neft şirkətinin (İİNŞ) neft məhsulları ilə İranın böyük ərazisinin təmin etməsi əməli surətdə nəqliyyatın, münasib kommunikasiya vasitələrinin mövcud olmamasına görə mümkün olmurdu. Ümumiyyətlə, Birinci Dünya müharibəsindən sonrakı bərbadlıq illərində, iqtisadi imkanların məhdud olduğu şəraitdə neftin ixracı, nəinki Bakının neft sənayesinin, həm də keçmiş SSRİ iqtisadiyyatının digər sahələrinin bərpasını asanlaşdırırdı.

1923-cü ildə SSRİ-nin Xarici Ticarət üzrə Xalq Komissarlığı İranla ticarətdə marağı olan bütün trest və təşkilatların nümayəndəliklərini Bakı şəhərində yerləşdirməyi qərara aldı. 20-ci illərdə Bakıda «Sentrosoyuz»un, «Qosposrednik»in, «Vostorq»un, «Saxartrest»in, «Obvneştorq»un, «Ümumrusiya toxucu sindikatı»nın kontorları, həmçinin Bakı birjası (1922-ci ildə yaradılmışdır), Azərbaycan Sənaye-Ticarət Palatası (1923-cü ildə yaradılmışdır), «Azvneştorq» və başqaları yerləşirdi. Bu müəssisə və təşkilatların hər biri İranla ticarətdə fəal iştirak edirdi.

1923-1924-cü illərdə SSRİ-İran ticarət münasibətlərini tənzimləmək və genişləndirmək məqsədilə qarışıq Sovet-İran cəmiyyətləri təsis edilmişdir. «Persasneft»in idarə heyəti, «Şərq», «Avtoiran», «Zakpers», «İranrıba», «Rusperssaxar»ın kontorları, «Ruspersbank»ın şöbəsi Bakıda fəaliyyət göstərirdi.

1924-25-ci illərdə İranla olan bütün əmtəə dövriyyəsindən Bakının payına çəkiyə görə 69,3%, qiymətinə görə 65,8% düşürdü.

Bakı ilə yanaşı Azərbaycanın Astara, Culfa kimi şəhərləri İranla ticarətdə mühüm rol oyanırdılar. Səhmdarlarından biri Xəzər Gəmiçiliyi İdarəsi olan «Byuropers» nəqliyyat cəmiyyətinin agentliyi Culfada yerləşirdi.

Nəqliyyat və kommunikasıya sahəsində də əməkdaşlıq mövcud idi. 1916-cı ilin yayında tikilmiş Culfa-Təbriz dəmir yolu 1941-ci ilə qədər Azərbaycan Respublikasının ümumi dəmir yolu şəbəkəsi ilə birləşdirilməmişdir. 1938-ci ildə tikintisi başa çatan transiran dəmir yolu da Təbriz-Culfa dəmir yolu ilə birləşməmişdir. Azərbaycanda Ələt-Mincevan dəmir yolu 1936-cı ildə istismara verildi və beləliklə Bakı-Ələt-Mincevan xətti yaradıldı. 1941-ci ildə Mincevan-Culfa yolunun tikintisi başa çatdı. Uzunluğu 455 km olan Bakı-Culfa xətti İran dəmir yolu ilə birləşdirildi.

1941-ci ildə Bakı-Astara magistaral xəttini əmələ gətirən, uzunluğu 232 km olan Osmanlı-Astara dəmir yolu xəttinin tikintisi başa çatdı. Bu yol İran dəmir yolu ilə birləşməsə də iki ölkə arasında iqtisadi əlaqələrdə heç də az əhəmiyyətli rol oynamırdı.

Şimal qonşusu ilə İranın bütün yük dövriyyəsi dəmir, şosse yolları və Xəzər dənizi (sonradan Volqa çayı) vasitəsilə Bakı şəhərinin iştirakı ilə həyata keçirilirdi.

Azərbaycan-İran ticarət iqtisadi əlaqələrində Xəzər Dənizçiliyi İdarəçiliyi (Kaspar) də fəal iştirak edirdi. 1924-cü ildə İranla əmtəə dövriyyəsi əməliyyatına yardım göstərmək məqsədilə Kaspar Bakı limanını dəmir yolu, anbarlar, qaldırıcı kranlarla təchiz etmək üzrə işləri icra edirdi. İranın Ənzəli limanında Kasparın dəniz agentliyi fəaliyyət göstərirdi. Qeyd etmək lazımdır ki, Bakı limanının işçiləri öz iranlı həmkarlarına böyükköməklik göstərirdilər. Belə ki, onlar 1928-ci ildə Ənzəli limanının təkmilləşdirilməsində fəal iştirak etdilər.

Çox zəif poçt əlaqəsi və yolsuzluq şəraitində, xüsusilə təcili daşınma üçün, o vaxtlar yeni sayılan təyyarə nəqliyyatının təşkil edilməsi İran üçün böyük əhəmiyyət kəsb edirdi.

Hələ 1924-cü ildə Rusiya təyyarəqayırma zavodlarında istehsal olunmuş «DN-99» təyyarələri Bakı vasitəsilə Tehrana uçuşlar etmişdilər. 1925-ci ilin yanvarından Bakı-Ənzəli marşrutu üzrə sınaq uçuşları həyata keçirilirdi. 1924-cü ildə «Yunkers» alman şirkəti öz hava yollarını İranda açmışdır. 1926-cı ilin dekabrında Bakı təyyarə limanında Tehran-Ənzəli-Bakı marşrutu üzrə sınaq reysləri edən bu şirkətin təyyarəsi yerə endi. 1927-ci il oktyabrın 1-də Moskvada Moskva-Tehran xətti üzrə SSRİ və İranın aviapoçt və sərnişin xətlərinin yaradılması haqqında saziş imzalandı. Bu sazişə əsasən, Ənzəli-Bakı marşrutu üzrə və əksinə poçt, yük və sərnişin daşınması üçün həmin hava xəttinin istismarı nəzərdə tutulmuşdur. 1927-ci ilin noyabrında İran məclisinin qəbul etdiyi qanun layihəsinə əsasən, İran və SSRİ arasında poçt Konvensiyasının 3-cü maddəsinə uyğun olaraq, İran hökumətinə Ənzəli və Bakı arasında aviapoçtun daşınmasına icazə verildi. Həmin qanun layihəsinə əsasən, SSRİ təyyarəçiləri poçtu Ənzəliyə, İran təyyarəçiləri isə «Yunkers» hava şirkəti vasitəsilə Bakıya çatdırmalı idilər.

20-ci illərin axırında Moskva-Bakı-Tehran marşrutu üzrə sınaq uçuşları həyata keçirdilər.

İstər İran, istərsə də Azərbaycanın iqtisadiyyatına böyük zərər vuran çəyirtkəyə qarşı mübarizənin təşkili də son dərəcədə böyük əhəmiyyətə malik idi.

Azərbaycanın bəzi trest və müəssisələri İranda təşikl olunmuş sərgilərdə iştirak edirdilər. Məsələn, artıq 1923-cü ilin noyabrında I Ümumiran sənaye-peşə və kənd təsərrüfatı sərgisində Azərbaycan Respublikasından olan Azərittifaq, Azneft Azfarmsənaye və Azşərab iştirak etmişdilər.

Azərbaycanla İranın iqtisadi yaxınlaşmasının mühüm amili 1927-ci ilin aprelində Azərbaycan kooperasiyasını öyrənmək məqsədilə İran kooperativ nümayəndələrinin, 1927-ci ilin avqustunda Parlament nümayədələrindən ibarət İran ticarət nümayəndə heyətinin, 1928-ci ilin fevralında İran Maliyyə Nazirliyinin Baş Katibi Mirzə Seyid Əli Xan Nasirin, 1935-ci ilin aprelində Ticarət Naziri Ələm və Kənd Təsərrüfatı Naziri Bəyat başda olmaqla on bir nəfərdən ibarət İran ticarət-sənaye nümayəndə heyətinin Bakıya gəlməsi oldu.

Həmin zamanlardan bir çox illər keçmişdir. Azərbaycan Respublikasının qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişafına doğru irəlilədiyi bir vaxtda ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qaldırılması olduqca zəruridir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Əlibəyov İnqilab. SSRİ-nin Yaxın və Orta Şərq ölkələri ilə iqtisadi əməkdaşlığı- Azərbaycan Elmlər Akademiyasının Xəbərləri, iqtisadiyyat seriyası, 1967, N 3-4;
2. Rəbizadə M. 1921-40-cı illərdə SSRİ-İran iqtisadi əlaqələrinin İranın məhsuldar qüvvələrinin inkişafında rolu- Azərbaycan Elmlər Akademiyasının Xəbərləri, ictmai elmlər seriyası, 1962-ci il N 7;
3. Həsənov N.Ə. SSRİ-İran dostluq münasibətlərinin yaranması və inkişafı tarixindən-Azərbaycan Dövlət Universitetinin elmi əsərləri. Tarix və fəlsəfə seriyası, 1964, N 6;
4. Həsənov N.A. Sovet-İran münasibətlərinin dostluq tarixindən (1923-1925-ci illər). Sovet-İran iqtisadi əlaqələrin bərpa və inkişaf etdirilməsində qarışıq SSRİ-İran cəmiyyətlərinin rolu-Azərbaycan Dövlət Universitetinin elmi əsərləri, tarix və fəlsəfə seriyası, 1965, N 6;
5. Vəkilov C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı, Elm nəşriyyatı, 1991.
6. Организация и деятельность советско-персидских смешанных обществ.- Баку, 1926;
7. Konfrans-e missiyun-e moxtəlet-e İran və Şurəvi bəray-e dəf-e mələx-e Muğan.- Tehran, 1946;
8. Şeybani H. Missiyun-e dəf-e mələx-e Muğan.-Pəyam-e nou jurnalı, Tehran 1946;
9. Dokumentı vneşney politiki SSSR, t.7.- Moskva, 1963;
10. «Bakinskiy raboçiy» qəzeti (rus dilində), 1922-1941;
11.1«Kommunist» qəzeti (Azərbaycan dilində), 1922-1941;



***QURBAN MƏMMƏDOV***
***Bakı Dövlət Universitetinin***
***«Beynəlxalq münasibətlər» kafedrasının***
***baş müəllimi,***
***beynəlxalq münasibətlər üzrə magistr***

---

## *NƏRİMANOV VƏ BOLŞEVİK RUSİYASININ ŞƏRQ SİYASƏTİ*

Yaşanmış tarixin, keçilmiş yolun uğurları və məhrumiyyətləri, zəfərləri və məğlubiyyətləri ictimai fikri zaman-zaman məşğul etmiş və etməkdədir. Bu baxımdan 70 illik tarixə malik, Azərbaycanın çoxsaylı tellərlə bağlı olduğu «Sovet dövrünün» problemləri öz aktuallığı ilə seçilir. Kimin nə deməsinə baxmayaraq bu dövr xalqımızın «tale yazısı» idi, elə bir yazı ki, keçmiş Romanovlar monarxiyasına qatılan xalqların heç biri bu yazını poza bilməmişdi; bolşevik ləbbadəsinə bürünmüş yeni imperiya bir müddət dünyanı öz «şəfəqlərinə» bürümüş, cahan və vətəndaş müharibələrinin alovlarında qovrulsa da, yaşamaq qabiliyyətini nümayiş etdirmişdi.

Sovet hakimiyyətinin ilk illərində dünya inqilabının gələcəyinə dair baxışlar xüsusi populyarlıq qazanmışdı. Dünya inqilabının Qərbdən və ya Şərqdən başlanacağına dair bolşeviklər partiyası daxilində genişlənən ideya mübarizəsi çox keçmədən iki strateji istiqamətin formalaşmasını şərtləndirdi. Sonuncunun tərəfdarları içərisində N.Nərimanov xüsusilə güclü fiqura idi. «Biz Qərbə həddindən artıq aludə olub Şərqdən uzaqlaşırıq» -deyən Nərimanovun Şərqi dərindən bilməsi, milli şəraitin spesifikliyini obyektiv qiymətləndirməsi onun bütün opponentləri tərəfindən etiraf olunurdu. Bunun üçün təkcə Şərqdə doğulmaq, şərqli olmaq az idi. Bunun üçün son dərəcə uzun və keşməkeşli mübarizə yolu keçmək, Şərqin ağrı-acısı ilə yaşayıb problemlərini dərindən bilmək, nicat yollarını düzgün proqnozlaşdırmağı bacarmaq lazım idi: «müsəlmanların psixologiyası, adətləri və məişəti ilə hesablaşmaq gərəkdir, istər təşkilati işlərində, istərsə də dekretləri tətbiq etməkdə şablon hərəkətlərə yol verməməliyik». Belə dünyagörüşünün, təcrübənin nəticəsi idi ki, N.Nərimanov hələ 1905-1911-ci illər İran inqilabının gedişi zamanı 1906-cı ilin ortalarında tərcümə etdiyi RSDFP II qurultayı tərəfindən qəbul olunmuş partiya proqramının Azərbaycan dilindəki nüsxələrindən «kilsənin (məscidin) dövlətdən, məktəbin kilsədən (məsciddən) ayrılması haqqında» müddəasını çıxartmış,

yaradıcısı olduğu «İctimaiyune-amiyune» təşkilatının vasitəsilə həmin sənədin İran Azərbaycanında yayılmasına nail olmuşdu.

Sonralar, 1918-1919-cu illərdə Həştərxanda olarkən Bakı Kommunasının daxili və xarici siyasətinin dərin təhlilini («Həştərxandan məktub») verən N.Nərimanov bir tərəfdən «Şərq məsələsi» kimi təqdim olunan «erməni məsələsinin» iç üzünü açır, «erməniliyin mahiyyətinə» aydınlıq gətirir, digər tərəfdən müsəlman Şərqinin mentalitetinə uyğun strateji xəttin vacibliyini əsaslandıraraq onun konturlarını cızır.

Məlum olduğu kimi Həştərxan dövrü ictimai siyasi fəaliyyəti N.Nərimanov yaradıcılığında xüsusi mərhələ təşkil etmişdi, onun sonrakı yüksəlişi məhz buradan başlamışdı. «Qafqaz müsəlman kommunistlərinin Mərkəzi «Hümmət» dairəsi bürosu»nu yaradan və ona rəhbərlik edən N.Nərimanov «Həştərxanda mollaların və tatar məktəbləri müəllimlərinin yığıncağında nitq», «Həştərxanda müsəlman kommunistlərinin və məsul işçilərin yığıncağına nitq», «Biz Qafqaza hansı şüarla gedirik», «Urda şəhərində Bukey və qırğız stepi Şurasının III qurultayında nitq», «Qafqaz kəndli və fəhlələrinə müraciət», «Nəsibbəy Yusifbəyova məktub» və s. əsərlərində, məktub və məqalələrində Şərq həyatının incəliklərinə toxunur, müsəlmanlar içərisində aparılan təbliğat-təşviqat işinin vacib və qeyri-qənaətbəxş tərəflərini ön plana çəkərək bunlara siyasi qiymət verir, bolşevik «Şərq siyasətinin» qarşısında duran vəzifə və istiqamətlərə aydınlıq gətirir.

Maraqlıdır ki, bolşeviklərin «Şərq yürüşü» ərəfəsində Şərqə yeni müraciətnamə hazırlayan RSFSR Xarici İşlər Komissarı G.V.Çiçerin Leninə məktubunda N.Nərimanovun Həştərxandakı çıxışlarına istinadən yazırdı: «Vaxtilə Nərimanov Şərqdəki təşviqatçılara məhz bu məsələ barəsində qiymətli göstərişlər vermişdir. Din və dövlətin bir-birindən ayrılması haqqında onun mollalara söylədiyi nitq müsəlman camaatına təmkinlə yanaşmağın nümunəsidir». Lenin cavab məktubunda həmin cümlənin altından xətt çəkərək «müraciətnaməyə Nərimanovun nitqinin hamısını daxil etmək olmazmı» sözlərini qeyd etmişdi.

N.Nərmanovun arxivlərdə saxlanan və müxtəlif siyası xadimlərə ünvanlanan məktub və qeydlərində tez-tez Xarici İşlər Komissarı Çiçerinin «Şərq məsələsi ilə erməni məsələsini qarışıq salmasına dair» qeydlərə rast gəlinir. Rus müəlliflərindən S.Zarnitski və L.Trofimovanın «Xarici İşlər Komissarlığı belə başlandı» əsərində aşağıdakı qeydə rast gəlirik: «1918-ci il fevralın sonunda Çiçerin müavini Karaxanla birlikdə Komissarlığın ölkə şöbələri üçün xüsusi göstəriş hazılamışdı ki, sonralar Asiya ölkələri ilə əlaqələr qurularkən həmin göstərişlərə istinad olunmuşdu. Xatırladaq ki, Çiçerin inqilabi fəaliyyətinə görə 1904-cü ildə Rusiyadan mühacirətə getmək məcburiyyətində qalmış, 1918-ci ildə Leninin tələbi ilə İngiltərədə həbsdən azad olduqdan sonra Rusiyaya qayıtmış və Xarici İşlər Komissarı təyin edilmişdir. Bu yığcam tərcümeyi-hal onun Şərq məsələsinə dair nə dərəcədə məlumatlı olmasından xəbər verir. Lakin o, Şərq məsələsindən nə dərəcədə bixəbər idisə, müavini, əslən erməni olan Lev Mixayloviç Karaxanyan (Karaxan) bir o qədər məlumatlı idi. 1918-23-cü illərdə RSFSR XİK-in müavini olan Karaxanyan Cənubi Qafqazın işğalında, Əfqanıstan, İran, Türkiyə və s. Şərq ölkələri ilə münasibətlərin qurulmasında erməni dəst-xəttini aydın şəkildə nümayiş etdirməyə nail olmuşdu. Təsadüfi deyildir ki, Karaxanyan «erməni məsələsini» elə şişirtmişdi ki, Türkiyə və İranla aparılan

danışıqlarda Çiçerinin əngələ çevirdiyi həmin məsələ nəinki Nərimanovun, habelə Leninin hadisələrə müdaxiləsinə səbəb olmuşdu. Mustafa Kamal paşanın tövsiyyəsi ilə türk elçiləri əvvəlcə «doktorla» məsləhətləşir, sonra danışıqları davam etdirirdilər (N.Nərimanovun əmisi oğlu Q.Nərimanov Türkiyədə hərbi atteşe idi).

1919-cu ilin iyulunda Moskvaya dəvət alan Nərimanov Lenin və Çiçerinlə görüşür, Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinə rəhbərliyi öz üzərinə götürür. «Bakı fəhlə konfransının əxbari» özünün 1919-cu il 14 iyul tarixli 23-cü nömrəsində N.Nərimanovun Karaxanyanın yerinə təyin olunmasını xəbər verirdi. Şöbəyə rəhbərlik etdiyi dövrdə N.Nərimanov Şərq ölkələri, xüsusilə, Türkiyə ilə Rusiya arasında əlaqələrin dərinləşməsinə xüsusi fikir verərək yazırdı: «Türkiyə bizim köməyimiz ilə, bütün məzlum Şəriqin köməyi ilə Avropa kapitalının əsarətindən qəti surətdə xilas olar, dirçələr, öz mədəniyyətini həyata keçirər və onda Avropa hakimlərinə «mən artıq xəstə deyiləm, rədd ol get» -demək hüququ əldə edərlər, onunla hesablaşarlar, gənc nəsil başqa ruhda tərbiyələnər və Türkiyənin gələcəyi təmin edilmiş olar. Əgər kamalçılar öz vətənlərinin və öz millətlərinin həqiqi azadlıqlarını və dirçəlişini istəyirsə, onda Sovet Rusiyası ilə yaxınlaşmalıdırlar».

Müraciət etdiyimiz arxiv materialları, tanış olduğumuz sənədlər bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, türk diplomatiyası məhz Rusiyanın dəstəyi, Rusiya ilə Antanta müttəfiqləri arasında ziddityyətlərdən istifadə yolu ilə Lozanna konfransında boğazlar məsələsinin öz xeyrinə həll edilməsinə nail olmuşdu. Bunu İngiltərə və Fransanı təmsil edən nümayəndələr açıq etiraf edirdi.

Hələ Bakıda və Həştərxanda olduğu zaman N.Nərimanov türk hərbi və mülki əsirlərinin taleyi ilə yaxından maraqlanmış («Nargin cəzirəsi» və s.), onların geri qayıtmaları üçün müxtəlif səviyyələrdə diplomatik danışıqlar aparmış, bu isə türk əsirləri tərəfindən layiqincə qiymətləndirilmişdi. Aradan yüz illər keçəndən sonra Nərmanov şəxsiyyətinə yenilik işığında qiymət verən türk yazarlarından İrfan Ülgünün «Doktor Nərimanovun hekayəsi» əsərindəki aşağıdakı qeydləri indi də həyacansız oxumaq olmur: «Doktor Nəriman Nərimanov söylədiyim zaman bu ad məndə həm hüzn, həm kədər, həm də umud dolu duyğular oyandırır. O, türk dünyasının yetişdirdiyi ən böyük dövlət adamlarındandır. Böyük bir türk dövlətçisi, doktor, ideoloq və romançı, teatro yazanıydı. Azərbaycanın lideri Mustafa Kamalın və Qurtuluş Savaşımızın dəstəkçisi, Sultan Qaliyevin və Ənvər paşanın dava arkadaşıdır. 1925-də öldürüldükdən sonra adı belə bütün SSRİ və öz ölkəsi Azərbaycanda yasaq edildi, əsərləri yasaqlandı…»

Türk dünyası öz böyük övladlarına gec də olsa layiqincə qiymət verməyi bacarır…



***ТОФИК МУСАЕВ***

***Заместитель начальника Управления международного права и договоров Министерства Иностранных Дел Азербайджанской Республики***

***Диссертант кафедры международного права и государственного права зарубежных стран Бакинского Государственного Университета.***

## *ПРАВОВЫЕ РАМКИ УРЕГУЛИРОВАНИЯ КОНФЛИКТОВ НА ПРИМЕРЕ ТЕРРИТОРИАЛЬНЫХ ПРИТЯЗАНИЙ АРМЕНИИ К АЗЕРБАЙДЖАНУ*

Подход Армении, оспаривающей принадлежность Нагорного Карабаха Азербайджану, многократно представлялся вниманию международного общественного мнения на самых различных уровнях и включает главным образом тезис о якобы законности выхода бывшей автономии из состава Азербайджана в 1991 году.

